MONOQRAFİYA

AZƏRBAYCAN DİLİNDƏ

MÜASİR TARİXİ YAZIDA İNKİŞAFDA OLAN İSTİQAMƏTLƏR

İlkin Əsgər

AZƏRBAYCAN DİLİNDƏ MƏHSULDARLIQ YARADAN QEYRİ-MƏHSULDAR ŞƏKİLÇİLƏR

(Monoqrafiya)

Monoqrafya Naxçıvan Dövlət Universitetinin Elmi şurasının 28 noyabr 2014-cü il tarixli iclasının 03 № li protokoluna əsasən çap olunur.

“Elm və təhsil“
Bakı-2015

Elmi redaktor: **Fikrət Ramazan oğlu Xalıqov**
filologiya elmlər doktoru, professor

Rəyçilər: **Elbəyi Sadıq oğlu Maqsudov**
pedaqoji elmlər doktoru, professor

Vaqif Tapdıq oğlu Qurbanov
pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent

Elşad Şərəfxan oğlu Abışov
filologiya üzrə fəlsəfə doktoru, dosent

Vahid Dumanoğlu
Bakı Şəhər üzrə Təhsil İdarəsi 323 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi, AYB-nin üzvü

İlkin Əsgər (İlkin Vahid oğlu Əsgərov). "Azərbaycan dilində məhsuldarlıq yaradan qeyri-məhsuldar şəkilçilər". Monoqrafya. Bakı, "Elm və təhsil" nəşriyyatı, 148 səh.

Kitab müəllifin "Morfoloji yolla söz yaradıcılığında qeyri-məhsuldar şəkilçilərin rolu" adlı monoqrafyası əsasında yenidən işlənmiş və təkmilləşdirilmişdir. Müasir Azərbaycan dilində işlənən nisbətən az məhsuldar və qeyri-məhsuldar şəkilçilərdən bəhs edir. Əsərdə əsasən, isim, sifət, zərf və feil düzəldən qeyri-məhsuldar şəkilçilər milli, Ərəb-fars və Rus-avropa mənşəli olmaqla qruplaşdırılmış, omonimlik, sinonimlik, antonimlik xüsusiyyətləri haqqında məlumat verilmiş, onların söz yaradıcılığı prosesində iştirakı praktik nümunələr üzərində göstərilmiş və dilimizdəki söz-şəkilçilər linqvistik təhlil müstəvisinə cəlb olunmuşdur. Əsər tarixi və təsviri qrammatikanın nailiyyətlərinə əsaslanmaqla, söz yaradıcılığında qeyri-məhsuldar şəkilçilərin hazırkı vəziyyətini əks etdirir.

Monoqrafyadan abituriyentlər, ali məktəblərin filologiya fakültəsinin tələbələri, magistrantlar, doktorantlar, müəllimlər, ümumiyyətlə ana dilimizlə maraqlanan hər kəs istifadə edə bilər.

© Əsgərov İ.V - 2015
© Elm və Təhsil, 2015

4602000000 *qrifi nəşr*
*N*098 - 2015

Müəllifdən, yaxud da "Sözümün canı var"

Unudulmaz müəllimlərim Fərrux Həsənov və Şəfəq Cabbarovanın əziz xatirəsinə ithaf edirəm.

Dilimizin formalaşmasında böyük rol oynayan söz yaradıcılığı prosesi dilin bütün inkişaf mərhələlərində mühüm əhəmiyyət kəsb edir. Xüsusilə də, morfoloji yolla söz yaradıcılığı qədim tarixi köklərə malik olan ana dilimizi təkmilləşdirir, lüğət ehtiyatını daha da zənginləşdirir.

Tarix boyu söz yaradıcılığı prosesində morfoloji yolla əmələ gələn leksik vahidlər digər yollarla əmələ gələn sözlərdən üstün və məhsuldar olmuşdur. Morfoloji yolla söz yaradıcılığının tədqiq olunmasına XX əsrin ikinci yarısından başlayaraq dilçilikdə sistemli tədqiqatlar aparılmış, monoqrafyalar yazılmış, məqalələr həsr olunmuşdur. Lakin bununla bərabər, dilçiliyimizdə bir sıra məsələlər öz elmi həllini tapmamış, ayrı-ayrı tədqiqatçılar arasında fikir ayrılığı yaratmışdır. Buna görə də bəzi dilçilik məsələləri yeni yanaşma tələb edir.

Monoqrafya tarixi və təsviri qrammatikanın nailiyyətlərinə əsaslanmaqla, müasir Azərbaycan dilinin söz yaradıcılığında işlənən qeyri-məhsuldar şəkilçilər, onların dildə rolu və əhəmiyyəti, işlənmə dairəsi, omonimliyi, sinonimliyi, mənşəyi, söz yaratma qabiliyyəti kimi aktual məsələləri özündə əks etdirir. Dilimizdə rast gəlinən qeyri-məhsuldar

şəkilçilər həm kəmiyyət, həm də keyfiyyət nöqteyi-nəzərindən məhsuldar şəkilçilərdən geri qalır və azlıq təşkil edir. Məhsuldar şəkilçilər çoxmənalı sözlərdən törəmiş və daha qədim tarixi köklərə malikdir. Qeyri-məhsuldar şəkilçilər isə təkmənalı sözlərin müstəqilliyini itirərək şəkilçiləşməsi, sözlərin lüğəvi mənasının daralması əsasında əmələ gəlmiş və dil tarixinin nisbətən sonrakı inkişaf mərhələsinin məhsuludur.

Dilimizdə işlənən qeyri-məhsuldar şəkilçilər digər sözdüzəldici şəkilçilərlə bərabər S.Cəfərov, H.Mirzəzadə, M.Hüseynzadə, Y.Seyidov, Ə.Rəcəbli, Q.Kazımov, Ə.Tanrıverdi, B.Xəlilov kimi dilçi alimlər tərəfndən müxtəlif monoqrafk tədqiqatlarda, ayrı-ayrı mövzuların tərkibində linqvistik təhlil müstəvisinə gətirilmiş, etimoloji cəhətdən şərh olunmuş, sözdüzəldicilik qabiliyyəti konkret nümunələr əsasında izah olunmuşdur. A.Ağalarovun "Azərbaycan dilində qeyri-məhsuldar şəkilçilər" adlı monoqrafyasında (2010) 140-a yaxın qeyri-məhsuldar şəkilçi haqqında sistemli məlumat verilmişdir. Kitabın bu nəşri 2014-cü ildə çap olunan "Morfoloji yolla söz yaradıcılığında qeyri-məhsuldar şəkilçilərin rolu" adlı monoqrafya əsasında yenidən işlənmiş, təkmilləşdirilmişdir. 300-dən artıq qeyri-məhsuldar şəkilçini özündə əks etdirən həmin monoqrafyada müxtəlif dilçilik ədəbiyyatlarında yer alan qeyri-məhsuldar şəkilçilərlə yanaşı, ana dilimizin inkişafının son dövrlərində meydana çıxan və şəkilçi hüququ qazanan morfemlər praktik nümunələr üzərində şərh edilmiş, işlənmə xüsusiyyətləri, omonimlik, sinonimlik, antonimlik keyfiyyətləri göstərilmişdir.

Sizlərə təqdim ounan bu kitab isə, həm kəmiyyət, həm keyfiyyət baxımından əvvəlki nəşrdən fərqlənir, bir sıra ye-

nilikləri ilə diqqət çəkir. Kitabın üstünlüklərindən biri də **"söz-şəkilçi"**lərin tədqiqata cəlb olunması, onların linqvistik təhlil müstəvisinə gətirilməsidir. Söz-şəkilçilər dilçiliyin az öyrənilən mövzularından biri olub, bu günə kimi sistemli tədqiqata cəlb olunmamışdır. Orta və ali məktəb dərsliklərində də əsasən, bu məsələyə münasibət bildirilməmişdir. Yalnız ayrı-ayrı mövzuların tərkibində *(bax: 29.,101; 39.,110)*, yaxud da məqalə səviyyəsində yanaşılmışdır. Bədii mətnlər üzərində aparılan müşahidələr, müxtəlif dil faktlarının tədqiq olunması göstərir ki, müasir Azərbaycan dilində *söz-şəkilçilərin* öyrənilməsinə, onların omonimlik, antonimlik, sinonimlik kimi xüsusiyyətlərinin müəyyən edilməsinə böyük ehtiyac vardır. Hazırda dilimizdə *söz-şəkilçi* funksiyasına malik olan morfemlər arasında sözdüzəlici şəkilçilər üstünlük təşkil edir ki, onların da kəmiyyət etibarı ilə böyük bir qismi qeyri-məhsuldar şəkilçilərin payına düşür. Kitabın II fəslinin sonunda qeyri-məhsuldar şəkilçilər arasında söz-şəkilçi kimi işlənən yüzdən artıq morfem vermişik. Həmin morfemlərin də bir qrupu həm şəkilçi, həm də söz vəzifəsində müvafq cədvəldə praktik nümunələr əsasında izah olunmuşdur. Qeyd edək ki, tədqiqtın obyekti əsasən, qeyri-məhsuldar şəkilçilər olduğu üçün, digər sözdüzəldici (leksik) və sözdəyişdirici(qrammatik) şəkilçilərə mənsub olan söz-şəkilçilərə münasibət bildirilməmiş, onlar haqqında fkir söylənməmişdir.

Kitabın bu nəşri 430-dan artıq qeyri-məhsuldar şəkilçini əhatə edir. Eyni zamanda məhsuldarlığından asılı olmayaraq bir qrup şəkilçiyə, onların dildəki funksiyasına, ifadə etdikləri semantik çalarlar ilə əlaqədar münasibət bildirilmişdir. Bu şəkilçilər arasında elələri vardır ki, onlar

tədqiqat müstəvisinə ilk dəfə gətirilir. Məsələn, dialekt və şivələrimizdə, danışıq dilimizdə, məişət üslubumuzda elə sözdüzəldici şəkilçilər var ki, ədəbi dildə onlardan istifadə olunmur. Bu şəkilçilər arasında qeyri-məhsuldar şəkilçilər xüsusi əhəmiyyət kəsb edir və bu şəkilçilər ayrı-ayrı dialekt və şivələrimizdə sözyaratma prosesinə təkan verir.

Qeyri-məhsuldar şəkilçilər mənşəyinə görə, milli, Ərəb-fars və Rus-avropa mənşəli olmaqla 3 qrupa ayrılırlar. Qeyd edək ki, bu şəkilçilərin bir qismi mənbə dildə müstəqil leksik mənaya malik olub, müstəqil söz kimi işləndiyi halda müasir dilimizdə şəkilçi kimi çıxış etməkdədir. "Müəyyən sözlərlə birlikdə Azərbaycan dilinə gələn, lakin tədricən şəkilçiləşməyə doğru inkişaf edən və yeni söz yaratmaqda əsil milli sözlərimizə qoşulan alınma sözlərdir ki, belələri tarixən həmin vəzifədə işlənmiş, bütün dövrlərdə asanlıqla söz kökündən ayrıla bilmişdir". (39.,110)

Məsələn, *–xana,-dar,-saz,-bənd,-pərəst,-abad,-zad,-zadə,-amiz,-bər,-nüma,-əsər,-kar,-for,-post və s.* kimi Ərəb-fars mənşəli, Rus və avropa mənşəli qeyri-məhsuldar şəkilçilər mənbə dildə müstəqil söz kimi işlənirlər.

Müasir Azərbaycan dilindəki sözdüzəldici şəkilçilər qeyri-məhsuldar şəkilçilər də daxil olmaqla müvafq nitq hissələri ilə işlənməsinə görə, bir-birindən əsaslı şəkildə fərqlənir. S.Cəfərov onları nitq hissələri üzrə aşağıdakı kimi qruplaşdırmışdır:

1) *Ad düzəldən şəkilçilər*
   a) adlardan ad düzəldənlər;
   b) feillərdən ad düzəldənlər.

2. Feil düzəldən şəkilçilər
a) adlardan feil düzəldənlər;
b) feillərdən feil düzəldənlər.
3. Zərf düzəldən şəkilçilər
a) adlardan zərf düzəldənlər;
b) feillərdən zərf düzəldənlər.

Zərf düzəldən qeyri-məhsuldar şəkilçilər dilimizin inkişafının bütün mərhələlərində kəmiyyət etibarı ilə azlıq təşkil etdiyindən əsərdə bu qrup şəkilçilər ad düzəldən qeyri-məhsuldar şəkilçilərin tərkibində verilmişdir.

Tədqiqatın yeniliklərindən biri də, Azərbaycan dili üçün xarakterik olmayan iç şəkilçilərin qeyri-məhsuldar şəkilçilər sırasında verilməsidir. *–a, -ə,-ha,-ba,-bə* kimi inf kslər həm orta məktəb, həm də ali məktəb dərsliklərində *"şəkilçi", "birləşdirici"* başlıqları altında verilmiş, məhsuldarlığı haqqında isə əsaslı f kir söylənilməmişdir. Bu şəkilçilər adətən, təkrar olunan iki sözün arasında işlənərək quruluşca mürəkkəb sözlər əmələ gətirir. İnf kslər dilimizin söz yaradıcılığı prosesində zəif iştirak edir, isim, sifət, zərf kimi nitq hissələrinə aid quruluşca mürəkkəb leksik vahidlər əmələ gətirir. Məsələn:

Adətimiz daş idi dəva günü,
Tullardıq əldə sapan ***qıjhaqıj!***

Hər kəsə dəysəydi edərdi haman
Bir neçə gün ahü fəğan, ***u f auf!***

Mərhəm olurdu, sağalırdı yara,
Əldə qalırdı yenə can ***sapbasağ!***

İmdi revolverdi, dönüm başına,
Nagəh olur gülləfəşan partapart!

Onda görürsən yıxılıb yanbayan
Bir neçə növrəstə cəvan laybalay!

Tuf belə dövranə ki, bədtər olur
Seyri-fələk, dövri-zəman ilbəil!

Milləti-islam qırır bir-birin,
Allah, aman, bu nə yaman qırhaqır!

Qardaşa bax, qardaşını öldürür,
Vəhşi olub əhli-cəhan sərbəsər!

Milləti gördükcə belə hərcü mərc
Könlüm olur dopdolu qan qatbaqat...

(M.Ə.Sabir).

Sabirin bu şeirində *qıjhaqıj, u f auf, sapbasağ, partapart, yanbayan, laybalay, ilbəil, qırhaqır, sərbəsər, qatbaqat* kimi sözlər *–a,-ha,-ba,-bə* qeyri-məhsuldar in f kslərinin iştirakı ilə yaranmışdır.

Dilçilik ədəbiyyatlarında bu şəkilçilərin dilimizin daxili imkanları hesabına yarandığı göstərilir. M.Adilov yazır: "Beləliklə, aydındır ki, bir sıra təkrar konstruksiyalarda özünü göstərən "ba", "bə" ünsürlərini fars dilindəki "ba", "bə" ünsürləri ilə qarışdırmaq olmaz. Əvvələn, fars dilinə məxsus həmin ünsürlər yarımçıq təkrarların *(dübbədüz, qıpqırmızı, darbadağın kimi sözlər nəzərdə tutulur- İ.Ə)* arasında işlənməz... Nəhayət, dilimizdə sifətlərin hə t a tam təkrarında işlənən "ba", "bə" ünsürləri də alınma hesab oluna bilməz".(69.,72).

Başqa sözlə desək, dilimizin daxili imkanları hesabına yaranan *–ba,-bə* kimi qeyri-məhsuldar iç şəkilçilər sözün

semantikasını qüvvətləndirməyə, intensivliyini artırmağa xidmət edir.

Kitabın adında olan ziddiyyət isə əslində həqqiqətdən irəli gəlir. Çünki qeyri-məhsuldar şəkilçilər də sözyaratma prosesində əsasən, fəal iştirak edərək, müxtəlif məzmunlu söz qrupları ilə birgə işlənərək yeni mənalı müstəqil leksik vahidlər əmələ gətirir. Ənənəvi dilçilik ədəbiyyatlarında təsnifat aparılarkən *"qeyri-məhsuldar şəkilçilər"* adı altında verilən bu termin əslində şərti xarakterə malik olub, bu qrupa aid olan morfemlərin ifadə etdiyi semantikanı tam dəqiq və düzgün ifadə edə bilmir. Qeyri-məhsuldar şəkilçilərin özləri də dildə məhsuldarlığın yaranmasına və artmasına xidmət edir, dilin lüğət ehtiyatını daha da inkişaf etdirərək zənginləşdirir. Qeyd edək ki, bu monoqrafyada qeyri-məhsuldar şəkilçi kimi təqdim olunan morfemlərin sayəsində müasir Azərbaycan ədəbi dilində 1000-dən artıq yeni məzmunlu leksik vahidlər əmələ gəlmişdir. Məgər bu məhsuldarlıq deyil?! Yaxud da, bu, qeyri-məhsuldar şəkilçilərin məhsuldarlığın yaranmasında göstəricisi, rolu deyilmi?!

Nəzərə almaq lazımdır ki, qeyd olunan morfemlər vasitəsilə əmələ gələn sözlərin özləri də mikro və makromətnlərin tərkibində işlənməklə predikativ və qeyri-predikativ birləşmələrin əmələ gəlməsində olduqca mühüm əhəmiyyət kəsb edir. Dolayısı ilə bu da, məhsuldarlığın bir forması olub, dilimizin inkişafına xidmət edir. Düzdür, dilçilikdə qeyri-məhsuldar şəkilçilərə münasibət birmənalı olmamışdır. Məsələn, prof. H.Mirzəzadə "Azərbaycan dilinin tarixi morfologiyası" (bax: 39) adlı kitabında həm tarixən, həm də bu gün işlənən bəzi qeyri-məhsuldar şəkilçiləri

müstəqil şəkilçi hesab etmir. Belə şəkilçilər *–gir,-zar, -xah,-əng* olmaqla, əsasən fars mənşəli şəkilçilər qupuna aiddir. H.Mirzəzadə bu kimi şəkilçilərin həm mənbə dildə, həm də bizim dilimizdə zəif iştirakını əsas gətirməklə, *–gir,-zar, -xah,-əng* şəkilçisi işlənmiş sözləri sadə götürməyi daha münasib hesab edir.(bax: 39.,110-111). Əlbəttə, bu fkir dildə özünü doğrultmur. Ona görə ki, göstərilən şəkilçilər artırıldığı sözdə yeni semantika yaratmaqla bərabər, əsasən, artırıldığı sözün mənsub olduğu söz qrupunu da dəyişdirir. Məsələn, *fənd, cib, pul* kimi sözlər nitq hissəsi etibarı ilə isim olduğu halda, *-gir* şəkilçisi qəbul etdikdən sonra sifətə çevrilir: *fəndgir uşaq, pulgir adam, cibgir şəxs***.** Bundan əlavə bu şəkilçilərin əsasında da yeni sözlər əmələ gələ bilir. Məsələn: *fənd-fəndgir-fəndgirlik, azad-azadxah-azadxahlıq, üzr-üzrxah-üzrxahlıq və s.*

Bu hal milli mənşəli şəkilçilərə də aiddir. Məsələn, bir cür yazılan *–tuq* şəkilçisi əsasında müasir Azərbaycan ədəbi dilində 19 leksik vahid (sadə, düzəltmə, mürəkkəb olmaqla) əmələ gəlmişdir: *"qoltuğuboş, qoltuğudolu, qoltuq, qoltuqağacı, qoltuqaltı, qoltuqçu, qoltuqçuluq, qoltuqfüruş, qoltuqfüruşluq, qoltuqqulu, qoltuqlama, qoltuqlamaq, qoltuqlanma, qoltuqlanmaq, qoltuqlatma, qoltuqlatmaq, qoltuqlu, qoltuqsazı, qoltuqsuz".(bax: 17., 419)*

Misallardan da göründüyü kimi *–tuq* şəkilçisi olmadan bunları əmələ gətirmək mümkün deyil. Daha doğrusu, *-tuq* şəkilçisini çıxartsaq, ya sözün semantikasında fərq əmələ gələr, ya da söz ümumilikdə məna verməz. Məsələn: *qoltuqlama- qollama, qoltuqçu-qolçu, qoltuqlanmaq-qollanmaq, qoltuqqulu-qolqulu, qoltuqsazı-qolsazı və s.*

İşin əsas predmetini əsas və köməkçi-budaq morfemlər təşkil edir. Monoqrafyada öz əksini tapmış fkir və mülahizələr həm şərti, həm təqsimi, həm də, qəti hökümlər kimi səciyyələndirilməlidir.

Əsərin ərsəyə gəlməsində dilçiliyin son dövr nailiyyətləri saf-çürük edilmiş, mövzu ilə əlaqədar monoqrafk tədqiqatlar nəzərdən keçirilmiş, ayrı-ayrı fkir və mülahizələrə inkari və iqrari münasibət bildirilmişdir. Əvvəlki nəşrdə olan texniki qüsurlar aradan qaldırılmış, praktik nümunələrin sayı artırılmışdır.

Monoqrafya haqqında qeyd, təklif, münasibət, tənqidi fkir bildirənlərə əvvəlcədən təşəkkürümüzü bildiririk.

I FƏSİL

AD DÜZƏLDƏN QEYRİ-MƏHSULDAR ŞƏKİLÇİLƏR VƏ ONLARIN MƏNŞƏYİ

1.1. Ad düzəldən milli mənşəli qeyri-məhsuldar şəkilçilər.

Ad düzəldən qeyri-məhsuldar şəkilçilər ana dilimizin bütün tarixi inkişaf mərhələlərində kəmiyyət və keyfyyət nöqteyi-nəzərindən zərf və feil düzəldən qeyri-məhsuldar şəkilçilərdən üstün olmuşdur. Bu qrup şəkilçilər daha çox isim, sifət və feil sonuna qoşulmaqla yeni sözlər əmələ gətirir. Zərf düzəldən qeyri-məhsuldar şəkilçilər dilimizdə azlıq təşkil etdiyindən onları da *“ Ad düzəldən qeyri-məhsuldar şəkilçilər”* başlığı altında təqdim edirik. Ad düzəldən qeyri-məhsuldar şəkilçilər həm milli, həm də alınma mənşəli sözlərlə işlənə bilir. Bu bölgüyə daxil olan şəkilçilər şərti olaraq milli, Ərəb-fars və Rus-avropa mənşəli qeyri-məhsuldar şəkilçilər kimi qruplaşdırılır. Milli mənşəli qeyri-məhsuldar şəkilçilər bəzi istisna halları nəzərə almaqla əsasən aşağıdakılardan ibarətdir.

-uc. İsimdən isim düzəldən milli mənşəli qeyri-məhsuldar söz-şəkilçidir. Qoşulduğu sözdə əşya, nəticə, aqibət çaları ifadə edir. Məsələn: *sonuc*

-sal. Müasir Azərbaycan dilində *-lı,-li,-lu,-lü* şəkilçisinin sinonimi kimi çıxış edir.Bəzi türk dillərində şəkilçi *–sel*

formasında işlənir. Daha çox isimlərin sonuna qoşulmaqla əlamət, keyfiyyət bildirən yeni sözlər düzəldir. Məsələn: *rəqəmsal, duyğusal, qumsal.*

-in. Omonim şəkilçi olub, bəzi say və isimlərdən şəxs adı bildirən onamastik vahidlər düzəldir. Məsələn: *İlkin, Eşqin.*

-ti. Bu şəkilçi feildən isim düzəldən *–ti* şəkilçisi ilə omonimlik təşkil edir. Qeyri-məhsuldar şəkilçi kimi isimdən əşya, mücərrəd, kiçiltmə mənalı isim düzəldir. *Hənir sözünə qoşularaq* **hənirti** *sözünü yaradır.* Məsələn: *Alıb hənirimi haya gəlmisən...(A.Laçınlı), Hənirtiyə həyətə çıxan Qönçə xanım bir xeyli heyranlıqla qardaşının yanakı qoyduğu papağına, əyninə kip yapışan gödəkcəsinə, qara məxmər şalvarına, günün işıltısında burnu parıldayan çəkməsinə və zər baftalı dolağına xeyli baxmışdı.(İ.Şıxlı).*

-pər. Sifətdən sifət düzəldən qeyri-məhsuldar söz-şəkilçidir. Dilimizdəki *"yekəpər"* sözü bu şəkilçi vasitəsilə əmələ gəlmişdir.

-bab. Müasir Azərbaycan dilində sifətdən sifət düzəldən qeyri-məhsuldar söz şəkilçi olub, *babat* sözünün şəkilçiləşməsi, ixtisarı nəticəsində meydana gəlmişdir. Dilimizdə bu model əsasında onlarla söz yaranmışdır. Tədricən sabitləşməyə doğru inkişaf mərhələsindədir. Məsələn: *ortabab.*

-düz. Bu şəkilçi qədim türk yazılı abidələrinin dilində *–tüz* şəkilində işlənmişdir. Yaranma tarixi qədim olmasına baxmayaraq söz yaradıcılığı prosesində olduqca zəif iştirak edir. Dilimizdəki *gündüz* sözü bu şəkilçi vasitəsilə yaranıb. Qoşulduğu sözdə zaman məfumu yaradır:

Sinəsində dağlar qalan,
*Bir həsrətlə a*ğlar *qalan,*

Gecə, gündüz çağlar qalan
Araz kimi çayım varmış.

(V.Dumanoğlu)

-a,-ə. Söz yaradıcılığı prosesində omonimlik keyfyyətinə malik budaq morfem kimi, həm məhsuldar, həm də qeyri-məhsuldar şəkilçi yerində çıxış edir. Əsasən adların sonuna əlavə olunmaqla zaman, bənzətmə, əşya, alət bildirən sözlər düzəldir. Məsələn: *küpə, qoza, gecə, lavaşa. Siçanla pişik bir küpə tapıb yağı doldurdular içinə, aparıb bir ağacın dibində yer qazıb basdırdılar, sonra qayıdıb gəldilər evlərinə.(folklordan), Gecə ulduzludur, hava da sərin.(S.Vurğun)*

-ə. Qeyri-məhsuldar omonim şəkilçi olub, feldən sifət əmələ gətirir. Məsələn: *kəsə (yol); Məktəbdə oxuduğu vaxt, qış və yay tətillərində yoldaşları ilə şəhərə həmin bu kəsə cığırla gəlib-gedərdi.(İ.Şıxlı)*

-n. Omonim səciyyəsi daşıyan və isimdən isim düzəldən qeyri-məhsuldar şəkilçidir. Qoşulduğu sözdə daha çox mücərrədlik yaradır. Məsələn. *qadağan, məsələn və s.*

-qa. Əsasən, təsirsiz fellərə qoşulmaqla yeni mənalı, əlamət bildirən sözlər düzəldir. Məsələn. *Sızqa, şişqa*

Sinəm yaman sözlə dolub,
Səndə gülüm vaxtsız solub.
Yol üstdəki bulaq olub
Sızqa-sızqa axam dağlar?! (V.Dumanoğlu)

-ey,-dey. Bu söz-şəkilçi artırıldığı sözdə məkan, yer məzmunu yaradır. *–ey* söz-şəkilçisi dilimizdə tərəf mənasını ifadə edir. Məsələn. *Quzey(gün düşməyən tərəf//yer), güney(-gün düşən tərəf), daldey(dalda yer).* Şəkilçi *"quzey"* sözünün tərkibində artıq daşlaşmışdır.

Güneydə quzeyim, qışda *yazımsan.(B.Vahabzadə), Quzeylərdən qar əriyib gedəndə; çəmən yaşıl, çiçək qönçə olarmış. (V.Dumanoğlu), Yaz qabağı gün güneyi döyəndə...(M.Şəhriyar) və s.*

-ısqal. *Dar* sözünə qoşulub *"darısqal"* sifətini düzəldir. "Əsli darsınqal olub, tatar dilində bu kəlmə darsınırqa kimi işlədilir. –sın şəkilçisi müxtəlif formalarda işlədilir və meyil bildirir. (gülümsünmək, qohumsunmaq). Deməli, darsın sözü azca dar olmaq deməkdir, feildir. –qal şəkilçisi isə feldən sifət düzəldir". (12.,115) Müasir Azərbaycan dilində *-ısqal* kimi sabitləşmişdir.

-bat. Adlardan ad düzəldən qeyri-məhsuldar söz-şəkilçidir. Əsasən səbəb anlayışı yaradır. Məsələn: *ucbat (müqayisə edin: ucundan-ucbatından-üzündən)*

-sı,-si,-su,sü. Əslində bu şəkilçi saitlə bitən sözlərdə III şəxs təkini ifadə edən mənsubiyyət göstəricisidir. Sözdəyişdirici şəkilçinin sözdüzəldici şəkilçiyə çevrilməsi yolu ilə yaranmışdır. Lakin *–sı,-si,-su,-sü* mənsibiyyət şəkilçili bütün sözləri bu qrupa aid etmək olmaz. İsimlərdən və bəzi substantiv səciyyəli sözlərdən ad, şəxs, əzizləmə, müraciət, xülasə, əşya mənalı sözlər düzəldir. Məsələn. ***qadası, Ağası, balası, ölüsü, eləsi, beləsi, intəhası, cəmisi və s. Qadası,*** **balası** kimi sözlər daha çox danışıq dili üçün səciyyəvi olub, müraciət bildirir. *Cəmisi* sözü isə mənsubiyyət şəkilçisinin iki dəfə təkrarı əsasında əmələ gəlmişdir. Bu şəkilçi əsasında əmələ gəlmiş *ölüsü*,(axırı, yekunu mənasında-İ.Ə), *intəhası* sözləri artıq dilimizdə sabitləşmişdir və ara söz qismində çıxış edir.

-zik. Feil sonuna artırılmaqla əşya, alət, vasitə, qab bildirən yeni mənalı isim əmələ gətirir. Məsələn: *əmzik; Tey-*

mur qoltuğundakı kağızı açdı, ordan bir əmzik çıxardıb Leylaya verdi.(İ.Şıxlı).

-caq,-cək. Şəkilçi omonimlik keyfyyətinə malik olub, dilimizdə müxtəlif söz qruplarına aid yeni sözlər düzəldir. Əsasən, felin kök və əsasına artırılıb əşya, alət(isim),əlamət, keyfyyət (sifət), hal-vəziyyət, zaman(feli bağlama) məfumu ifadə edən sözlər düzəldir. Məsələn: *bürüncək, yelləncək, gəmircək, tüpürcək,* əmcə*k (isim), utancaq, ərincək (sifət),* çıxcaq, görcək*, gəlcək, qoycaq, gülcək (feli bağlama) və s.*

İsim düzəldən *–cək* şəkilçisinə *-cəg* formasında olmaqla "Kitabi-Dədə Qorqud dastanları"nın dilində işlənmişdir: *...Qavradı, qızıŋ bağdamasın aldı. Əmcəgindən tutdı. Qız qucandı. ... Buyurdu bir dayə gəldi. Əmcəgini ağzına verdi. Bir sordı, olanca südin aldı...*

Qeyd: Feli bağlama əmələ gətirən *–caq,-cək* şəkilçisi tarixən də dilimiz üçün xarakterik olmuşdur. Şəkilçi haqqında H.Mirzəzadə yazır: " Bu şəkilçinin XIX əsrdə az-çox işləndiyi müşahidə olunursa da, XX əsr ədəbi dilində və dialektlərdə özünü göstərmir".(39.,293). Müxtəlif dil faktları üzərində aparılan müşahidələr göstərir ki, bu yanaşma düzgün deyildir. Çünki orta əsrlərdə olduğu kimi XX əsrdə də *-caq,-cək* şəkilçisi işlənmişdir. Təkcə Sabirin yaradıcılığında bu şəkilçiyə bir neçə dəfə rast gəlmək mümkündür. Məsələn, Sabirin 1907-ci ilin 13 sentyabrında *"Bəhlul"* jurnalının altıncı nömrəsində nəşr olunan və *"Bəzi yerlərdə təsadüf olunur aşa, ətə..."* misrası ilə başlanan şeirində *–caq,-cək* şəkilçisi aşağıdakı formada işlənmişdir:

Bəzi yerlərdə təsadüf olunur aşa, ətə,
Müftə görcək tuturam kəndimi bozbaşa, ətə!

O qədər xoşlanıram tüstüsü çıxcaq kababın-
Ac bişik tək cumuram şövq ilə birbaşa ətə!

Bu şəkilçi ilə sinonimlik təşkil edən zaman mənalı – *ğac,-gəc* şəkilçisi də tarixən işlək olmuşdur. "Kitabi-Dədə Qorqud dastanları"nın dilində, Nəsimi, Xətayi, Füzuli, Saib Təbrizi, Qövsi Təbrizi kimi sənətkarların yaradıcılığında –*ğac,-gəc* şəkilçisi vasitəsilə əmələ gələn çoxlu sayda feli bağlamalara rast gəlmək mümkündür. Təkcə Q.Təbrizinin "*Görgəc*" rədifi qəzəlində *-gəc* şəkilçisi on dəfə *görgəc* sözünün (rədif formasında) tərkibində işlənmişdir:

Əldən gedirəm sərvi-xüramanını görgəc,
Dildən düşürəm qönçeyi-xəndanını görgəc.
Rəhm eyləyib əhvalına kuyindəki itlər,
Fəryadə gəlir Qövsiyi-nalanını görgəc.

-gəc,-ğac şəkilçili sözlər əksərən determinat xarakterə malik olub, cümlənin ümumi məzmunu ilə əlaqələnir. Məsələn: *Böylə digəc oğlanıŋ qulağına səs toqındı. Başın qaldırdı, yalabıdaq gözin açdı. Anasınıŋ yüzinə baqdı...*

-acıq. Sifətin azaltma dərəcəcinin morfoloji göstəricisi hesab olunur. Dilimizdə say və zərf kimi işlənən ***az*** (çox sözünün antonimi) sözünə artırılıb *azacıq* sözünü düzəldir. Bu sözə "*Azacıq aşım, ağrımaz başım*" atalar sözündə də rast gəlinir. Güman olunur ki, *azacıq* sözü tarixən *azazcıq* formasında olmuş, zaman keçdikcə eliziya hadisəsi nəticəsində *azacıq* şəklinə düşmüşdür. Məsələn: *Qapı azacıq aralandı. (İ.Şıxlı), Donuz isə nəfəsini dərib fürsət gözləyir, azacıq keçsə, iti parçalayacaq.(İ.Şıxlı)*

-lam. Sifətdən sifət düzəldən qeyri-məhsuldar şəkilçidir. Əlamət, keyfyyət məfumu ifadə edir. Məsələn: *sağlam*

-aq. Feildən ad düzəldən *–aq,-ək,-q* şəkilçisi ilə omonimlik təşkil edir. Qeyri-məhsuldar şəkilçi olub, adlardan ad düzəldir. Məsələn: *yalaq, xeylaq. Xeylaq* sözündə eliziya hadisəsi nəticəsində *i* saiti düşmüşdür. *Xeyli+aq=xeylaq.*

Bu şəkilçi qeyri-məhsuldar olsa da, dilimizdə işlənmə tarixi olduqca qədimdir. Hətta *"yalaq"* sözünə "Kitabi-Dədə Qorqud dastanları"nda rast gəlinir:

İlaqırdı söyləmə, mərə itüm kafr!
İtümlə bir yalaqda yundım içən azğun kafr!

Bu məqamda **–aq** şəkilçisi qoşulduğu sözdə alət, əşya, yer, məkan, qab çalarını ifadə edir. *Yalaq* sözünün semantikası da bunu sübut edir. Şəkilçi dialekt və şivələrimizdə də işlənməkdədir. *–aq* şəkilçisinin *–ax* fonetik variantı Qazax və Cəbrayıl dialektində qeydə alınmışdır. *–aq* şəkilçisi həm *–aq,* həm də *-ax* formasında İ.Şıxlı yaradıcılığında da işlənmişdir: *Güllü xanım bu gün itləri zəncirdən tez açdırmışdı. Gəlinlər itlərin yalaxlarını yal ilə doldurmuşdu. İtlər əvvəlcə zəncirdən açılandan sonra evin ətrafında hərlənmiş, Kürün yaxası boyu qaçmış, sonra da yalaxların* üstünə cumaraq mırıldaşa-mırıldaşa yala hücum etmişdilər...*Yalaq* düzəldib ala çatıları ora qoyurdular.

-ay. Qeyri-məhsuldar söz-şəkilçi olub**,** feildən əşya, proses, hadisə məzmunu ifadə edən isim düzəldir. Məsələn: *olay*

-tay. Bu şəkilçi də qeyri-məhsuldar söz-şəkilçilər qrupuna aiddir. *"Qurulmaq"* felinin əsasına əlavə olunaraq, əşya, hadisə, ictimai məzmun daşıyan *"qurultay"* sözünü yaradır.

-sul. Bu şəkilçinin sifət düzəldən *–lı,-li,-lu,-lü* şəkilçisinin sinonimi olan *–sal-sel* budaq morfemi ilə qohum olmasını, bir mənbədən yaranmasını düşünmək olar. *"Yox"* sözünə qoşulub *yoxsul* sifətini düzəldir.

-mal. Bəzi feillərin sonuna artırılmaqla, əlamət,keyfyyət bildirən sifətlər düzəldir. Dilimizdə *sağmal* və *qırışmal* sözlərində təsadüf olunur. Məsələn*: Onun beş sağmal camışı vardı, bir də ərəmiyi.(İ.Şıxlı).* Müasir Azərbaycan dilində *-mal* şəkilçisi vasitəsilə yeni bir neologizm də yaranmış lakin hələ tam sabitləşməmişdir. Məsələn: *tanımal. Mustafa kişi tanımallığı sayəsində özünə yaxşıca hörmət-izzət qazanmışdı.(İ.Mahmud), Tanımal Mustafa elə darıxırdı, heç olmayan kimi.(İ.Mahmud).*

-taq. İsimdən atributiv səciyyəli söz əmələ gətirən qeyri-məhsuldar şəkilçidir. Qoşulduğu sözün məzmununda şəxs, əlamət, keyfyyət, xüsusiyyət çaları yaradır Məsələn: *yaltaq*

-ıc. İsim düzəldən milli mənşəli qeyri-məhsuldar şəkilçidir. Qoşulduğu sözdə əşya, alət,yer, məkan çaları yaradır. Məsələn: *ayrıc, ismarıc* və s.

-calı. Daha çox rəng bildirən sifətlərdən yer, məkan mənalı toponimlər əmələ gətirir. Məsələn: *Sarıcalı, Alıcalı, Qaracalı* və s.

-cəli. Bu şəkilçi zahirən *–calı* şəkilçisinə oxşasa da, ondan öz funksiyasına, təyinatına görə əsaslı şəkildə fərqlənir. Müasir Azərbaycan dilində feildən əlamət, keyfyyət bildirən yeni söz düzəldir. Məsələn: *öyrəncəli***.**

Dərddən qəlbim qubar-öyrəncəliydim,
Hər cür iztiraba öyrəncəliydim.

Ən ağır əzaba öyrəncəliydim,
Belə mat qalmadım mən ömrüm boyu.

(R.Məcid)

-cəli budaq morfominin tərkibindəki –cə hissəciyi də -calı (Qaracalı və s.) morfominin tərkibində olan –ca hissəciyi ilə eyni mənbədən deyillər və fərqli semantikaya malikdirlər. Çox güman ki, -cəli şəkilçisindəki –cə hissəciyi **-acaq, -əcək** şəkilçisi ilə eyni mənbədən olub, onun sadələşməsi əsasında yaranmışdır: *öyrənəcəkli -öyrəncəkli -öyrəncəli.*

-qədər. Bu söz dilimizdə həm əsas nitq hissəsi kimi, həm də köməkçi nitq hissəsi kimi işləndiyindən omonimlik keyfyyətinə malikdir. Qeyri-məhsuldar şəkilçi kimi müasir Azərbaycan dilində *məktəbəqədər* sözünü əmələ gətirir. Bu şəkilçi əslində adlıq, yiyəlik, yönlük hallı söz və birləşmələrə qoşulan *-qədər* qoşmasının şəkilçiləşməsi, ilkin mənasından qismən uzaqlaşması nəticəsində əmələ gəlmişdir. *–ca,-cə* köməkçi nitq hissəsi söz yaradıcılığında iştirak etdiyi kimi, *-qədər* qoşması da iştirak edə bilir və yeni mənalı söz düzəldir. Qeyd edək ki, bu fkir şəkilçiləşmiş və sözlərə bitişik yazılan bütün qoşmaların, ümumiyyətlə köməkçi nitq hissələrinin leksik şəkilçi olması anlamına gəlməz. Bu onların semantikasından, vurğusundan, işlənmə məqamından asılıdır. Şəkilçiləşmiş *–qədər* morfemi ilə adlıq, yiyəlik və yönlük *(Əli qədər, onun qədər, məktəbə qədər və s.)* halda olan söz və birləşmələlə işlənən *qədər* qoşması zaman və məkan etibarı ilə də fərqlənirlər. *Qədər* qoşması daha çox *yer, məkan, məsafə, ölçü* bildirir. Qeyri-məhsuldar şəkilçi kimi isə əsasən *zaman, yaş, dövr* ifadə edir. Bundan əlavə *qədər* qoşması adlıq və yiyəlik hallı sözlərlə işləndik-

də *müqayisə, bənzərlik, oxşarlıq* çalarına malik olur.

-varı. (-vari). Bu şəkilçi nisbətən məhsuldarlığı ilə seçilən, ahəng qanununa tabe olmayan və bir cür yazılan şəkilçidir. Qoşulduğu sözlərdə əlamət, keyfyyət, bənzərlik, eynilik, oxşarlıq çaları yaradır. Əsasən, adlardan sifət düzəldir. Məsələn: *buynuzvarı, yüngülvarı, nağılvarı, ipəkvarı, oyunvarı, dənəvarı, dilcikvarı, muncuqvarı, otaqvarı və s.*

Bu şəkilçi əslində məhsuldardır. Şəkilçinin yazılışına dair ziddiyyətli məqamalar olduğu üçün, bu haqda münasibət bildirmək zərurətini duyduq. Qeyd edək ki, bəzi ədəbiyyatlarda şəkilçi *–varı* şəklində sözlərə bitişik yazılır. Ümumiyyətlə, *-vari/ı* şəkilçisinin yazılışı müxtəlif illərdə nəşr olunan orfoqrafya qaydaları və lüğətlərində bir neçə dəfə dəyişmişdir. Məsələn, Azərbaycan SSR Nazirlər Sovetinin 1958-ci il 24 iyul tarixli, 497 nömrəli və 1959-cu il 6 aprel tarixli 286 nömrəli qərarları əsasında 1975-ci ildə nəşr olunan orfoqrafya lüğətinin III nəşrində bu şəkilçinin yazılışı *-varı* kimi göstərilmiş və izah olunmuşdur.(bax: 19., 15). Prof. Ə.Əfənizadə də şəkilçini "Orfoqrafya-orfoepiya lüğəti"ndə *-varı* kimi vermişdir. Orfoqrafya lüğətinin 2004-cü il nəşrində isə (bax: 6) şəkilçinin yazılışı haqqında müvafq qayda göstərilsə də, lüğətdə buna əməl edilməyib. Bu lüğətin "Orfoqrafya qaydaları" hissəsinin şəkilçilərin yazılışı bölməsində şəkilçi *-vari* kimi izah olunur və müvafq misallar verilir: *"...vari şəkilçisi: buynuzvari, qalxanvari, yüngülvari, üzükvari"*(bax: 6.,7) Lakin lüəğət boyu göstərilən sözlər də daxil olmaqla *–vari* şəkilçili sözlər *–varı* formasında yazılmışdır. 2013 –cü ildə nəşr olunan Azərbaycan dilinin orfoqrafya lüğətinin VI nəşrində isə, şəkilçi *–varı*

formasında verilmişdir. Şəkilçinin yazılışına dair izahatda da *–varı* forması izah olunmuş və lüğətin 2004-cü il nəşrindəki müvafq misallar*(ordakı izahatda –vari kimi verilib)* yenidən *–varı* şəklində verilmişdir: *"...vari şəkilçisi: buynuzvarı, qalxanvarı, yüngülvarı, üzükvarı"(17.,14)*

Qeyd: *Bizim fkrimizcə, şəkilçinin –vari formasında işlətmək daha düzgün və məntiqlidir. Ahəng qanununa tabe olma nöqteyi-nəzərindən –vari, yaxud da –varı şəkilçisinin arasında heç bir fərq yoxdur. Çünki hər iki halda istisnaları nəzərə almaqla ahəng qanununun pozulması halına dildə təsadüf olunur: lələkvari- lələkvarı, yarpaqvari-yarpaqvarı, qalxanvari-qalxanvarı, üzükvari-üzükvarı və s.*

VI nəşrdə verilən –varı şəkilçisinin bir qrup söz istisna olunmaqla, digər sözlərdə işlənməsi ədəbi dil normaları baxımından özünü doğrultmur, nitqi və üslubu daha da ağırlaşdırır. Bu şəkilçinin yazılışı da, dilimizdə işlənən sözlərin əksəriyyəti kimi fonetik prinsipə əsaslanmalıdır. Şəkilçi deyildiyi kimi də yazılmalıdır.

-lar,-lər. Bu şəkilçi əslində əşya məzmunu bildirən sözlərin sonuna artırılıb, qeyri-müəyyən kəmiyyət ifadə edir. Məsələn. *Dağların gözünün yaşına baxma,şairlər çəkəni dağlar çəkməyib.(H.Arif), Əllərdə gəzməyin bir kitab kimi(M.Araz), Dostlar, badələri qaldırın içək.(S.Vurğun), Qüzeylərdən qar əriyib gedəndə çəmən yaşıl, çiçək qönçə olarmış.(V.Dumanoğlu), Sellər də yanar söndürə bilməz! Bir qəlbə əgər düşsə məhəbbət.(B. Vahabzadə), Firidun yolda çəkdiyi əzablara, gündüzlər gizlənib gecələr isə yol gəldiyinə baxmayaraq, çox ayıq yatmışdı.(M.İbrahimov).*

Bu nümunələrdə *dağlar, şairlər, əllər, dostlar, qüzeylər, sellər, əzablar, gündüzlər, gecələr* kimi leksik vahidlə-

rin tərkibindəki –lar,-lər qeyri-müəyyən kəmiyyət, cəmlik bildirir. Kəmiyyət kateqoriyasının morfoloji əlaməti kimi *–lar,-lər* şəkilçisi olduqca məhsuldardır və sözdəyişdirici şəkilçidir.

Lakin *–lar,-lər* şəkilçisi söz yaradıcılığı prosesində iştirak edib yeni sözlər düzəldə bilir. Bu məqamda şəkilçi qeyri-məhsuldar və leksik səciyyə daşıyır. S.Cəfərov bu tip şəkilçiləri qrammatik-leksik şəkilçi adlandırmışdır. Qeyri-məhsuldar şəkilçi kimi, daha çox isim və saylardan şəxs, əşya, ad mə f umu ifadə edən sözlər, xüsusilə də, antroponimlər əmələ gətirir. Məsələn: *Ağalar, Bəylər, Şahlar, Xanlar, Yeddilər, Dördlər* və s.

-anaq,-ənək. *–an,-ən və -aq,-ək* şəkilçilərinin sintezindən ibarət qeyri-məhsuldar şəkilçidir. Həm isim, həm də fellərin sonuna qoşulmaqla əşya, alət, vasitə, proses adı bildirən isimlər düzəldir. Məsələn: *tozanaq, sızanaq, əkənək, biçənək, boğanaq, doğanaq, dəyənək, döyənək, eşənək və s.*

-lov. İsimdən isim düzəldən qeyri-məhsuldar şəkilçi olub, əşya, alət, vasitə bildirən söz əmələ gətirir. Məsələn: *oxlov*.

-rik. Dilmizdəki *kiprik* sözü bu şəkilçi vasitəsilə əmələ gəlmişdir. Dilin inkişafının müəyyən bir mərhələsində metateza hadisəsi nəticəsində *p>r* əvəzlənməsi baş vermişdir. Hazırda dilimizdə *kirpik* formasında sadə söz kimi işlənir. Sözün formalaşma tarixi də qədimdir. “Dastani-Əhməd Hərami”nin dilində də *kirpik* şəklində işlənmişdir:

Hənuz oğlan idi, on idi yaşı,
Vəli kirpigi ox, yay idi qaşı.

-inik. Feildən sifət düzəldən qeyri-məhsuldar şəkilçi olub, *-nik* şəkilçisi ilə sinonimlik keyfyyətinə malikdir. Məsələn: *Əzinik-əznik***.**

-cıl,-cil,-cul,-cül. Bəzi dilçilik ədəbiyyatlarında əsasən, adlardan bacarıq, xasiyyət, əlamət, keyfyyət anlayışlarını yaradan, sifət düzəldən *-cıl,-cil,-cul,-cül* şəkilçisi qeyri-məhsuldar kimi göstərilir. Halbuki, dilimizdə bu şəkilçi vasitəsilə yaranan xeyli sayda söz vardır. Məslən: *adamcıl, dostcul, zarafatcıl, qohumcul, ölümcül, söhbətcil, yuxucul, siyasətcil, qonaqcıl, qabaqcıl, işcil və s.* Məhz buna görə də bu fkirlə razılaşmaq olmaz. Lakin *-cıl,-cil,cul,-cül* omonim şəkilçisi isimdən isim düzəldən şəkilçi kimi qeyri-məhsuldar olub, əşya, alət məzmunu bildirir. Məsələn: *barmaqcıl, balıqcıl.*

-l. Bu şəkilçi dilimizdə sifət düzəldən və olduqca məhsuldar olan dördvariantlı *-cıl,-cil,-cul,-cül* şəkilçisinin əsasında yaranmışdır. Milli mənşəli sifət əmələ gətirən *–l* qeyri-məhsuldar şəkilçisi Rus-avropa mənşəli *–l* şəkilçisi ilə omonimlik keyfyyətinə malikdir. Əsasən say bildirən sözə qoşulub əlamət, keyfyyət məzmunu yaradan söz əmələ gətirir. Məsələn: *ortancıl*

"Ortancı" sözünün tərkibindəki *–ncı* miqdar saylarından sıra sayı əmələ gətirən *–ıncı,-inci,-uncu,-üncü* şəkilçisinin ilk saitinin düşməsi nəticəsində formalaşmışdır. Həm milli, həm də türkoloji dilçilikdə bir qrup sözlər şəkilçi qəbul edərək sıra sayı funksiyasında çıxış edə bilir. Məsələn: əvvəlinci, axırıncı, sonuncu, ortancı, ilkin və s.

Sözün kökü *(orta)* saitlə bitdiyindən şəkilçinin tərkibindəki sait eliziya hadisəsi nəticəsində ixtisar olunmuşdur: *orta-orta(ı)ncı-ortancıl*

-baq. Şəkilçi tarixən *"bağ"* formasında müstəqil söz olub, zaman keçdikcə müstəqilliyini itirərək müasir dili-

mizdə şəkilçi kimi sabitləşmişdir. Qoşulduğu sözdə əşya, alət məzmunu yaradır. Məsələn: *qolbaq*

-puş. Adlardan ad düzəldən qeyri-məhsuldar şəkilçi olub, qoşulduğu sözdə bənzərlik, oxşarlıq, əlamət, keyfyyət çaları yaradır. Məsələn: *toppuş.*

-puz. Bu şəkilçi də adlardan ad düzəldən qeyri-məhsuldar şəkilçidir. Əsasən, bənzərlik, oxşarlıq, əşya, alət, vasitə bildirir. Məsələn: *toppuz.*

-aqlı. Bu şəkilçi quruluşca mürəkkəb olub, iki şəkilçinin birləşməsindən yaranmışdır. Məchul növ şəkilçisi qəbul etmiş *"oxu"* felinə artırılıb əlamət bildirən söz düzəldir. Məsələn: *oxunaqlı (kitab).*

-dur. İsimdən isim düzəldən qeyri-məhsuldar söz-şəkilçidir. Eyni zamanda omonim şəkilçilərdən olub, *–lıq,-lik,-luq,-lük* şəkilçisinin sinonimi kimi çıxış edir. Məsələn: ***su-luq-sudur.***

-ıcıl. Şəkilçi *-cıl,-cil,-cul,-cül* morfemi ilə eyni mənbədən yaranmışdır. *–ıcıl* dilimizdəki "sistemli" sözünün sinonimi olan *"ardıcıl"* sözündə rast gəlinir.

-dın.Şəkilçinin işlənmə dairəsi olduqca məhduddur. *"Dan"* sözündən törəmə olduğu güman olunur. Dilimizdə *"aydın"* sözündə rast gəlinir.

-uş. Feildən isim(*oxunuş*) və feildən feil düzəldən(*vuruş-maq*) –uş şəkilçisi ilə omonimdir. *–uş* şəkilçisi sifətdən atributiv səciyyəli söz əmələ gətirir. Məsələn: **koruş** (*kor adam mənasında-İ.Ə*)

Qeyd edək ki, bu şəkilçinin *–ış* variantına danışıq dilində, dialekt və şivələrimizdə rast gəlinir. Məsələn, Laçın rayonu Ağoğlan kənd şivəsində *-uş* şəkilçisi ilə yanaşı, onun *–ış* forması işlənir: ***karış.*** Bundan əlavə ədəbi dilimizdə iş-

lənən *-uş* şəkilçisinin dialekt və şivələrimizdə *-es* forması da işlənməkdədir. Bu şəkilçinin işlənməsi daha çox Qərb və Cənub qrupu dialekt və şivələrində müşahidə olunur. Məsələn: *gonbules, kores və s.*

-ş. Atributiv səciyyəli söz əmələ gətirən qeyri-məhsuldar şəkilçidir. Dilimizdə işləkliyini itirmək üzrədir. Məsələn: *korş*

-r. Feildən sifət düzəldən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *oxşar, gülümsər, bənzər, qaynar və s.*

-əzək. *Əm(mək*) felinə qoşulmaqla əlamət, key f yyət, xasiyyət bildirən *əməzək* sifətin düzəldir.

-əm,-m. Dilimizdə qeyri-məhsuldar söz şəkilçilərdən hesab olunur. Əsasən, adlardan və bəzi feillərdən əşya, şəxs, vəziyyət, proses bildirən sözlər əmələ gətirir. Məsələn*: ortam, üçəm, dönəm,* önə*m,dördəm və s. At dağ yuxarı dördəm (dörd nala çaparaq-İ.Əsgər) tullana qalxdı.(S.Rəhimov)*

-tuq. Bir cür yazılan qeyri-məhsuldar şəkilçi olub, isimdən isim düzəldir. Məsələn: *qoltuq. Burda qoltuq ağacını tolazlayan görmüşəm. (Q.Qasımzadə),Teymur qoltuğundakı kağızı açdı, ordan bir əmzik çıxardıb Leylaya verdi.(İ.Şıxlı).*

Qeyd edək ki, bu şəkilçi dilimizdə tarixən də işlənmiş, qeyri-məhsuldar xarakterə malik olmuşdur. *–tuq* şəkilçisinə eyni fonetik tərkib və semantika etibarı ilə müasir dilimizdə olduğu kimi "Kitabi-Dədə Qorqud dastanları"nda da bir neçə dəfə işlənmişdir: *Geŋ ətəgüŋə, dar qoltuğuŋa qısılmağa gəlmişəm; ...Dar ətüŋə, geŋ qoltuğıŋa sığınu gəlmişəm!, Qanturalı qızlar, dəvəniŋ qoltuğından girər, fırlar-çıqar...*

-il. Felin növ kateqoriyasının göstəricisidir. Eyni zamanda omonimlik xüsusiyyətinə malik söz-şəkilçidir. Dilimizdə ad-feil kimi çıxış edən *Sevil* sözündə rast gəlinir.

-gə. Feillərin sonuna qoşulmaqla əşya, yer, alət, əlamət, keyfyyət məzmunu yaradan isimlər və atributiv səciyyəli sözlər düzəldir. Məsələn: *döngə, süpürgə, bölgə, şitəngə və s.*

-çıvan. Artıq arxaikləşmiş olan bu şəkilçi fars mənşəli *–ban* və milli mənşəli-*çı,-çi,-çu,-çü* şəkilçisi ilə sinonimlik təşkil edir. Artırıldığı sözdə peşə, sənət, şəxs anlayışı yaradır. Məsələn: *bağçıvan.*

Əsasən, XIX-XX əsrlərə aid bədii mətnlərdə rast gəlinir: *Maşallah, nə yaxşı qabilsən; Bağçıvanlıqda xeyli kamilsən. (A.Səhhət). (bax: 8., 200)*

-ri. Feildən sifət düzəldən qeyri-məhsuldar şəkilçidir. Müasir Azərbaycan dilində *"əyri"* sözündə işlədilir. Məsələn: *Mənim oğlum elə oğul deyil ki, yediyi çörəyə əyri baxa. (İ.Şıxlı)*

-əlik. Bu şəkilçi əslində yönlük hal və isim düzəldən *–lik* şəkilçisinin birləşməsindən əmələ gəlmiş və *-əlik* şəklində sabitləşməyə doğru inkişaf mərhələsindədir. Quruluşca mürəkkəb olub, qeyri-məhsuldar söz-şəkilçi funksiyasında çıxış edir. Təqribən sifət düzəldən *–dakı,-dəki* şəkilçisinin formalaşdığı qəlib əsasında yaranmışdır. Şəkilçinin işlənmə dairəsi olduqca məhduddur, dilimizdə *"üstəlik"* sözünün tərkibində işlənir.

-qan. Söz-şəkilçi qrupuna daxildir. Daha çox təsirsiz feillərin sonuna artırılmaqla quruluşca düzəltmə olan yeni isim və sifət düzəldir. *–qan* şəkilçisi qoşulduğu sözdə əşya, alət, əlamət, keyfyyət məzmunu yaradır. Məsələn: *alışqan, yapışqan, asılqan, çalışqan, dalaşqan, vuruşqan, suvaşqan.*

-ım,m. Bu şəkilçi də omonimlik xüsusiyyətinə malik olub, əsasən, feillərdən isim və sifət düzəldir. Məsələn: *qıvrım, ayrım, yarım.*

-gən,-kən. Həm təsirli, həm də təsirsiz feillərə qoşulub, əlamət, keyfyyət, xasiyyət, xarekter anlayışını ifadə edən sifətlər düzəldir. Məsələn: *döyüşkən, sümürgən, deyingən, ilişkən, sürüşkən, yetişkən və s.*

-soy. Müasir Azərbaycan dilində soyad düzəldən əsas şəkilçilərdən biridir. *Nəsil, kök* sözlərinin sinonimi olan *soy* sözünün şəkilçiləşməsi yolu ilə yaranmışdır. Demək olar ki, fars mənşəli *–zadə* söz-şəkilçisi ilə eyni qəlib əsasında yeni sözlər-soyadlar yaradır. Məsələn*: Rzasoy-Rzazadə, Əlisoy-Əlizadə, Əsgərsoy-Əsgərzadə və s.*

-gil. Şəxs məzmunlu isimlərin sonuna artırılıb, qohumluq, tanışlıq, insan, nəsil, tayfa anlayışı bildirən isimlər düzəldir. Həm sadə, düzəltmə və mürəkkəb sözlərə, həm də mənsubiyyət şəkilçili sözlərə qoşularaq sözdə cəmlik, topluluq, mənsubluq çaları ifadə edir. Məsələn: *Sənangil, Uğurgil, Fazilgil, Muradgil, əmimgil, dayımgil, Qurbanigil,* Şahsevəngil və s. Nisbətən məhsuldar olan *–gil* şəkilçisi cəm anlayışı yaratdığı üçün, istisna halları nəzərə almaqla ondan sonra qeyri-müəyyən kəmiyyət bildirən *–lar,-lər* şəkilçisi işlənmir. Məsələn*: Ömər koxagilin kəhəri kömək gəldiyini və irəşmənin cilovlandığını görüb daha da böyük qəzəblə irəli cumdu.(İ.Şıxlı), Güllügilin dəyəsi Ömər koxagilin dəyəsinə yaxın idi.(İ.Şıxlı), Sonra Həsən ağagilin eyvanına çıxdılar.(İ.Şıxlı),Qulamgilə qaçdım, şalı salladım.(M.Şəhriyar) və s.*

-daq. Bu şəkilçi də ad düzəldən qeyri-məhsuldar şəkilçi olub, əsasən, yer, məkan, əşya mə f umu ifadə edən yeni isimlər əmələ gətirir.*-laq* şəkilçisi ilə sinonimlik təşkil edir. Məsələn: *batdaq, duzdaq, ovurtdaq,* çatdaq. *Ayaq səsləri yaxınlaşdıqda dodaqlarını qapının çatdağına söykədi.(M.İbrahimov)*

-qul. Əşya məzmunlu söz yaradan qeyri-məhsuldar söz-şəkiçidir. Məsələn: *tuşqul*

-ca+na. İki komponentdən ibarət quruluşca mürəkkəb olan şəkilçidir. Dilimizdə **azcana** sözündə rast gəlirik. Məsələn: *Dedi və bir* ***azcana*** *kədərlənən kimi oldu. (İ.Şıxlı). Dialektlərdə əccənə (Şəki) forması da qeydə alınmışdır.*

-gə. İsim, sifət, zərf düzəldən şəkilçi kimi omonimlik xüsusiyyətinə malik olmaqla, həm adlardan, həm də feillərdən yeni mənalı leksik vahidlər əmələ gətirir. Məsələn: ***döngə, bölgə, süpürgə, özgə, birgə.*** *Çöldən dərdiyi yovşan* ***süpürgəsi*** *də camışın belində idi.(İ.Şıxlı)*

Prof. B.Əhmədov *–gə* şəkilçisi vasitəsilə yaranmış *"birgə"* sözü haqqında yazır: "...bəs **bir** sayına artırılmış **–gə** nə şəkilçisidir? Bu sözün mənbələrdə **birgər** forması da qeydə alınıb. Dialektlərdə birgə əvəzinə birədi sözü də işlədilir. Sözün əsli mürəkkəb olub: birəiki. İnkişaf prosesində söz birgə formasını kəsb edib. Deməli, buradakı –gə şəkilçisi iki sözün zəminində (kontaminasiya yolu ilə) əmələ gəlib". (12.,56) İzahlı lüğətdə *birədi* və *birəiki* sözləri müvafq olaraq, *bütünlüklə, hamısı, birdən, birlikdə, bir yerdə, yoldaşlı və* hər bir saya qarşı iki, iki dəfə artıq mənalarında verilmişdir.(bax: 8)

Göründüyü kimi, **birədi** sözü ilə az-çox semantik bağlılıq vardır. Prof. Ə.Rəcəblinin tədqiqatlarından şəkilçinin Orxon-Yenisey abidələrində *-ka,-kə,-ğa,-gə* variantlarının mövcudluğu məlum olur. Lakin –gə şəkilçisi qədim türk yazılı abidələrinin dilində də qeyri-məhsuldar olub, cəmi bir neçə sözdə təsadüf olunur. Tədqiqatçı abidələrin dilində *ögə, kısğa, bilgə* sözlərini kök və şəkilçiyə ayırmağın mümkün olduğunu qeyd etmişdir.(bax: 36)

-**gə** şəkilçisinin **–ğa** forması da müasir Azərbaycan dilində qeyri-məhsuldar şəkilçi olub, feldən əşya, ad bildirən isim düzəldir. Məsələn: *qovurğa.* Güman etmək olar ki, *-gə* şəilçisi *–qac,-gəc,-ğac* şəkilçisinin son samitinin düşməsi nəticəsində yaranmışdır. Dilimizdə bu qəlib əsasında məhsuldarlığından asılı olmayaraq onlarla şəkilçi əmələ gəlmişdir.

-**dər.** Adlardan ad düzəldən qeyri-məhsuldar şəkilçidir. Bu şəkilçiyə *biləndər, öndər* kimi sözlərdə təsadüf edilir.

-qan. Omonimlik xüsusiyyəti daşıyan qeyri-məhsuldar söz-şəkilçidir. Feldən isim və sifət düzəldən *–qan* şəkilçisindən fərqli olaraq müasir dilimizdə isimdən isim düzəldir və peşə, sənət şəxs, vəzifə məzmunu yaradır. Məsələn: *başqan*

-ca,-cə. Sifətdən isim əmələ gətirən qeyri-məhsuldar omonim şəkilçidir. Qoşulduğu sözdə əşya, alət, vasitə, geyim çaları yaradır. Məsələn**:** *gödəkcə* və s. *Gödəkcəsini çiyninə saldı, ağır-ağır doqqaza doğru addımladı.(İ.Şıxlı), O, gödəkcəsinin yaxasını qaldırmış, uzun günlüklü şapkasını gözünün üstünə endirmişdi.(İ.Şıxlı)*

ca omonim şəkilçisi vasitəsilə isimdən sifət də əmələ gəlir. Məsələn: balaca

-aş. Şəkilçi dilimizdə söz-şəkilçi funksiyasına malik olub, isimdən isim düzəldir. Məsələn: *adaş*

Milli mənşəli *–daş* morfemi ilə eyni semantik qrupda birləşir.

-ıd,-üd,-id,-ud,-d. Qeyri-məhsuldar şəkilçi olub, hərəkət bildirən sözlərdən yeni sözlər əmələ gətirir. Bu şəkilçiyə dilimizdəki *keçid, öyüd, ayırd* kimi sözlərdə rast gəlirik. Məsələn: *Həyətdə iki uzun dirək basdırıb keçid düzəltdilər.* ***Ke-***

çidin yuxarısına qırmızı parça örtdülər və cürbəcür şüarlar yazdılar.(İ.Şıxlı)

-ıd,-d. Qeyri-məhsuldar omonim şəkilçidir. Adlardan əşya, insan, şəxs, vəzifə, dərəcə bildirən söz əmələ gətirir. Məsələn: *yaşıd, ustad.*

-cat. İsimdən isim düzəldən qeyri-məhsuldar şəkilçi olub, əşya, proses məzmunu ifadə edir. Məsələn: *havacat*

-c. Adların sonuna qoşulmaqla, ad düzəldən və omonimlik xüsusiyyətlərini əks etdirən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *anac, Buğac, toxac və s.*

-dıq,-dik. Şəkilçi şühudi keçmiş zamanın və I şəxs cəminin şəxs sonluğunun morfoloji göstəricisinin birləşməsi əsasında yaranmışdır. Sözdəyişdirici şəkilçinin sözdüzəldici şəkilçiyə çevrilməsi nəticəsində formalaşmış qeyri-məhsuldar qrammatik-leksik şəkilçidir. Feillərin sonuna qoşulmaqla insan adı bildirən xüsusi isimlər düzəldir. Məsələn*: Sevindik, Tapdıq* və s. *Tapdıq sinini ehmalca irəli itələdi.(İ. Şıxlı)*

-ar,-ər. Omonim şəkilçi olub, feildən isim düzəldir. -dıq,-dik şəkilçilərində olduğu kimi, qrammatik şəkilçidən yaranmışdır. Əsasən, birhecalı hərəkət bildirən sözlərdən şəxs adları əmələ gətirir. Məsələn: *Yaşar, Sevər, Gülər, Anar, Yetər* və s.

-əl. Əvəzlikdən sifət düzəldən qeyri-məhsuldar söz-şəkilçidir. Şəkilçi dilimizdəki *"özəl"* sözünün tərkibində işlənmişdir.

-imli. Bu şəkilçi feildən isim düzəldən dördvariantlı *–ım (ölüm, itim, bölüm, kəsim, baxım və s.)* və adlardan sifət düzəldən dördvariantlı *–lı* şəkilçisinin *(yağlı, duzlu, güllü, axarlı, ikili və s.)* sintezindən ibarət olub, mürəkkəb struk-

turuna malikdir. Bir qrup sözlərdə şəkilçi tərkib hissələrə ayrılır, məhsuldar şəkilçi kimi çıxış edir. Məsələn: *baxımlı, bilimli, kəsimli və s.*

Lakin bir qrup sözlərdə şəkilçini tərkib hissələrə ayırmaq olmur. Şəkilçini tərkib hissələrə ayırıb iki müxtəlif şəkilçi kimi götürmək mümkün olmadığı üçün birlikdə mürəkkəb şəkilçi kimi götürülür. Məsələn: *sevimli, gəlimli, gedimli və s.* Bu kimi sözlər müasir Azərbaycan ədəbi dilində azlıq təşkil edir. Qeyri-məhsuldar olmasına baxmayaraq dilimizdə işlənmə tarixi olduqca qədimdir. Hət a "Kitabi-Dədə Qorqud dastanları"nın dilində də bu şəkilçi vasitəsilə əmələ gəlmiş leksik vahidlərə rast gəlmək mümkündür:

Qanı dedigim bəg ərənlər?
Dünya mənim deyənlər?
Əcəl aldı, yer gizlədi,
Fani dünya kimə qaldı?
Gəlimlü-gedimlü dünya
Axır soŋ ucı ölümlü dünya!

-lama. Feil düzəldən *–la,-lə* və isim düzəldən *–ma,-mə* şəkilçisinin qovuşuğundan yaranmış qeyri-məhsuldar şəkilçidir. Qoşulduğu sözdə yemək, əşya məzmunu yaradır. Məsələn: *buğlama, xaşlama.*

Bir qrup sözlərdə isə şəkilçi tərkibcə iki yerə ayrıla bilir. Məsələn: *yağ-yağla-yağlama, bağ-bağla-bağlama, qarşı-qarşıla-qarşılama və s.*

-çaq. İsimdən isim düzəldən qeyri-məhsuldar şəkilçidir. Dilimizdə dördvariantlı *–lıq* şəkilçisinin sinonomi olan bu şəkilçi qoşulduğu sözdə əşya, alət, geyim məzmunu yaradır. Məsələn: *qolçaq*

-çaq. İsim düzəldən *–çaq* şəkilçisi ilə omonim, *-sız,-siz,-suz,-süz* şəkilçisi ilə sinonim, *-lı,-li,-lu,-lü* şəkilçisi ilə antonimdir. Əşya bildirən sözdən sifət əmələ gətirir. Dilimizdəki *tumançaq, köynəkçək* kimi sözlərdə təsadüf olunur. Məsələn: *Səməd döşəmədə, yalxı döşəkağı üzərində köynəkçək uzanmışdı. (İ.Hüseynov). –çaq* şəkilçili sözlər mətndaxili situasiyadan asılı olaraq həm sifət, həm də zərf kimi çıxış edə bilir. Ayrı-ayrı dil faktları üzərində aparılan müşahidələr göstərir ki, şəkilçi tarixən daha məhsuldar olmuşdur. Lakin dil inkişaf etdikcə söz yaratmaq qabiliyyətini tədricən itirmişdir. Bu şəkilçi hətta "Kitabi-Dədə Qorqud dastanları"nda, "Qam Börəniŋ oğlı Bamsı Beyrək boyını bəyan edər, xanım, hey" adlı boyda da işlənmişdir: *Aldı Dəli Qarçarı bir birəli yerə gətürdi. Dəli Qarçarı yalınçaq eylədi, ağıla qoydu...*

-çıq. Adlardan ad düzəldən qeyri-məhsuldar şəkilçidir. Kiçiltmə bildirən dördvariantlı **–cıq** şəkilçisi ilə eyni mənbədən olub, əsasən, ölçü, kiçiltmə, dərəcə çaları yaradır. Məsələn*: yarımçıq. O, yarımçıq qoyduğu kitabı götürdü. (İ.Şıxlı), İkinci vəsiyyətim də, odur ki, toyu yarımçıq qoymayın.(İ.Şıxlı)*

-an,-ən. Bu şəkilçi omonimlik səciyyəsi daşımaqla həm adlardan, həm də feillərdən ad bildirən sözlərin yaranmasında iştirak edir. Qədim türk yazılı abidələrinin dilində də bu şəkilçinin qapalı və açıq variantları ilə düzələn onlarla söz işlənmişdir. Müasir Azərbaycan dilində isə *-an,-ən* əlavə olunduğu sözlərdə əşya, şəxs, əlamət, keyfiyyət, yer, məkan, alət məzmunu yaradır. Məsələn: *oğlan, ərən, şoran, düzən, kökən və s.*

-an,-ən,-n. Feildən isim düzəldən qeyri-məhsuldar söz-şəkilçidir. Feli sifət, feildən isim düzəldən *–an,-ən* şəkilçisi ilə omonimlik keyfiyyəti daşıyır. Söz sonuna qoşularaq,

əsasən əşya, alət, hadisə, proses çaları ifadə edir. Məsələn: *pozan, talan, qalxan və s.*

-bac. Feildən isim və sifət düzəldən şəkilçilərdən olub, *atlanbac, dolanbac* kimi sözlərdə rast gəlirik.

-paç. –bac şəkilçisi ilə bir mənbədəndir, ***b>p*** əvəzlənməsi baş vermişdir. Feildən əşya, oyun məzmunlu yeni söz əmələ gətirir. Məsələn: *gizlənpaç.*

-tı,-ti. Feillərin sonuna artırılıb, hal-vəziyyət, əşya, mücərədlik anlayışı ifadə edən mə f umlar düzəldir. Məsələn*:* *göyərti, yaşartı, közərti, qızartı, cücərti, işartı və s.*
Bu şəkilçi əslində məhsuldarlığı ilə digər şəkilçilədən əsaslı şəkildə fərqlənir. Lakin şəkilçinin *–rti* forması qeyri-məhsuldar olub, məhdud dairədə işlənir. Güman etmək olar ki, *"r"* ünsürü qeyri-qəti gələcək zaman formasının morfoloji göstəricisi olub və şəkilçi tərkibində daşlaşmışdır. Məsələn: *kişnərti, göynərti.*

Göyərti, yaşartı, közərti kimi sözləri *göyərmək, yaşarmaq, közərmək* formasında işlətmək mümkün olduğu halda, *kişnərti, göynərti* sözlərini *kişnərmək, göynərmək* şəklində işlətmək mümkün deyil. Məsələn: *Şeydanın sinəsinin altındakı köhnə çapığın göynərtisi dərhal əriyib yoxa çıxdı.(B. Bayramov), Güclü külək kişnərti salır, uğultu ugultuya qarışır, min bir səs bir-birinə qovuşurdu. (S.Rəhimov), Aldığı yaradan, yaxud müvazinəti saxlaya bilmədiyindən körpünün məhəccərindən suya düşən atların kişnərtisi bir-birinə qarışdı.(İ.Şıxlı)*

-ınc,-inc,-unc,-ünc. Feillərdən hal-vəziyyət adlarını ifadə edən qeyri-məhsuldar şəkilçidir. Dilimizdə işlənmə tarixi qədim olub, *qorxunc, gülünc, qaxınc, girinc* kimi sözlərrdə təsadüf olunur. Şəkilçinin törəmələri olan *–nc,-c* şəkilçilə-

ri də söz yaradıcılığı prosesində iştirak edir*: sevinc, ödənc, zarınc, utanc, güvənc* və s.

-mur. *Yağ(maq)* sözündən əşya, proses məzmunlu *yağmur* ismini düzəldir.

-miş. Sözdüzəldici və sözdəyişdirici şəkilçi kimi omonimlik xüsusiyyətinə malikdir. Məhsuldarlığı aşağı olsa da, tarixən dilimizdə işlənmişdir. Kök feillərə qoşulmaqla əşya, zaman, yemək, vasitə məzmunlu isimlər düzəldir. Dilimizdəki *bişmiş, yemiş, keçmiş* kimi sözlər *–miş* şəkilçisinin vasitəsilə yaranmışdır. "Dastani-Əhməd Hərami" poemasında da *–miş* şəkilçili **bişmiş** sözünə rast gəlinir. Bu söz M.H.Şəhriyarın dilində də işlənmişdir:

Bişmiş kimi şeirin də gərək dad-duzu olsun,
Kənd əhli bilirlər ki, doşabsız xəşil olmaz.

-man. Bu şəkilçi türk mənşəlidir və Rus-avropa mənşəli *–man,-men* şəkilçisindən öz semantikasına görə fərqlənir. Dilimizdə söz-şəkilçi qrupuna daxil olan *–man* adlardan həm isim, həm də sifət düzəldərək qoşulduğu sözdə şəxs, əşya, əlamət, keyfyyət, zahiri görkəm çaları ifadə edir. Məsələn**:** *ataman, arzuman, şişman, yalman, azman, türkman, qocaman və s.*

-man şəkilçisi tarixən də dilimizdə işlənmişdir. "Kitabi-Dədə Qorqud dastanları"nın dilində *"yetman"* sözündə rast gəlinir: *Səndənmidir, bəndənmidir,Taŋrı Taala bizə bir* **yetman** *oğul verməz nədəndir, -dedi, soyladı.*

-mən. Türkmənşəli *–man* şəkilçisi ilə eyni mənbədən olub, əsasən ad bildirir. Qoşulduğu sözdə əşya, şəxs, peşə, sənət, xalq, milli mənsubluq ifadə edir. Məsələn: *öyrətmən, türkmən və s.*

-a,-ə. Feildən ad düzəldən qeyri-məhsuldar omonim şəkilçidir. *Yara və çevrə* sözlərində rast gəlinir. *Çevrə* sözündə eliziya hadisəsi baş vermiş, söz kökündəki *(çevir)* qısa tələf üz olunan incə *i* saiti düşmüşdür.

-an,-ən. Qeyd etdiyimiz kimi, bu şəkilçi dilimizdə müxtəlif söz qruplarına məxsus sözlərin morfoloji göstəricisi olub,omonim şəkilçilər qrupuna daxildir. İsim, sifət, zərf, feil və feli sifətin əmələ gəlməsində mühüm əhəmiyyət kəsb edir. Məsələn: *talan, qalxan, düzən, şoran, gücənmək, qaçan, tutan, baxan* və s. Dilimizdəki *Yaradan* sözü də bu şəkilçi ilə düzəlmişdir. Əslində *Yaradan* morfemindəki *–an* indiki zaman mənalı feli sifət şəkilçisidir. Lakin bu məqamda sözdüzəldici şəkilçi kimi (qrammatik-leksik) çıxış edir.

-la. Feil düzəldən *–la,-lə* şəkilçisinin əksinə olaraq, feildən əşya, ölçü məzmunu bildirən isim düzəldir. Məsələn: *damla.*

-cı. Bu şəkilçi də feildən isim düzəldən qeyri-məhsuldar şəkilçi olub, qoşulduğu sözdə əşya, alət məzmunu yaradır. Məsələn: *damcı. Gözlərindən iki damcı yaş süzülərək yerə düşdü.(M.İbrahimov)*

-ci. Bu şəkilçi də, felin sonun artırılıb əşya, şəxs məzmulu ümumi isim əmələ gətirir. Etimoloji cəhətdən *–cı* şəkilçisinin kökündə nə durursa *–ci* şəkilçisinin kökündə də, o durur. *–ci* şəkilçisinə "*öyrənci*" sözündə rast gəlinir.

-əş. İsimdən isim düzəldən və feildən sifət düzəldən qeyri-məhsuldar omonim şəkilçidir. Məsələn: *Günəş, güləş. Bütün günü hər tərəfə od ələyən günəş təzəcə batmışdı.(M.İbrahimov),Günəş üfüqlərdən xeyli qalxdığı zaman Tehrandan gələn boz bir maşın Qəzvinin tozlu və kəsəkli küçələrinə daxil oldu. (M.İbrahimov)*

-iş. Müasir Azərbaycan dilində bu şəkilçi müxtəlif söz qruplarına məxsus yeni-yeni sözlər düzəldir. Bu xüsusiyyətlərinə görə, həm omonim, həm də qeyri-məhsuldar söz-şəkilçidir. Sifətlərin sonuna qoşulmaqla sifət əmələ gətirir. Məsələn: ***nəmiş, geniş***. Qeyd edək ki, ***-iş*** şəkilçisi əslində iki şəkilçidir: sifətdən feil düzəldən *–i* şəkilçisi və feildən sifət düzəldən *–ş* şəkilçisi. Bu münasibətlə prof.Q.Kazımov yazır: "Bunlar (*geniş və nəmiş sözləri nəzərdə tutulur- İ.Ə) gen və nəm* sifətlərinə -iş şəkilçisinin artırılması ilə düzəlməmişdir. Dildə *gen, nəm* sifətləri ola-ola, yenidən ***-iş*** şəkilçisi ilə eyni mənalı söz düzələ bilməzdi. Bu cür sözlərdə ***-iş*** bir şəkilçi deyil, iki şəkilçidir...(48.,107) Düzdür, dilimizdə eyni məzmunlu şəkilçi və sözlərin iştiakı ilə yaranan bir neçə söz vardır. Lakin bu məqamda prof.Q.Kazımovun fkri məntiqli və elmi olub, ağılabatandır. Bunu feil düzəldən *–i* şəkilçisinin iştirakı ilə yaranan sözlərin olması da sübut edir. Məsələn: *təngimək, ləngimək, bərkimək,acımaq, turşumaq, avazımaq, bayatımaq, yerimək, yavaşımaq və s.* Bu sözlərin yarandığı model əsasında ***nəmimək və genimək*** sözləri də yarana bilər. ***Nəmimək*** forması işlənməsə də, ***genimək*** sözü dialekt və şivələrimizdə, xüsusən də , qərb qrupu dialekt və şivələrində işlənməkdədir. Hət a Ş.İ.Xətayinin dilində də işlənmişdir. *Çeşmim genidi misali-qazğan.*(48.,107) Müasir dilimizdə isə ***-iş*** kimi sabitləşməkdədir.

-ğın, -gin, -ğun, -gün. Feillərin sonuna qoşulmaqla əlamət, key f yyət, daimi xasiyyət bildirən sifətlər düzəldir. Nisbətən məhsuldarlığı ilə seçilir. Məsələn: ***əzgin, yorğun, dalğın, azğın, solğun, gərgin, düzgün, yayğın, süzgün.***

-ğan. Feildən isim düzəldən qeyri-məhsuldar şəkilçidir. Yer, məkan, əşya, vasitə çaları ifadə edir. Məsələn: ***yarğan,***

yarılğan, burulğan və s.*Yarğana yaxınlaşıb, qaçaq-quldurun pusquda dayana biləcəyi yerləri tapmaq və yol kəsən varsa, qəfldən üstlərini almaq üçün hazır dayandılar.(İ.Şıxlı), Ağacın düşdüyü yerdə su lillənib burulğana çevrilmişdi.(İ.Şıxlı).*

-nuq. Feildən ad düzəldən şəkilçi olub, əlamət, keyfyyət, görkəm bildirir. Müasir Azərbaycan dilində *"yornuq"* sözündə təsadüf olunur.

-ac. Bu morfem *"aç(maq)"* sözünün şəkilçiləşməsi zəminində əmələ gəlmiş qeyri-məhsuldar omonim şəkilçidir. Qoşulduğu sözdə ölçü, kəmiyyət, məsafə, numerativlik məzmunu ifadə edir. Məsələn: *qolac. Bəs onun gülər üzü hanı, qolac saçları, dəyirmi sifəti? (M.Cəlal) (bax: 10.,173)*

-çılıq, -çilik, -çuluq, -çülük. Bu şəkilçi müasir Azərbaycan dilində çoxlu sayda söz əmələ gətirir. Şəkilçi *–çı,-çi,-çu,-çü* və *-lıq,-lik,-luq,-lük* şəkilçilərinin sintezindən ibarət quruluşca mürəkkəb və olduqca məhsuldardır. Məsələn: *əkinçilik, bağçılıq, bostançılıq, qoyunçuluq, düşmənçilik, ovçuluq, Azərbaycançılıq, türkçülük, üzümçülük, şərabçılıq, taxılçılıq, kitabxanaçılıq, balıqçılıq, dəmirçilik, çobançılıq, çayçılıq, karvançılıq, turançılıq, Məmmədquluzadəçilik, peşmançılıq, kasıbçılıq, tələbəçilik* və s.

Bu şəkilçidə diqqət çəkən əsas məqam bir qrup sözlərdə şəkilçinin tərkib hissələrə bölünməsi, bir qrup sözlərdə isə birgə götürülməsi ilə əlaqədardır. Son zamanlarda sözlərin bəzilərində dördvariantlı *–çılıq* şəkilçisi dördvariantlı *–lıq* şəkilçisi ilə əvəz olunur. Bu münasibətlə prof. Q.Kazımov yazır: *"-çı və -lıq şəkilçiləri peşmançılıq, düşmənçilik, çobançılq sözlərində ayrılmır və birlikdə götürülür. –çı hissəsi asemantik olduğundan son vaxtlar peşmançılıq sözü peşmanlıq şəklində işlənir". (48.,50) Kasıbçılıq (kasıblıq), tələbəçilik (tələbəlik)* sözləri də bu qəbildəndir.

Qeyd edək ki, bu qaydanı *–çılıq* şəkilçili bütün sözlərə aid etmək olmaz və olmur da. Çünki bu zaman sözün semantikasında fərq yaranır, yaxud da söz ümumiyyətlə məna vermir. Məsələn, *əkinçilik, kitabxanaçılıq, üzümçülük, taxılçılıq və s.* kimi sözlərdə dördvariantlı *–çılıq* şəkilçisini *–lıq,-lik,-luq,-lük* şəkilçisi ilə əvəzləsək semantik fərq yaranar: *əkinçilik, kitabxanaçılıq, üzümçülük, taxılçılıq və s.*peşə, sənət, ixtisas, şəxs, insan, məşğuliyyət bildirdiyi halda, *əkinlik (ərazi), kitabxanalıq (material), üzümlük (gübrə), taxıllıq(sahə) və s.* kimi sözlər əsasən, əlamət, keyfyyət, xüsusiyyət bildirir. Hətta bəzi sözlərin mənası tamamilə dəyişir: *qoyunçuluq, qoyunluq (avam, axmaq, qabiliyyətsiz mənalarında)* şəklində işləndikdə danışıq dilində ironik xarakterə malik olur.

Düşmənçilik, bostançılıq, karvançılıq, tələbəçilik, duzçuluq və s. kimi sözlərdə isə *-çılıq* şəkilçisini birgə götürmək lazımdır. Çünki ədəbi dilimizdə *düşmənçi, bostançı, karvançı, tələbə*çi, *duzçu və s.* sözləri yoxdur.

Qeyd: -lıq şəkilçisi -çılıq şəkilçisini o zaman əvəz edə bilir ki, bu və ya digər bir leksik vahidin ifadə etdiyi əvvəlki və sonrakı semantika eyniyyət təşkil etsin: kasıbçılıq-kasıblıq, peşmançılıq-peşmanlıq, tələbəçilik-tələbəlik və s. Bu cəhətdən əkinçilik, gülçülük, dənizçilik, çörəkçilik və s. kimi sözləri bunlarla qarışdırmamaq lazımdır. Bu tip sözlərdə -çılıq tərkib hissələrə ayrılıb müvafq çalar ifadə edir. Müqayisə edin: *ək-əkin-əkinçi-əkinçilik; gül-gülçü-gülçülük; dəniz-dənizçi-dənizçilik; çörək-çörəkçi-çörəkçilik.*

-ım. Sözdəyişdirici şəkilçinin sözdüzəldici şəkilçiyə çevrilməsi yolu ilə yaranmış qeyri-məhsuldar şəkilçidir. İnsan, şəxs anlayışı bildirən söz yaradır. Məsələn: *xanım*

-sun. Bu şəkilçi də əslində qrammatik şəkilçidir. Felə artırılıb şəxs adı bildirən isim düzəldir: *Dursun.*

-axay. –xay,-vay şəkilçilərilə bir mənbədən olduğu güman olunur. Şəkilçiyə müasir Azərbaycan dilində *"solaxay"və "sağaxay"* sözündə rast gəlinir. *Sağaxay* sözünün işlənmə arealı məhdud olub, əsasən tibb sahəsində işlənir.

-i. Feildən isim düzəldən qeyri-məhsuldar omonim şəkilçidir. Dilimizdə nəticə sözünün sinonimi olan *"göstəri"* sözünü əmələ gətirmişdir.

-sə. Bu şəkilçi dilimizdə omonimlik keyfyyətinə malik qeyri-məhsuldar şəkilçidir. Əvəzlikdən qeyri-müəyyənlik bildirən əvəzlik əmələ gətirir. Məsələn: *kimsə, nəsə.*

Qeyd edək ki, dilçilik ədəbiyyatlarında göstərilən sözlərin tərkibindəki *–sə* şəkilçisini *isə* ədatının qısaldılmış yaxud da şəkilçiləşmiş forması olduğu göstərilir. Lakin orta əsrlərə aid bədii mətnlərdə *kimsə* sözü *kiməsnə, kimsənə* formasında işlənmişdir. Hətta müasir dilimizdə B.Vahabzadənin yaradıcılığında da rast gəlinir. "Kitabi-Dədə Qorqud dastanları"nın dilində və "Dastani-Əhməd Hərami" poemasında da *kimsənə* əvəzliyi bir neçə dəfə işlənmişdir: *Qanturalı baqdı gördi kim, bir kimsənə yağıyı öŋinə qatmış, qovar.*

"Dastani-Əhməd Hərami" poemasında *"kimsə" və "kiməsnə"* müvazi olaraq işlənmişdir:

Bənim nərəmə kimsə durmaz irdi
Neçə kişilər ünümdən canı verdi...
Məsəldir kəndi düşən ağlamaz, der,
Axan dəryayı kimsə bağlamaz der...
Kiməsnədən xəbər almadı hərgiz,
Necə kim istədi, bulmadı hərgiz...

Ol iqlimlər isuzlu olmuş idi,
Kiməsnə uğramaz duyulmuş idi...

Bu əvəzliklərin də qeyri-müəyyən və ya inkar məzmunu ifadə etməsi mətndaxili situasiyadan asılıdır. M.Hüseynzadə əvəzliyin quruluşca növlərindən danışarkən bu nitq hissəsinin sadə və mürəkkəb olduğunu göstərir. (bax:51.,98) Düzəltmə əvəzliklər haqqında isə heç bir qeyd yoxdur. Əslində ***kim*** və ***kimsə, nə*** *və* nəsə cütlükəri arasında olan semantik fərq əvvəl *və* ***əvvəlinci, orta*** *və* ***ortancı, hənir*** *və* ***hənirti*** kimi cütlüklər arasında olan semantik fərqə bərabərdir. ***Kimsə, nəsə*** kimi sözlər ***kim*** *və* ***nə*** sözlərindən daha mücərrəd, daha qeyri-məzmun ifadə edir. Məsələn, "*kimsə pəncərəni döyür*" cümləsində mübtədanı "***kim***" sözü ilə əvəz eləsək, cümlənin məqsəd və intonasiyası ilə yanaşı, onun semantikasında da fərq əmələ gələr. Pəncərəni döyən külək də ola bilər, yağış da ola bilər, danışan və dinləyici üçün naməlum olan şəxs də. Hə t a bu əvəzetmə ***kimsə, nəsə*** sözlərinin inkar əvəzliyi vəzifəsində işləndiyi məqamlarda belə özünü doğrultmur. Ümumiyyətlə, əvəzliklər mahiyyət etibarı ilə boş sözlərdən ibarətdir və onlar konkret mətn daxilində konkretləşərək müəyyən məna kəsb edir.

Üçüncü şəxsin təkinin mənsubiyyət şəkilçisi***(-si)*** də bəzi (ha!) qeyri-müəyyənlik ifadə edən əvəzliklərin yaranmasında sözdüzəldici şəkilçi kimi çıxış edir. Düzdür, bəzi sözlərdə ***-si*** hələ də mənsubluq anlayışını qoruyub saxlamaqdadır. ***Kimisi, birisi, bəzisi*** kimi əvəzliklər mənsub olduqları söz birləşmələrinin birinci tərəf olmadan da müstəqil şəkildə işlənə bilir və qeyri-müəyyən məzmun ifadə edir. Bu dilimiz üçün xarakterik bir haldır. Sözdəyişdirici şəkilçinin

sözdüzəldici şəkilçiyə çevrilməsi tarixən də qrammatikamızda olmuş və bu gün də davam etməkdədir.

-ə. Bu şəkilçi də qeyri-məhsuldar olub, təyini əvəzlikdən qeyri-müəyyənlik bildirən əvəzlik əmələ gətirir. Dilimizdəki çox funksiyalı *-ə* şəkilçisi ilə omonimlik təşkil edir. Əvəzlik düzəldən şəkilçi kimi *"hərə"* sözündə rast gəlinir. Dilçilik ədəbiyyatlarında, morfologiyaya dair tədqiqatlarda *hər, öz, bütün, flan* əvəzliklərinin hallanmadığı göstərilir. *Hərə* sözündəki -ə şəkilçisinin də hal şəkilçisi olmadığı sözün semantikasından məlum olur. *Hər* təyinedicilik, əlamət, keyfyyət xüsusiyyəti daşıdığı halda, *hərə* qeyri-müəyyən, mücərrəd məzmununu ifadə edir.Məsələn: **Hər** *aşiqin öz dövranı var. (M.Rahim), Əzizləyib hamı sizi,* **hərə** *bir cür təbrik edir.(V.Dumanoğlu).*

-ə şəkilçisinin qeyri-müəyyən və sözdüzəldici olmasını prof.Q.Kazımovun linqvistik araşdırmaları da təsdiq edir. Professor bu münasibətlə yazır: *"Qeyri-müəyyənlik bildirən hərə əvəzliyi hər* sözünə -ə şəkilçisinin artırılması ilə düzəlmişdir:*Yalan olmasın, hərəmiz bir aslana dönmüşdük. (M.Hüseyn)".(48.,149).*

-maca,-məcə. Quruluşca mürəkkəb olub, *-ma,-mə və -ca,-cə* şəkilçilərinin birləşməsi əsasında əmələ gəlmişdir. Təhlil zamanı bir qrup sözlərdə tərkibinə görə ayırmaq mümkün olmadığı üçün, bir sözdüzəldici şəkilçi kimi götürülür. Feillərin sonuna qoşulmaqla isim düzəldir. Məsələn: *tapmaca, atmaca, bilməcə, köpməcə,bulmaca və s.*

-qar. Adların və feillərin sonuna artırılmaqla yeni mənalı sözlər düzəldərək, əşya, yer, məkan, alət, məsafə məzmunu yaradır. Dilimizdə *ucqar və yonqar* sözlərində rast gəlinir. Məsələn: *Onları meşə kənarındakı ucqar bir stansiyada vaqon-*

dan düşürdüb, dörd təkər arabalara doldurdular və meşənin dərinliyinə gətirdilər. (İ.Şıxlı), Səhərə yaxın onların arabasını kiçik bir qəza dəmiryol stansiyasının ***ucqarında*** *qatarlaşan qələmələrin kölgəsində, ehtiyat yolunda dayanmış vaqonların yanında saxladılar. (İ.Şıxlı)* Prof. B.Əhmədov –qar şəkilçisinin "**yer**" sözündən yarandığını, onun şəkilçiləşmiş forması olduğunu göstərir. B.Əhmədova görə, *ucqar "uc yer"* deməkdir. Lakin *–qar* şəkilçisi *yonqar* sözündə *ucqar* sözündəki semantikanı daşıya bilmir. Bunu M.Ə.Sabirin aşağıdakı şeirində də aydın görmək olar:

Adı puldursa pulun, leyk özü can ***yonqarıdır,***
Vermək olmur qohuma, qonşuya, qardaşa, ətə!

Yonqar sözünün semantikasından çıxış edərək, şəkilçinin *qır(maq), kəs(mək)* sözlərindən törəmə olduğunu düşünmək olar. Güman etmək olar ki, *-qar* isim və feildən söz əmələ gətirməklə omonimlik keyfiyyətinə malikdir.

Qeyd edək ki, *qırmaq, kəsmək və qıymaq* sözləri mənşə və etimoloji cəhətdən eyni dil yuvasında birləşir. *Yonqar* sözündəki *–qar* şəkilçisinin bu sözlərlə bağlılığı şübhəsizdir. Qeyd olunan sözlərin semantik çalarlarını B.Xəlilov, T.Hacıyev araşdırmış, müxtəlif mülahizələr söyləmişlər.

Prof. B.Xəlilov bu münasibətlə "Feillərin ilkin kökləri" kitabında yazır: " *Qıy feli qədim türk lüğətində* əymək, kəsmək, öz sözündən geri dönmək, əyri mənalarında işlənmişdir. Maraqlıdır ki, Ucar rayonunda *qıy* sözünün əyri mənasını *qır* sözü bildirir. *Qır və qıy* sözlərində *qı ilkin kökü söz sonu –y* və *-q elementlərinə birikmişdir. Bu ilkin kök kəsmək felinin təşəkkül tapdığı ilkin köklə allomorfuq yaratmışdır: kə/qı". (27.,140)* Bu gün *"qıyma, qıyım-qıyım, qıyma-qıyma"* sözləri daxili semantika etibarilə *"kəsmək"* sözünün seman-

tikası ilə müəyyən dərəcədə eyniyyət təşkil edir. Bu sözə "Kitabi-Dədə Qorqud dastanları"nda da rast gəlinir: *Qazan oğlı Uruzı həbsdən çıqaruŋ, boğazındaŋ orğanla asuŋ, iki dalusından çəngələ sancuŋ, qıyma-qıyma* ağ ətindən çəküŋ, *Mərə, varıŋ, Qazanıŋ oğlı Uruzı dartıŋ, çəngələ asuŋ.* **Q***ıyma-qıyma ağ ətindən çəküŋ, qara qavurma bişirüb, qırx bəg qızına ilətüŋ: hər kim yedi, ol degil; hər kim yemədi oldur.*

Qıyma sözü özü də, etimoloji baxımdan *kənar, haşiyə* mənalarını ifadə edə bilir. Prof. B.Xəlilov göstərilən tədqiqatında akademik T.Hacıyevin mülahizələrinə istinadən etimoloji cəhətdən *"Kiyev"* sözünün də *qıy/kıy* sözləri ilə bağlı olduğunu yazır. Tədqiqatçı T.Hacıyevdən sitat gətirərək yazır: *"Ola bilər ki, şəhərin adı(Kiyev şəhəri nəzərdə tutulur-B.X) qıy, kiy sözündəndir.Bu da türkcədir, məhz türkcədir: hüdud, sərhəd, qıraq mənalarını verir. V əsrdə şəhər (Kiyev şəhəri-B.X) gömrük mövqeyində idi, sərhəd, qurtaracaq idi. Görünür, həmin türkcə məna slavyanca "okraina" (kənar, qıraq) tərcümə olunmuş və ölkəyə Okraina deyilmiş, sonra Ukraina (Ukrayna) şəklini almışdır".(27., 141)*

Tarixən "*uc*" sözünün özü *–qar* şəkilçisisiz *ucqar* sözünün ifadə etdiyi mənada işlənmişdir. Bu hala "Dastani-Əhməd Hərami" poemasında rast gəlinir:

Bir oda tutdılar şəhrin ucında,
İkən azadəvü qovğa yox anda.

-lım. Feil düzəldən *–ıl,-il,-ul,-ül* və isim düzəldən *–ım,-im,-um,-üm* şəkilçiləri əsasında yaranmış və müasir Azərbaycan dilində *-lım* formasında sabitləşmişdir. Məsələn*: yaylım(atəşi). Ölüm, itim, geyim* sözlərinin qəlibi əsasında düzəlmişdir.

-laq,-lək. –lıq,-lik,-luq,-lük şəkilçisinin açıq saitli formasıdır. Həm isim, həm də sifət düzəldən qeyri-məhsul-

dar omonim şəkilçidir. Şəkilçiyə dilimizin bütün inkişaf mərhələlərində az da olsa rast gəlmək mümkündür. Hə t a Orxan-Yenisey abidələrində də təsadüf olunur. **–laq** şəkilçisi əsasən, yer, məkan, zaman anlayışını ifadə edən isimlərə artırılıb yeni sözlər əmələ gətirir. Qoşulduğu sözdə yer, məkan mə f umu yaradır və nisbətən çoxluluq ifadə edir. Məsələn*: yaylaq, otlaq, çaylaq, qışlaq, ovlaq.* Qeyd edək ki, orta və bəzi ali məktəb dərsliklərində **(bax:7,51,53)** şəkilçi *–laq* formasında verilir. Lakin bu düzgün yanaşma deyil. Şəkilçi *–la,-lə və -aq,-ək* morfemlərinin sintezindən ibarətdir. Məsələn: *yay-yayla(maq)-yaylaq, ot-otla(maq)-otlaq və s.* Dilimizin lüğət tərkibində qeyd olunan sözlərin hər üç forması vardır. *–laq* şəkilçisinin quruluşu, işlənmə dairəsi prof. B.Əhmədov və Q.Kazımovun tədqiqatlarında daha düzgün, elmi şəkildə işıqlandırılmışdır. Şəkilçinin –lək variantı da *–laq* kimi yaranmışdır. İki hissədən ibarət qeyri-məhsuldar şəkilçidir**:** *iş-işlə(mək)-işlək, diş-dişlə(mək)-dişlək, çat-çatla(maq)-çatlaq.*

İstisna hallarda feildən əşya, alət, vasitə, yer, məkan məzmunlu isim də əmələ gətirir: *udlaq, batlaq*

-kən. Müasir Azərbaycan dilində isim düzəldən qeyri-məhsuldar şəkilçidir. Orxan-Yenisey abidələrində də işlənmiş, daha çox sifət bidirmişdir. Məsələn**:** *teŋrikən- tanrısifət.*

Zaman keçdikcə şəkilçi formasını saxlasa da, məzmununu dəyişmiş, isim düzəldən şəkilçiyə çevrilmişdir. Söz sonuna qoşulmaqla əşya, alət, vasitə məzmunu bildirən yeni sözlər düzəldir: Məsələn**:** *yelkən, pilləkən. Mürsəl təəccüblənsə də***, pilləkənləri** *endi.(İ.Şıxlı),Onu kənd şura sədri* **pilləkənin** *başında qarşıladı.(İ.Şıxlı).*

-alaq. –laq,-lək şəkilçisi ilə bir mənbədəndir. Dilimizdə *şapalaq, sapalaq, yatalaq* sözlərində işlənir.

-ılı,-ili,-ulu,-ülü. Tədqiqatçı A.Ağalarov *"örtülü"* sözünü nümunə gətirməklə -ülü şəkilçisini ad düzəldən qeyri-məhsuldar şəkilçi kimi tədqiq edir.(bax: 7.,15) Lakin əslində örtülü sözündə *-ülü* iki şəkilçinin sintezindən ibarətdir və iki sözdüzəldici şəkilçi kimi götürülməlidir. Prof. Q.Ş.Kazımov da *örtülü* sözündəki *–ülü* şəkilçisini iki şəkilçi kimi təqdim edir: ***-ü*** feildən isim; *-lü* isimdən sifət düzəldir.(bax: 48.,108). *Örülü bazar dostluğu pozar(atalar sözü).* Bu qayda ilə dilimizdə xeyli sayda söz əmələ gəlir. Məsələn: *yazılı, küsülü, ütülü, ölçülü, çəkili və s.*

Lakin dildəki bütün *-ılı,-ili,-ulu,-ülü* şəkilçili sözlər bu qaydaya tabe olmur. Məsələn: *süzülü, biçili, tikili* və s. Verilən nümunələrdən göründüyü kimi, bu, bütün sözlərdə özünü doğrultmur. Müasir Azərbaycan ədəbi dilində ***süzü, biçi, tiki, sökü, qazı, tökü, didi, taxı və s.*** isimlər olmadığı kimi, bunlara da dördvariantlı*–lı* şəkilçisini artırıb düzəltmə sifət əmələ gətirmək mümkün deyil. Ona görə də, bu sözlər *–ıl,-il,-ul,-ül* məchul növ şəkilçisinin və feildən sifət düzəldən *–ı,-i,-u,-ü* şəkilçisinin artırılması nəticəsində yaranır. Məsələn: *süzmək-süzül(mək)-süzülü,biçmək-biçil(mək)-biçili, tikmək-tikil(mək)-tikili, sökmək-sökül(mək)-sökülü, qazmaq-qazıl(maq)-qazılı, tökmək-tökül(mək)-tökülü, didmək-didil(mək)-didili, taxmaq-taxıl(maq)-taxılı* və s.

Örtü və yazı kimi sözlərdə isə *-ü,-ı* feildən isim düzəldən şəkilçi kimi çıxış edir. Bu məqamda çaşqınlıq yaradan əsas cəhət feildən isim düzəldən *–ı,-i,-u,-ü* şəkilçisinin feildən sifət düzəldən *–ı,-i,-u,-ü* şəkilçisi ilə qarışıq salınmasıdır. Dilçilik ədəbiyyatlarında da əsasən, feildən sifət düzəldən

–ı,-i,-u,-ü şəkilçisi haqqında münasibət bildirilməmişdir. Əslində bu şəkilçi feildən isim düzəldən şəkilçi ilə omonimlik münasibətindədir və eyni bir şəkilçinin feildən həm isim, həm sifət əmələ gətirməsi dilimizdə mövcuddur, bu hal da tamamilə dilimiz üçün təbii və qəbulolunandır.

Yazılı, küsülü, ütülü, ölçülü, çəkili kimi sözlərdə şəkilçi **–ı,-i,-u,-ü**+ *lı,-li,-lu,-l*ü formasında olduğu halda, ***süzülü, biçili, tikili, sökülü*** və s. sözlərdə *-ıl,-il,-ul,ül+ ı,-i,-u,-ü* modelindədir.

-ılı. Feildən zərf düzəldən qeyri-məhsuldar şəkilçi olub, quruluşca mürəkkəb struktura malikdir. Artırıldığı sözdə tərz, vəziyyət, hərəkətin əlamətini bildirir. Məsələn*: uzanılı.Yaralı əsgər yerdə uzanılı qalmışdı.*

-kəm. Söz-şəkilçi olub, feillərdən ad düzəldən qeyri-məhsuldar şəkilçidir. Məsələn: ötkəm, görkəm. *Ötkəm və qumral səslə əzan oxudu və dindar müsəlmanları ibadətə çağırdı. (İ.Şıxlı), Buz bulaq elə bil çağlayır səndə; Dağlar öz görkəmində, ağlayır səndə?! (V.Dumanoğlu)*

-təkin. Bu şəkilçi dilimizdə əsasən, şəxs adları düzəldir: *Aytəkin, Gültəkin.*

-axlı,-ikli. Sifət düzəldən qeyri-məhsuldar şəkilçi olub, iki komponentin birləşməsindən əmələ gəlmişdir.Məsələn: *adaxlı, deyikli* və s.

Bayram idi, gecə quşu oxurdu,
Adaxlı qız bəy corabın toxurdu...

(M.Şəhriyar)

-axlı şəkilçisi tarixən də müasir dilimizdə olduğu kimi işlənmişdir. Bu şəkilçi vasitəsilə əmələ gəmiş "*adaxlı*" sözünə "Kitabi-Dədə Qorqud dastanları"nın dilində "*adaxlu*" formasında bir neçə dəfə rast gəlmək mümkündür. Məsələn:

Baqdı gördi bu otağ Banıçiçək otağıymış ki, Beyrəgiŋ beşikkərtmə nişanlısı-adaxlusıydı. Biz bunu tanımazız. Adaqlusına aparıŋ, görsün. Ol yaxşı bilür.

-mar. Feildən sifət düzəldir. Dilimizdə *qızmar* sözündə rast gəlirik. Prof. B.Əhmədova görə, *-mar* hind (yunan) mənşəli söz olub, *yandıran, isidən, isti* deməkdir. *Qızmar* isə sinonim sözlərin birləşməsindən yaranmışdır. Dilimizdə bu yolla yaranmış sözlər vardır: *uzundraz, qızıləhmədi* və s

-cə. Qayıdış növ feillərin sonuna artırılıb, isim düzəldir. Məsələn: *düşüncə, ələncə.*

Düşüncənin əvvəli, bütün sayların sonu,
Sözdür, yadında saxla, unutma əsla bunu! (N.Gəncəvi)

-ac,-c. Bu şəkilçi də feillərdən isim düzəldən qeyri-məhsuldar şəkilçi olub, əşya, alət, vasitə, proses bildirən yeni sözlər əmələ gətirir. Məsələn: *tıxac, saxlanc, güvənc, əyləc,-sevinc, qaxac, qısqanc.*

-ır,-ir. Feillərə qoşularaq əşya, alət məzmunlu isimlər düzəldən qeyri-məhsuldar omonim şəkilçidir.Məsələn: *yatır, gəlir, kəsir.*

-y. Bu şəkilçi feil sonuna qoşulmaqla yer, məkan, yol, əşya məzmunu ifadə edir. Şəkilçiyə müasir Azərbaycan dilindəki *"dolay"* sözünün tərkibində rast gəlinir. Məsələn: *Uzaq yollardan keçib dolaylardan qalxırıq.* (N.Rəfbəyli).

-ar,-ər. Bu şəkilçi də omonimlik keyfyyətinə malik olub, feildən isim düzəldən qeyri-məhsuldar söz-şəkilçidir. Qoşulduğu sözdə əşya, alət, vasitə, şəxs məzmunu yaradır. Məsələn: *çapar, açar, çıxar, kəsər, tutar, yazar, dəyər;* Sənsiz *açarı itmiş qapalı bir xəzinəyəm.(B.Vahabzadə), Kosaoğlunun ağzının kəsəri var.(İ.Şıxlı), Şofer Məmməd uzaqlaşdıqdan sonra Nəsib dayı açarı götürüb İmrana baxdı.* (İ.Şıxlı).

-uşuq. Şəkilçi *–uş* və *-uq* şəkilçisinin sintezi əsasında meydana gəlmiş, quruluşca mürəkkəb struktura malikdir. Şəkilçi tərkibə ayrıldıqda asemantikləşdiyindən birgə qeyri-məhsuldar şəkilçi kimi götürülür və əlamət, keyfyyət, maddənin vəziyyətin bildirir Məsələn: *ovuşuq*

-sov,-ımsov. Sifətin azaltma dərəcəsinin morfoloji göstəricisi olub, qeyri-məhsuldar qrammatik şəkilçidir. Məsələn**:** *ağımsov, dəlisov, uzunsov, göyümsov və s.*

-şın. Sifətin azaltma dərəcəsinin göstəricisi olub, müqayisə məzmunlu sifətlər düzəldir. Daha çox rəng bildirir. Məsələn**:** *sarışın, qaraşın; Bu burulğanda iki meyit fırlanırdı: biri qarayanız, biri sarışın.(İ.Şıxlı)*

-rək,-raq. Azaltma dərəcəsinin morfoloji əlaməti olub, qeyri-məhsuldar sözdəyişdirici şəkilçidir. Məsələn*: tösmərək, yaxşıraq* və s.

Gödərək sözündə artıq daşlaşmışdır.

-ımtıl. Nisbətən məhsuldarlığı ilə seçilir. Sifətin azaltma dərəcəsini əmələ gətirir. Məsələn: *ağımtıl, sarımtıl, bozumtul, qaramtıl, yaşılımtıl, qırmızımtıl.*

-ımtraq. Sözdəyişdirici şəkilçi olub**,** *yaşılımtraq, qırmızımtraq* kimi sözlərdə işlənir.

-yanız. Sifət düzəldən qeyri-məhsuldar şəkilçi olub, əlamət, keyfyyət, oxşarlıq, bənzərlik, rəng bildirir. Məsələn: *qarayanız, sarıyanız, ağyanız və s. Qarayanız bir oğlandır. (İ.Şıxlı).*

-at. Omonimlik keyfyyətinə malik qeyri-məhsuldar söz-şəkilçidir. Müxtəlif söz qruplarına aid leksik vahidlərə əlavə olunmaqla yeni mənalı isimlər düzəldir. Məsələn: ***başarat, gedişat*** və s.

-lıq. İsim, sifət, zərf düzəldən dördvariantlı –lıq şəkilçisi ilə omonim olub, feildən əşya, alət məzmunlu söz düzəldir.

Məsələn: *qırxlıq.* İsim, sifət düzəldən dördvaiantlı –lıq şəkilçisindən fərqli olaraq feildən isim düzəldən –lıq şəkilçisi qeyri-məhsuldardır. Qeyd edək ki, **qırxlıq** qoyunçuluqla bağlı bir söz olub, əlamət, keyfyyət bildirən **qırxlıq** sözündən (*qırxlıq lampa*) əsaslı şəkildə fərqlənir.

-ca,-cə. Müasir Azərbaycan dilində omonim şəkilçilərdən biri olub, müxtəlif məzmunlu yeni sözlər düzəldir. İşlənmə məqamından asılı olaraq sözdəyişdirici və sözdüzəldici şəkilçi mövqeyində çıxış edir və polisemantik funksiyaya malikdir. Köməkçi nitq hissələrindən qoşma və ədat kimi işləndiyi halda, əsas nitq hissələrindən isim, sifət, say, zərf düzəldir. Bu şəkilçi dilimizdə nisbətən məhsuldarlığı ilə seçilib, qoşulduğu sözdə əşya, əlamət, tərz, keyfyyət, rəng, həcm, zaman, miqdar məzmunu yaradır. Məsələn*: Qaraca, Ağca, qızılca, balaca, türkcə, ingiliscə, yenicə, əvvəlcə, qabaqca, dəryaca, məncə, səncə, bircə,təkcə və s.*

Əzizinəm, gül əllər,
Ağ biləklər, gül əllər.
Dəryaca ağlın olsa
Yoxsul olsan gülərlər.(folklordan)

Əvvəlcə *ürəyə gözlərdən düşür.(B.Vahabzadə),*

Səkkizcə dəqiqə danışmaq üçün, biz tut ağacının altına keçdik.(B.Vahabzadə), Bircə bunu bilirəm ki, mənim ürəyimcəsən. (B.Vahabzadə), Sıldırım qayalara çıxan yolu təkcə Dadaş bilirdi. –ca,-cə şəkilçisi bəzən **–dan,-dən** *şəkilçisi ilə birləşib zaman mənalı zərf düzəldir. Məsələn: əvvəcədən, qabaqcadan.*

-ca,-cə omonim şəkilçisi isimdən isim də əmələ gətirir: *Türkcə(Azərbaycan türkcəsi)*

-daş. Bir cür yazılan, ad düzəldən sözdüzəldici şəkilçidir. Sadaladığımız şəkilçilərdən fərqli olaraq dilimizdə məhsuldar olub, söz yaradıcılığında fəal iştirak edir. Şəkilçiyə dilimizin inkişafının bütün mərhələlərində rast gəlinir. Milli mənşəli *–daş* şəkilçisi qoşulduğu sözdə şəxs, əşya, mənsubluq, həmyerlilik anlayışları yaradır. Məsələn: *soydaş, cığırdaş, vətəndaş, cəhbədaş, qələmdaş, sinifdaş, əməkdaş, silahdaş, məsləkdaş və s.* Şəkilçi *–da* və *-ş* şəkilçisinin (sözünün) sintezi əsasında əmələ gəlmişdir. K.Q.Zaleqman, Ə.Dəmirçizadə, Ə.Rəcəbli, H.Mirzəzadə, Ə.Tanrıverdi, Q. Kazımov kimi dilçilərin tədqiqatlarında şəkilçinin mənbəyi, etimologiyası araşdırılmış, elmi, məntiqi faktlarla sübut olunmuşdur. Adları çəkilən dilçilərin linqvistik tətqiqatlarına əsasən, *-daş* şəkilçisinin yerlik hal şəkilçisi *–da,-də* və türk dillərində *"dost", "yoldaş"* mənasını ifadə edən **"eş"** sözünün birləşməsindən yarandığını demək olar. Qeyd edək ki, **"eş"**sözü bu gün müasir Türk dilində də işlənməkdədir.

-daş. Bu şəkilçi milli mənşəli qeyri-məhsuldar söz-şəkilçi olub, feildən yeni mənalı söz əmələ gətirir. Omonimlik xüsusiyyətinə malik olan , feildən isim düzəldən *–daş* şəkilçisinin isim düzəldən, mənsubluq, şəxs, əşya, vasitə bildirən *–daş* şəkilçisi ilə heç bir əlaqəsi yoxdur. Oxşarlıq yalnız onların forması ilə bağlıdır. Hər iki şəkilçi arasında zahiri oxşarlıq hər nə qədərdirsə, onlar arasındakı semantik fərq də bir o qədərdir. Feildən isim düzəldən *–daş* şəkilçisi *dış, dışaru, taş, taşra* sözlərinin mənasının daralması, şəkilçiləşməsi, şəkildəyişməsi zəmnində formalaşmışdır. Dilin tarixi inkişafının ilkin mərhələlərində belə müxtəlif şəkildə bu sözə rast gəlinir. Qədim türk yazısı abidələrinin, "Kitabi-Dədə Qorqud dastanları"nın və "Dastani-Əhməd

Hərami” poemasının dilində də bir neçə dəfə işlənmişdir. Məsələn: *“Ər atım yok üçün aşnukı eşim taşru etildi (Y 41)”-İgid adım olmadığı üçün yeddi əvvəlki dostum sürgün edildi. (36..,613), İç Oğuz, Daş Oğuz bəgləri Bayındır xanıŋ söhbətinə dərilmişdir.(“Kitabi-Dədə Qorqud dastanları”ndan), İç Oğuz, Daş Oğuz bəgləri yığnaq olmuşdı. (“Kitabi-Dədə Qorqud dastanları”ndan). Birin-birin çığın taşra varınız. (“Dastani-Əhməd Hərami”dən).* Müasir Azərbaycan dilində *daş, dış, dışaru, taş* sözlərinin şəkilçiləşmiş forması olan və feildən isim düzəldən *–daş* şəkilçisinə *“*çıxdaş*”* sözündə rast gəlinir.

-dış. Bu şəkilçi də qeyri-məhsuldar söz-şəkilçi olub, yuxarıdakı qəlib əsasında əmələ gəlmişdir. Dilin inkişafı ilə əlaqədar olaraq *dış/tış* sözünün mənası daralmış və şəkilçiləşmişdir. Məsələn: *sağdış, soldış.* Nümunələrdən də göründüyü kimi şəkilçi öz kökündən hələ tam şəkildə təcrid olunmayıb, qoşulduğu sözdə eyni semantik çalar ifadə edir. “Dastani-Əhməd Hərami”nin dilində şəkilçinin *–dıc* fomasına da rast gəlinir:

Bədəxşanın şahı həm anda gəldi,
Güyəgüyə də anda sağdıc oldı...
Güləfrux şah süvar oldı atına,
Bilə sağdıc həmmam niyyətinə.

-alaq. Qeyri-məhsuldar şəkilçi olub, feildən sifət düzəldir. Şəkilçiyə dilimizdəki *basırıq* sözünün sinonimi olan *basalaq* sözündə təsadüf olunur.

-pik. İsimdən isim düzəldən qeyri-məhsuldar şəkilçi olub, qoşulduğu sözdə əşya, alət, vasitə çaları yaradır. Məsələn: *yelpik.*

-pinc. *–pik* şəkilçisi ilə sinonimlik təşkil edir və *yelpinc* ismini əmələ gətirir.

-pazə. Bu morfem də dilimizdə şəkilçi qismində çıxış edir. Çünki dilimizdə müstəqil leksik semantikaya malik *pazə* sözü yoxdur. Şəkilçi *yelpinc, yelpik* sözlərinin sinonimi olan *yelpazə* sözündə işlənir.

-keş. Müasir Azərbaycan dilində işlənən qeyri-məhsuldar şəkilçilərdən biri olub, əşya, alət, vasitə bildirir. *"Dabankeş"* sözündə rast gəlinir. Qeyd edək ki,*"azarkeş", "dəmkeş","qəmkeş", "sərinkeş","zəhmətkeş"* və s. kimi sözlərin tərkibindəki *–keş* şəkilçisi ilə *"dabankeş"* sözünün tərkibindəki *–keş* şəkilçisi bir-birinin ekvivalenti deyillər. Bunlar yalnız deyiliş və yazılış etibarı ilə eyniyyət təşkil edir və omonimlik key f yyətinə malikdirlər.*"Dabankeş"* sözündəki *–keş* milli mənşəli şəkilçi olub, *"keçmək"* feli əsasında əmələ gəlmişdir. Dilin inkişafı ilə əlaqədar olaraq *keç(mək)* sözü öz ilkin şəklindən uzaqlaşmış, *"keş"* kimi sabitləşmişdir. Çox güman ki, bu, *"keç"* sözünün tələ f üzü ilə əlaqədar olmuş, yazılışı da fonetik prinsip əsasında müəyyənləşmişdir.

"Ç" samiti ilə bitən tək hecalı sözlərdən sonra,*"d, t, z, s, m, n"*(*qaçsa-qaşsa, uçsa-uşsa, keçsə-keşsə, üç dəftər-üş dəfdər, keçdi-keşdi, qaçdı-qaşdı və s.)* samitləri ilə başlayan şəkilçi və ya söz gəldikdə **"ç"** samiti **"ş"** kimi tələ f üz olunur. Azərbaycan dilinin fonetik tərkibinə nəzər saldıqda, bədii mətnlər üzərində müşahidələr və linqvistik təhlillər apardıqda **ç>ş, c>j** kimi fonetik əvəzləmənlərin dilimiz üçün xarakterik bir hal, təbii bir proses olduğunu dərk etmək olur. Dilin inkişafının bütün tarixi mərhələlərində belə məqama rast gəlmək mümkündür. Məsələn , *"başmaq"* sözünün ehtimolji cəhətdən *"basmaq"* felindən əmələ gəlməsi, *"dustaq"* sözü-

nün *"tutsaq"dan* yaranması buna nümunə ola bilər. Məhz buna görə də, *dabankeş* sözündəki *"keş"* milli mənşəli qeyri-məhsuldar şəkilçidir. *Dabankeş* sözünün leksik mənası, ifadə etdiyi semantik çalar da *keş* budaq morfeminin *keç(mək)* zəminində yarandığını isbat edir.

Bu şəkilçi istisna hal kimi feildən də isim əmələ gətirir. Məsələn: *təpkeş*

-ba. Addan ad əmələ gətirən qeyri-məhsuldar omonim şəkilçidir. Əşya, vasitə, əlamət, zahiri görkəm bildirir. Məsələn: *zorba*

-əngi. Həm feildən, həm də isimdən isim düzəldən qeyri-məhsuldar şəkilçidir. Məsələn*: üzəngi***, güləşəngi**. *Ayağını üzəngiyə qoyub yəhərə qalxmaq istədi və ömründə ilk dəfə bədəni ağırlıq elədi.(İ.Şıxlı), Başını qaldırıb ayağını üzəngiyə qoydu və cavanlıq illərində olduğu kimi sıçrayıb yəhərə qalxdı.(İ.Şıxlı), Ay Hümmət qağa, indi də* **güləşəngi** *(Güləş yarışı keçirilərkən çalınan hava mənasını bildirir; indiki cəngi –İ.Əsgər) çal, görüm, qabağıma kim çıxacaq? (İ.Şıxlı).* **–həngi.** Bu şəkilçi də *-əngi* şəkilçisi ilə bir mənbədən olub, eyni semantikaya malikdir. Şəkilçinin bu formasına İ.Şıxlının yaradıcılığında rast gəlinir: *Gah atdandırma, gah* **çadırhəngi** *çalar, gah da oynamaq istəyənlərin xahişini yerinə yetirərdi... Qara zurna da* **güləşhəngi** *çalınan kimi meydana atılırdı. Hümmət* **cıdırhəngi** *çalır, kəndin dəliqanlıları atlarını zurnaçının qabağında oynadıb cıdıra hazırlaşırılar.*

-maq,-mək. Əslində məsdər şəkilçisi olub, feildən isim düzəldən şəkilçi kimi çıxış edir. Bəzi sözlərdə artıq daşlaşmış *–maq,-mək* şəkilçisi artırıldığı sözdə əşya, alət, vasitə məzmunu yaradır. Məsələn: *demək, toxmaq, yemək, cırmaq. Yemək* sözünə fərqli yanaşmaq lazımdır. Söz əsas və

budaq olmasından asılı olmayaraq 4 morfemdən ibarətdir: *ye-yem-yemə-yemək.*

Sözün kökü **ye (mək)** felidir, *-m* feildən isim düzəldən, *-ə(-ma,-mə)*feli isim düzəldən, *-k* isə isim düzəldən şəkilçidir. Hət a "Kitabi-Dədə Qorqud" dastanlarının dilində *ye* sözünün *yemə, yemək* formalarına rast gəlinir. Yemək sözündəki *–mək* şəkilçisinin 3 şəkilçinin sintezindən yaranması təbii və qəbul olunandır. Çünki dilimizdə bu qəlib əsasında onlarla yeni söz yaranmış, dilimizin fəal lüğət fonduna daxil olmuşdur. Məsələn**:** *bilik, daraq, içki, bitki, ayrım, cizgi, çatlaq, işlək, dişlək, bəzək, çörək və s. Dara(maq) dan daraq, bəzə(mək)dən bəzək, işlə(mək)dən işlək, iç(mək) dən içki yarandığı kimi, ye(mək)dən də yem, yemə(içmə), yemək* yarana bilər və bu cəhət dilimiz üçün yad deyil.

-ıx. Sifət və feil düzəldən şəkilçi kimi omonimlik səciyyəsinə malik olan qeyri-məhsuldar şəkilçidir. Dilimizdə *qanıx, azıx, qazıx* sözlərində rast gəlinir.

-ıq,-ik,-uq,-ük. Feillərdən isim və sifət düzəldən sözdüzəldici şəkilçi olub, nisbətən məhsuldarlığı ilə seçilir. Söz sonuna qoşulmaqla əlamət, key f yyət, əşya, alət, vasitə, proses ifadə edən leksik vahidlər əmələ gətirir. Məsələn: *barışıq, minik, güdük, tapşırıq, hörük, çapıq, kəsik, qarışıq, sarmaşıq, qırıq, yırtıq, buruq, əzik və s.*

-çır. İsimdən isim düzəldən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *qançır.*

-larca,-lərcə;-larla,-lərlə. Bu şəkilçi milli mənşəli olub, müasir dilimizdə müəyyən miqdar saylarının sonuna qoşulur və qeyri-müəyyən kəmiyyət ifadə edən miqdar sayları əmələ gətirir. Şəkilçi qeyri-müəyyən kəmiyyət bildirən *–lar,-lər və -ca,-cə,-la,-lə* budaq morfemlərinin sintezi əsa-

sında əmələ gəlmişdir. *-larca,-lərcə;-larla,-lərlə* şəkilçilərinin işlənmə arealı olduqca məhdudur. Çünki bu şəkilçini bütün miqdar sayları, xüsusən də, müəyyən miqdar sayları ilə işlətmək olmur və bu qeyri-mümkündür. Belə ki, bu şəkilçilərin işləndiyi sözlərdə müəyyən bir nizamlılıq, ardıcıllıq, bağlılıq olur. Məsələn:

Onlarla, yüzlərlə, minlərlə, on minlərlə, yüz minlərlə, milyonlarla, on milyonlarla, yüz milyonlarla, milyardlarla...

Onlarca, yüzlərcə, minlərcə, on minlərcə, yüz minlərcə, milyonlarca, on milyonlarca, yüz milyonlarca, milyardlarca...

Nümunələrdən də göründüyü kimi, bu şəkilçilərin işləndiyi sözlər həndəsi silsilə təşkil edərək sonsuza doğru artır. Şəkilçinin işləndiyi sözlərin birincisi istisna olunmaqla **(***onlarla və onlarca***),** özündən sonra gələn hər bir leksik vahid özündən əvvəlkinin on mislinə bərabərdir. Müqayisə edin: *10 (on) - 100 (yüz) - 1000 (min) - 10000 (on min) - 100000 (yüz min) - 1000000 (milyon) - 10000000 (on milyon)-100000000(yüz milyon)...*

-iyə,-iya. Yer, məkan, ölkə məzmunu yaradan qeyri-məhsuldar polisemantik şəkilçidir. Məsələn: *Türkiyə, Rusiya, Almaniya, Rumıniya, Belarusiya, Albaniya* və s.

-ışıq.Tərkibcə iki şəkilçinin sintezindən ibarət olan *–ışıq* şəkilçisi dilimizdə feildən isim düzəldir və əşya, hal-vəziyyət məzmunu yaradır. Məsələn: *dolanışıq*

-vay. İsimdən sifət düzəldən qeyri-məhsuldar söz-şəkilçidir. Qoşulduğu sözdə əlamət, key f yyət bildirir. Məsələn: ölüvay.

-i. Sifətdən isim düzəldən qeyri-məhsuldar omonim şəkilçidir. Əşya, alət, vasitə məzmunu yaradır. Məsələn: şirni *və s.*

-az. İsimdən isim düzəldən milli mənşəli qeyri- məhsuldar şəkilçidir. Bu şəkilçi vasitəsilə dilimizdə idman terminalogiyasına aid yeni bir neologizm- *topaz* sözü əmələ gəlmişdir. Güman ki, şəkilçi *Azərbaycan* sözünün abreviaturası zəminində yaranmışdır. Lakin bu söz nə izahlı lüğətdə, nə də Azərbaycan dilinin orfoqrafya lüğətində (17) öz əksini tapmışdır. Yalnız izahlı lüğətdə fransız mənşəli *topaz* sözü *mineral, kristal* mənasında izah olunmuşdur. Müasir dilimizdə isə idmanla əlaqədar termin kimi işlənir*: topaz (premyerliqası)*

-dəlik. Bu şəkilçi *–də* yerlik hal şəkilçisi və isim düzəldən *-lik* şəkilçisinin sintezi əsasında yaranmış bir cür yazılan qeyri-məhsuldar şəkilçidir. Müasir dilimizdə *gündəlik* sözündə təsadüf olunur. *–dakı,-dəki* şəkilçisinin modeli əsasında əmələ gəlmişdir.

-dəm. Qeyri-məhsuldar söz-şəkilçi olan *–dəm* həm Orxon-Yenisey abidələrində, həm də "Kitabi-Dədə Qorqud" dastanlarının dilindəki *ərdəm, ərdəmli* sözlərində işlənmişdir. Dilimizdəki *yöndəm, ərdəm, gündəm* kimi sözlər də bu şəkilçi vasitəsilə düzəlmişdir.

-çim. Qeyri-məhsuldar söz-şəkilçi olan *-çim* əslində müstəqil söz kökünün şəkilçiləşməsi əsasında yaranmışdır. Əsasən, numerativlik, ölçü, dərəcə məzmunu bildirir. *Əl* sözünə artırılıb *əlçim* sözünü düzəldir.

-manc. Peşə, sənət, ixtisas, şəxs bildirən və isimdən isim düzəldən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *dilmanc.*

-kom. Bu şəkilçi *komitə* sözünün ixtisarı əsasında yaranmışdır. Sovetlər dönəmində abreviatura qaydalarına uyğun olaraq *komitə* sözünün *"kom"* hissəsi bu və ya digər bir sözlə birləşərək yeni sovetizmlər düzəltmişdir. Məsələn:

raykom-rayon komitəsi, partkom-partiya komitəsi, zavkom-zavod komitəsi. Müasir Azərbaycan dilində tədricən şəkilçiləşməyə doğru gedir. *Təmizkom, sini f om, bazarkom* kimi sözlərdə rast gəlirik.

-əri. Həm sifət, həm də zərf düzəldən qeyri-məhsuldar omonim şəkilçidir. Məsələn*: içəri, köçəri, ötəri, gedəri və s. Qız içəri girdi.(İ.Şıxlı)*

-ra. Bu şəkilçi dilimizdə əsasən yer, məkan, qismən də işarə mənalı leksik vahidlər əmələ gətirir. Məsələn: *ora, bura.*

Bu şəkilçi haqqında dilçilikdə müxtəlif meyarlar əsasında tədqiqatlar aparılmış, mülahizələr söylənmişdir. *–ra* şəkilçisi vasitəsilə əmələ gəlmiş *ora, bura* kimi sözlər də gah isim, gah əvəzlik, gah da ki yer zərf kimi tədqiq olunmuşdur. Şəkilçi haqqında professorlardan H.Mirzəzadə, M.Hüseynzadə, Y.Seyidov, F.Cəlilov, Q.Kazımov, Ə.Tanrıverdi, Ə.Rəcəbli kimi dilçi alimlər elmi fikirlər söyləmişlər. Prof.Ə.Tanrıverdi *"Azərbaycan dilinin tarixi qrammatikası"* kitabında Y.Seyidovdan sitat gətirərək yazır: *"Ora, bura yer bildirir və həm də yer bildirən isimlərdən fərqli olaraq, konkret yer adı deyil, ümumən, mücərrəd mənada yer bildirir...ora, bura* sözlərində isə işarə etmə güclü amildir. Üstəlik bu sözlər əvəzetmə roluna malikdir...belə hesab edirik ki, *ora, bura* sözləri zərf deyil, əvəzlikdir."*(35.,324)*

F.Cəlilov isə şəkilçinin yaranmasını *"ara"* və *"yerə"* sözlərinin transformasiyası kontekstində izah etmişdir. Bu şəkilçi müasir dilimizdə zəif, yaxud da daşlaşmış formada işlənsə də, dilin tarinin ilkin mərhələlərində daha işlək və məhsuldar olmuşdur. Hə t a qədim türk yazısı abidələrinin dilində də bu şəkilçi vasitəsilə düzəlmiş *"içrə, asra, kisrə, önrə, taşra"* kimi düzəltmə zərfərə rast gəlmək mümkündür.(bax: 36.,613)

Prof. Q.Kazımov isə *ora, bura* sözlərindəki *–ra* şəkilçisini tarixən işlənmiş yönlük hal şəkilçisi kontekstində izah edərək, linqvistik təhlil müstəvisinə gətirir. Professor bu münasibətlə yazır: *"Qeyd olunan şəkilçilər (-ru,-qaru,-ra,-rə şəkilçisi nəzrdə tutulur –İ.Ə) tarixən istiqamət halının şəkilçiləri olduğundan istiqamət mənası həmin sözlərdə qalmışdır, ona görə də çox vaxt bu sözlərə yönlük halın şəkilçisini əlavə etmək lazım gəlmir. Bu cür sözləri həm yönlük halın şəkilçisi ilə, həm də şəkilçisiz işlədə bilirik...Ora, bura, içəri sözlərinin düzəltmə söz olduğunu qeyd etmək olar. Bunlar o, bu, iç sözlərinə -ra,-ə-ri(-qaru) şəkilçilərinin artırılması ilə əvəzlik və isimlərdən yaranmış sözlərdir".(48.,327-328)*

Şəkilçi *hara, sonra* sözlərinin tərkibində daşlaşmışdır

-ərgi. Şəkilçi qeyri-məhsuldar olub, *ötərgi, keçərgi* sözlərinin tərkibində işlənir.

-t. İsimdən isim düzəldən qeyri-məhsuldar omonim şəkilçidir. Məsələn: *Növbət, urvat və s.* Süfrəmiz *urvatsız, duzsuz olmasın.(V.Dumanoğlu)*

-t şəkilçisi qeyri-məhsuldar olsa da, dilin tarixinin ilkin mərhələlərindən üzü bəri dilimizdə işlənmişdir. Bu şəkilçi vasitəsilə əmələ gəlmiş *"növbət"* sözünə həm erkən orta əsrlərə, həm də XIX-XX əsrlərə aid bədii mətnlərdə rast gəlinir. "Kitabi-Dədə Qorqud dastanları"nda - "Basat Dəpə gözi öldürdügi boyı bəyan edər, xanım, hey" adlı səkkizinci boyda da bir neçə dəfə işlənmişdir. Məsələn: *Gerü növbət dolanıb, aŋa gəlmişdi...İki oğlancığım vardı. Birin verdim, biri qaldı. Çevrildi, növbət gerü-maŋa gəldi.*

Növbət sözü müasir Azərbaycan ədəbi dilində də işlənir. Lakin Azərbaycan dilinin orfoqrafya lüğətində öz əksini tapmamışdır. Bu sözün varlığını dilimizin fəal lüğət fon-

duna daxil olan, ümumişlək olan *növbəti, növbətçi, növbətçilik* kimi sözlər də təsdiq edir. *-t* ünsürü olmadan qeyd olunan sözlərin yaranması əsasən mümkün deyil. *Növbət* sözünün əsası həmin sözün kökü ilə semantik cəhətdən eyniyyət təşkil edir, biri digərinin sinonimi kimi çıxış edə bilir. Ancaq bu oxşarlıq dilimizdə *növbət* sözünün olmaması yaxud da bu sözdən imtina olunması üçün əsas deyil. Həm ədəbi dilimizdə, həm də dialekt və şivələrimizdə eyni məzmunlu söz və şəkilçilərin təkrarı, iştirakı ilə əmələ gələn söz və birləşmələrin olması bu kimi halların dilimiz üçün yad olmadığını göstərir. Məsələn: *qızıləhmədi, uzundraz, cəmisi, yol pulusu, qəbirstanlıq, növbət və s.* Hə t a bu hala tarixi qrammatikada da rast gəlmək mümkündür. Məsələn: *Ala köpək itinə kəndözin taladarmı?...Qanadıyla saqsağana kəndözin şaqıdarmı?...("Kitabi-Dədə Qorqud dastanları"ndan)*

-dək. İsim düzəldən qeyri-məhsuldar şəkilçidir. Zaman mənalı *güz(payız)* sözünə qoşularaq əşya, yer, məkan bildirən **güzdək** sözünü əmələ gətirir. Məsələn: *Nəmişlik olduğundan güzdək dizə çıxırdı.(Ə.Vəliyev), Qaraca çoban dəstəsilə gəlib güzdəyə çatanda, ona söylədilər ki, anası və bacıları gəlib qardaşlarının meyitlərini obaya aparmışlar.(M.Rzaquluzadə). (bax:14)*

-taq. *Tax(maq)* felinin şəkilçiləşmiş formasıdır. Dilimizdə əşya məzmunlu **buruntaq** sözündə rast gəlinir. Məsələn: *Tut ağacının haçasından bir çatı sıyırıb tələsik tövləyə girdi, bir az sonra buruntaq verdiyi buzovu sürüyə-sürüyə çölə çıxardı. (İ.Mahmud)*

-da. Bu şəkilçi söz yaratma prosesində müxtəlif söz qruplarına aid leksik vahidlər əmələ gətirir. Yaranma etibarilə qədim tarixi kökə malik olan *–da* şəkilçisi dilimizdə həm

sözdüzəldici, həm də sözdəyişdirici şəkilçi kimi işlənməklə omonimlik keyfiyyəti daşıyır. *–da* şəkilçisi sifət düzəldən şəkilçi kimi dilimizdə qeyri-məhsuldardır və əsasən *-dey* şəkilçisinin yaratdığı semantikanı ifadə edir. Söz sonuna qoşulmaqla əlamət, məkan, xüsusiyyət məzmunu yaradır. Məsələn: *dalda(yer), yaxud da daldey*.

-ün,-in. Adlardan sifət düzəldən qeyri-məhsuldar omonim şəkilçidir. Qoşulduğu sözdə əlamət, keyfiyyət, dərəcə, görkəm bildirir. Məsələn*: üstün, çirkin və s.*

-am. Sifətdən sifət düzəldən qeyri-məhsuldar omonim şəkilçidir. Əlamət, xüsusiyyət, keyfiyyət bildirir. Sifət düzəldən *–am* şəkilçisinə dilimizdəki *"tarım"* sözünün sinonimi olan *"daram"* sözündə rast gəlinir.

-təhər. Bu şəkilçi sifət düzəldən nisbətən məhsuldar omonim şəkilçidir. Əslində sifətin azaltma dərəcəsini sintaktik yolla əmələ gətirən sözlərdən biridir. Şəkilçi qismində işlənən *–təhər*, ad bildirən *təhər* sözü ilə omonimlik keyfiyyəti daşıyır. Şəkilçinin orfoqrafyası dilçilik ədəbiyyatlarında müxtəlif şəkildə göstərilmiş; gah sözlərə bitişik, gah da ayrı yazılmışdır. Azərbaycan dilinin orfoqrafya lüğətinin VI nəşrində düzgün yazılış forması kimi sözlərə bitişik verilmişdir. *–təhər* müasir Azərbaycan dilində tədricən müstəqilliyini, leksik mənasını, konkretliliyini itirməkdədir və qoşulduğu sözdə əlamət, keyfiyyət, bənzərlik, oxşarlıq, müqayisə, dərəcə, rəng, həcm, ölçü, mücərrədlik semantikasına malik olur. Məsələn: *ağtəhər, sarıtəhər, kiçiktəhər, böyüktəhər, uzuntəhər, kişitəhər, dəlitəhər, boztəhər, baba təhər* və s.

İstisna hallarda bu şəkilçi vasitəsilə tərzi-hərəkət zərf də əmələ gəlir: *birtəhər*.

- Alıram, ay bala, mən də donluğu
Çörəyə verirəm bircə onluğu.
Dollannam birtəhər, Allaha şükür...
Gözlərim nədənsə yaman yol çəkir..! (V.Dumanoğlu)

-yın. Şəkilçi qeyri-məhsuldar olub, *arxayın* sözündə işlənir.Məsələn: *Halay bəy heç kəsə dəyib-toxunmadığından özündən arxayın idi, binələrin ətrafında başını girləyirdi.(İ.Şıxlı).*

-dik. Feildən sifət düzəldən qeyri-məhsuldar və omonim şəkilçidir. Qoşulduğu sözlərdə təqribən *–ası,-əsi,-acaq,-əcək* və *-malı,-məli* feli sifət şəkilçilərinin ifadə etdiyi semantik çaları ifadə edir. *–dik* şəkilçisini qəbul etmiş leksik vahidlər bəzən mətndaxili situasiyadan asılı olaraq *"qədər"* sözü ilə işlənir. Şəkilçiyə dilimizdəki *"çatdıq", "yetdik"* kimi sözlərin tərkibində rast gəlinir. Məsələn: *Sinəmdə sizə yetdik; Mənim bir az sözüm var.(R.Rza)*

-gəc,-qac,-ğac,-ğıc. Feillərin sonuna qoşulmaqla, şəxs, əşya, alət, proses, vasitə, sənət, peşə məzmunu yaradan isimlər düzəldən qeyri-məhsuldar omonim şəkilçidir. Məsələn**:** *tutqac, sürtgəc, qıyğac, sallanğıc, süzgəc, üzgəc, dalğıc, başlanğıc, burğac, sayğac və s.*

-əmlik. Söz-şəkilçi olub, əvəzlikdən isim əmələ gətirir. Şəkilçi əslində I şəxsin təkinin şəxs sonluğu və isim düzəldən –lik şəkilçinin sintezi əsasında əmələ gəlmiş və mürəkkəb struktura malikdir. Təqribən *–dakı,-dəki,-casına,-cəsinə,-əlik* şəkilçilərinin quruluş modelləri əsasında yaranmışdır. Məsələn: *mənəmlik.*

-mac,-məc. Feildən isim düzəldən qeyri-məhsuldar şəkilçi olub, **-ma,-mə və -c** şəkilçisinin sintezindən əmələ

gəlmişdir. Qoşulduğu sözdə əşya, alət, vasitə anlayışı ifadə edir. Məsələn: *yanıltmac, döyməc, bulamac, bozlamac, doğramac, yaxmac və s.*

-ıca,-icə. İsim və feildən insan, şəxs, əşya, şəcərə, nəsil məzmunlu sözlər əmələ gətirən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *yadıca, iticə*

-ma,-mə. Bu şəkilçi müasir Azərbaycan dilində həm leksik, həm də qrammatik şəkilçi kimi omonimlik keyfyyətinə malikdir. Leksik şəkilçi kimi isim və sifətlərin əmələ gəlməsində fəal iştirak edir və məhsuldardır. Məsələn:*burma, qurma, doğrama, hörmə, görmə, qırma, vurma, bölmə, gəlmə və s.* Lakin isimdən isim düzəldən –mə şəkilçisi qeyri-məhsuldardır. Məsələn: *gölmə. –mə* şəkilçisi *–c* şəkilçisi ilə birləşib yer, məkan mənalı isim də düzəldə bilir: *gölməc.*

-caq,-çək. İsimdən isim düzəldən qeyri-məhsuldar omonim şəkilçidir. Əşya məzmunlu sözlərə qoşularaq əşya, alət, vasitə məzmunu yaradır. Məsələn: *oduncaq, dibçək, dilçək.*

-xana. Sifətdən sifət düzəldən qeyri-məhsuldar omonim və söz-şəkilçidir. Bu şəkilçinin fars mənşəli *–xana* şəkilçisi ilə bağlılığı yoxdur. Sadəcə onunla omonimlik xüsusiyyəti daşıyır. Artırıldığı sözdə əlamət, xarakter, keyfyyət çaları ifadə edir. Məsələn: *yekəxana*

-maz,-məz. İnkarlıq bildirən *–ma,-mə* və qeyri-qəti gələcək zaman şəkilçisi *–ar,-ər* şəkilçisinin sintezi əsasında yaranmış ad düzəldən şəkilçidir. Sözdəyişdirici şəkilçinin sözdüzəldici şəkilçiyə çevrilməsi yolu ilə əmələ gəlmiş qeyri-məhsuldar şəkilçidir. Məsələn: *Qorxmaz, Solmaz, axmaz, yaramaz* və s.

-duq. Dilimizdə *"burunduq"* sözündə rast gəlirik.

-əngə. Addan ad əmələ gətirən qeyri-məhsuldar şəkilçi-

dir. Məsələn: *bicəngə, Amma elə ki, bicəngə xaloğlum başladı dayımı yamsılamağa və dayım kimi dodaqlarını tərpətməyə,.. burada, doğrusu, mən də gülməyə başaldım. (C.Məmmədquluzadə) .(bax: 8.,296).*

-ağa. İsimdən isim düzəldən qeyri-məhsuldar söz şəkilçidir. Yer, məkan, yol, vasitə bildirir. Məsələn: *yolağa*

-şar. Feildən isim əmələ gətirən qeyri-məhsuldar söz-şəkilçidir. Qoşulduğu sözdə hadisə, əşya, proses, vasitə çaları yaradır. Şəkilçiyə dilimizdəki *"ovşar"* sözündə rast gəlinir.

-ça,-çə. Adlardan kiçiltmə, əzizləmə, əşya, vasitə mənalı isim düzəldən şəkilçi kimi məhsuldar *(qazança, meydança, dəftərçə, kitabça, xalça və s)*, sifət və feildən isim düzəldən şəkilçi kimi qeyri-məhsuldardır. Məsələn: *boğça, baxça (uşaq baxçası), açıqça*

Baxça sözü məktəb dərsliklərində, dilçilik ədəbiyyatlarında, lüğətlərdə *bağça* formasında göstərilmişdir. Bizə görə, bu fkirlə razılaşmaq olmaz. Düzdür, *bostan, güllük, çiçəklik* sözlərinin sononimi olan *bağ* sözündən kiçiltmə mənalı *bağça* ismi düzəlir. Lakin *baxça* sözünün kökü *bax(-maq)* felidir. Bu və ya digər bir valideyin öz övladını *baxçaya* baxılmaq üçün, təlim-tərbiyə almaq üçün, yaşına uyğun intellekt sahibi olmaq üçün göndərir. Ətrafımızda olan *baxçalara* nəzər saldıqda görürük ki, həqiqətən də, bütün *baxçalar* güllə, çiçəklə, dekorativ bitki və ağaclarla əhatə olunmamışdır. Çox güman ki, dilimizdə *bağça* sözünün işlənməsi rus dilindən səhv kalka edilməsi bağlıdır.

Zənnimizcə, bu sözün yazılışı fonetik prinsip əsasında müəyyən olunmalıdır. Dilimizdə yazılışı fonetik prinsipə əsaslanan yüzlərlə söz vardır. Ona görə də sözü *baxça* şəklində yazmaq daha düzgün və məntiqəuyğundur.

Boğça sözünün yazılışı da ***baxça*** sözündəki kimi maraq doğurur. Müxtəlif jurnal və qəzetlərdə, bədii əsərlərdə, mətbuat dilində bu söz gah ***boxça,*** gah da ***boğça*** şəklində yazılır. Bu söz orfoqrafya lüğətlərində (*bax: 6; 17; 18; 19; 34;*) də ***boğça*** formasında verilmişdir. Söz ədəbi tələfüz qaydalarına müvafq olaraq ***boxça*** şəklində tələfüz olunur və ***boxça*** kimi yazılışı da yanlış olaraq burdan qaynaqlanır. Bədii əsərlərdə də sözün hər iki yazılış formasına təsadüf edilir. Məsələn, İ.Şıxlı yaradıcılığında həm ***boğça,*** həm də ***boxça*** variantları vardır: *...taxçada,* ***boxçada****, taxçada,* ***boxçada*****.(*İ.Şıxlı), Gəlin quşa dönüb çəmənə qonandan sonra yadına düşür ki, bıçaq taxçadakı* ***boxçadadır****. (İ.Şıxlı),Gəlinlərdən xəlvəy yaxtanları açır,* ***boxçaları*** *yır-yığış edirdi.(İ.Şıxlı).*

Qeyd edək ki, müasir Azərbaycan ədəbi dilində *"box"* hissəciyi ilə başlayan söz yoxdur. (bax: 17). ***Boğça*** leksik vahidi də ***boğmaq, bağlamaq*** feilləri əsasında yaranmış, ***-ça*** şəkilçisi vasitəsilə əşya məzmunu qazanmışdır. Ümumiyyətlə, ***-ça,-çə*** şəkilçisinin dilimizdəki funksiyası dilçilik ədəbiyyatlarında düzgün müəyyən edilməmişdir. Tədqiqatlarda ***–ça,-çə*** isimlərdən kiçiltmə mənalı söz əmələ gətirən şəkilçi kimi verilir. Müasir Azərbaycan dili kitabında (bax: 55) isə ***-ça,-çə*** formadüzəldici şəkilçi kimi verilir:" Lakin əslində sözdüzəldici şəkilçi hesab edilən həmin morfemlər*(-cıq,-cik,-cuq,-cük; cığaz,-ciyəz,-cuğaz,-cüyəz; -ça,-çə şəkilçiləri nəzərdə tutulur-İ.Ə)* formadüzəldici şəkilçidir. Çünki sözə əlavə olunan həmin şəkilçilər heç bir yeni lüğəti məna ifadə edən söz yaratmır, sadəcə olaraq qoşulduğu sözdə (ilk anlayış qalmaqla) oxşama-əzizləmə, bəzən də azaltma-kiçiltmə çalarlığı əmələ gətirir. Həmin şəkilçilər subyektiv münasibəti ifadə edir və sözdüzəldici şəkilçilərin heç bir

tələbinə cavab vermir”.(55.,84) Lakin ayrı-ayrı dil faktları göstərir ki, *-ça,-çə* şəkilçili bütün sözlər kiçiltmə məzmunu bildirmir, yaxud da kiçiltmə məzmunu ilə yanaşı əlavə semantik çalarlar ifadə edir. Məsələn, *-ça,-çə* şəkilçisi isimlərə qoşulduqda kiçiltmə, əşya, alət, vasitə, qab, yer *(kitabça, qazança, meydança, dəftərçə)* bildirdiyi kimi, sifətlərə qoşulduqda da kiçiltmə ilə bərabər, kinayə, iztehza*(yetimçə, əyrimçə),* əşya, alət, vasitə *(açıqça)* məzmununa malik olur. Feillərlə işləndikdə isə əşya, kiçiltmə *(boğça),* qismən də yer, məkan *(baxça)* bildirir. *–ça,-çə* şəkilçisinin *açıqça* və *döşəkçə* sözlərində yaratdığı semantika eyni deyildir.

Bu şəkilçi tarixən də morfoloji yolla söz yaradıcılığında iştirak etmişdir. Şəkilçi “Kitabi-Dədə Qorqud dastanları”nda həm *–ça,* həm də *-ca* formasında işlənmişdir: *Biŋ yerdə ipək xalıçası döşənmişdi.*(45., 24), *Biŋ yerdə ipək xalıcası döşənmişdi.(45., 119).* Bu fərqlilik güman ki, katib səhvləri nəticəsində əmələ gəlmişdir.

-cam. Sifət düzəldən qeyri-məhsuldar çəkilçidir. Cəm, cəm etmək sözlərinin mənasının daralması, şəkilçiləşməsi nəticəsində əmələ gəlmiş, əlamət, keyfyyət ifadə edir. Müasir dilimizdə *yığcam* sözündə rast gəlirik.

-a. İsimdən sifət düzəldən qeyri-məhsuldar şəkilçidir. *–a* şəkilçisi, Ərəb-fars mənşəli isim düzəldən (zamana, xaraba), Rus-avropa mənşəli sifət düzəldən (asemantik, anormal), adlardan feil düzəldən (qanamaq, boşamaq) ismin yönlük halını əmələ gətirən (kitaba, qatara), və milli mənşəli mürəkkəb isim düzələn iç şəkilçi ilə (partapart, basabas) və s. omonimlik keyfyyətinə malikdir.

Dilimizdə *“topa”* sözündə rast gəlinir. Qoşulduğu sözdə əlamət, qeyri-müəyyən kəmiyyət, tərz məfumu ya-

radır. İfadə etdiyi semantik çalar əsasən, mikro yaxud da makromətn daxilində məlum olur.***Topa*** sözü həm sifət, həm də zərf, həm də ki numerativ söz kimi işlənir. Məsələn: ***Topa*** *buludlar günəşin üzünü bizdən gizlədirdi; Bu hadisədən sonra, Allahyarın və Musa kişinin adamları üstümüzə* ***topa*** *(birlikdə, birgə mənasında- İ.Ə) gəlmişdilər; Çayın kənarındakı qocaman söyüdün kölgəsinə* ***bir topa*** *adam yığışmışdı.*

-a,-ə. Dilimizdəki azsaylı iç şəkilçilərdən olub, omonimlik keyfyyətinə malikdir. Təkrar olunan sözlərin ortasında işlənərək mürəkkəb isimlər düzəldir.Məsələn: *qaçaqaç, basabas,* içəiç, *baxabax və s.***–a** iç şəkilçisi təqlidi sözlərlə də işlənib əşya, proses bildirən quruluşca mürəkkəb isimlər əmələ gətirə bilir. Məsələn: ***pıçapıç, çırtaçırt, qırtaqırt, partapart*** və s.

-ha. Bu şəkilçi də dilimizdə qeyri-məhsuldar ***iç*** şəkilçi olub, mürəkəb isim əmələ gətirir. Təkrar olunan eyni feil köklərinə və təqlidi sözlərə artırılaraq əşya, proses, vasitə məzmunu ifadə edən mürəkkəb sözlər düzəldir. Məsələn: ***gəlhagəl, vurhavur, tuthatut, şırhaşır, pıqhapıq, pırhapır, gülhagül və s.***

-ba,-bə. Sifət düzəldən qeyri-məhsuldar iç şəkilçidir və omonimlik xüsusiyyəti daşıyır. Təkrar olunan sifətlərin daxilində işlənərək mürəkkəb sifətlər düzəldir. Məsələn: ***cağbacağ(maşın), düzbədüz(yol), cürbəcür(yemək) və s.*** *Hər şeyə göz qoyur, süfrədəki* ***cürbəcür*** *yeməklərdən mənim qabağıma düzürdü.(İ.Şıxlı).*

-q. Qeyri-məhsuldar omonim şəkilçidir. Sifətdən birgəlik, əlamət anlayışı ifadə edən söz düzəldir. Məsələn**:** ***ortaq (fkir)***

-sala. Müasir Azərbaycan dilində atributiv xarakterə malik *kar* sözündən *karsala* sözünü əmələ gətirir. Əsasən, əlamət, key f yyət, xüsusiyyət bildirir.

-kin. Bu omonim söz-şəkilçinin dilimizdə işlənmə tarixi qədim olsa da, qeyri-məhsuldarlığı ilə diqqət çəkir. İsimdən hal-vəziyət, əşya proses, əlamət bildirən leksik vahid əmələ gətirir. *–kin* şəkilçisi haqqında prof.Ə.Rəcəbli yazır: "Bu şəkilçi qədim türk yazısı abidələrinin dilində qeyri-məhsuldar işlənir, -lı,-li şəkilçisinə yaxın məna ifadə edir və isimlərə artırılb sifət əmələ gətirir. el(el)- elkin(Y 41) – elli". (36.,320). Müasir Azərbaycan dilində bu şəkilçi vasitəsilə çiskin sözü əmələ gəlmişdir.

Könlümün sazını dindi, a dünya,
Bu nə çiskindi, çəndi, a dünya...(V.Dumanoğlu)

-dir. Dilimizdə *dikdir* sözündə rast gəlirik. Yer, məkan məzmunu bildirir. Məsələn: *Dikdirə çıxdılar.(İ.Şıxlı), Ələddin səsə dönüb baxdı və gördü ki, Həsənağa dikdirdə dayanıb aşağı enmək istəmir.(İ.Şıxlı)*

-məz. Zərf düzəldən *–məz* şəkilçisi isim və sifət düzəldən *–maz,-məz* şəkilçisi ilə omonimlik təşkil edir. Dilimizdə bu şəkilçiyə *dinməz* sözündə rast gəlinir. Felə artırılıb hərəkətin tərzini bildirir**.** Məsələn: *Qız gözlərini yerdən ayırmadan dinməzcə onunla görüşdü.(İ.Şıxlı)*

-akı,-əki. Əsasən, adlara əlavə olunmaqla bu və ya digər bir hərəkətin vəziyyətini, tərzini, əlamətini bildirən sözlər düzəldir. Məsələn*: yanakı, çəpəki, ötəki, zorakı. O, qıçlarınının ikisini də bir tərəfə aşırıb çəpəki əyləşmişdi.(İ.Şıxlı)*

-aşı. Hərəkətin tərzini ifadə edən zərf əmələ gətirir. Məsələn: *yanaşı. Bir dəfə onlar qonaqlıqda yanaşı oturmuşdular.(İ.Şıxlı)*

-q. Zərfdən zərf düzəldən qeyri-məhsuldar şəkilçi olub, feildən isim, sifət, zərf əmələ gətirən *–q(-aq)* şəkilçisi ilə omonimlik təşkil edir. Artırıldığı sözdə tərz, vəziyyət çaları ifadə edir. Məsələn: *yanaşıq (oturmaq)*

-ən,-i. Dilimizdə -ən,-i şəkilçisi qəbul edən **təkrar, nisbət, təxmin, təqrib** sözləri də *təkrarən, nisbətən, təxminən, təqribən, təxmini və təqribi* şəklində düzəltmə kəmiyyət zərf kimi işlənə bilir. Məsələn: *Mən bu sözləri təxmini deyirəm. Anası bu sözləri Narınca təkrarən deməli oldu.(S.Rəhman) (51.,216).*

-pörtü. Bu şəkilçi müasir Azərbaycan dilində söz sonuna qoşulmaqla hərəkətin tərzini, vəziyyətini bildirən söz əmələ gətirir. Çox güman ki, *-pörtü* şəkilçisi dilin inkişafının hansısa bir mərhələsində müstəqil leksik mənaya malik söz kimi işlənmiş, zaman keçdikcə mənasının daralması, ilkin semantikasından uzaqlaşması, yaxud da şəkilçiləşməsi nəticəsində özünün leksik çalarından məhrum olmuşdur. Hazırda dilimizdə qeyri-məhsuldar şəkilçi kimi çıxış etməkdədir. Məsələn: *yanpörtü*

-inə. Bu şəkilçi adların sonuna artırılmaqla hərəkətin tərzini, əlamətini bildirən düzəltmə zərfər əmələ gətirir. Məsələn: *tərsinə, çəpinə, eninə, əksinə, əvəzinə, ziddinə, dikinə və s.*

Mən bulağam gözüm dolu,
Mən bulağam coşqun sulu,
Mən insanam, ömür yolu-
Düzünədi, tərsinədi.

(V.Dumanoğlu)

Qeyd: Bu şəkilçi əslində quruluşca mürəkkəb olub, III şəxsin təkinin mənsubiyyət şəkilçisi və yönlük hal şəkilçisinin birləşməsindən əmələ gəlmişdir, sözdəyişdirici şəkilçinin sözdüzəldici şəkilçiyə çevrilməsi əsasında ya-

ranmışdır. *–inə* şəkilçili sözlər ilk vaxtlar özündən əvvəl işlənən, yaxud da silsilə təşkil edən cümlələrin, mikro və makromətnlərin ümumi məzmunu ilə bağlı olmuş, təkrara yol verməmək üçün onların yerində işlənmiş, bir növ özündən sonra gələn cümlələr arasında əlaqələndirici, bağlayıcı vasitə olmuşdur. Lakin dilin inkişafı ilə əlaqədar olaraq bu şəkilçi tədricən öz funksiyasını dəyişmiş, sözdüzəldicilik keyfyyəti qazanmışdır. Şəkilçinin orta əsrlərə aid bədii mətnlərdə işlənməsi onun dilimizdə formalaşma tarixinin daha qədim olduğunu göstərir. Məsələn:

Mən aşiq tərsinə qoy
Tər təni tərsinə qoy.
Yaxşını qibləsinə,
Aşığı tərsinə qoy.

(Sarı Aşıq)

-yana. Adlardan tərzini bildirən zərfər düzəldir. Məsələn: *qardaşyana, şadyana, dostyana, saymazyana* və s. *Telefonda qəzafrqə özək katibinin şadyana səsi eşidildi. (İ.Şıxlı)*

-anə,-yanə. Ad bildirən sözlərə qoşulmaqla tərz çaları yaradır. Məsələn: *dahiyanə, şahanə, mərdanə, şairanə və s.*

-am. Olduqca qeyri-məhsuldar zərf düzəldən şəkilçidir. *Tam* sözünə artırılaraq *tamam* zərfni düzəltmişdir. Bəzi dilçilik ədəbiyyatlarında *tamam* sözü quruluşca sadə hesab olunur.(bax:48) Bizcə, bu fikirlə razılaşmaq olmaz. Çünki, *tamam* sözünün kökünü *"dad"* sözünün sinonimi olan *tam* deyil, *bütün* sözünün sinonimi olan *"tam"* təşkil edir. *Tamam* sözünün *tam* sözündən yaranmasını onlar arasında-

kı semantik bağlılıq da sübut edir. Məsələn: *Amma bir az yaxından tanış olanda tamam əksini görürsən. (İ.Şıxlı).*

-əri. Həm sifət, həm də zərf düzəldir. Adların və bəzi feillərin sonuna qoşulmaqla, əlamət, keyfyyət, tərz məzmunu yaradır. Dilimizdə bir neçə sözdə rast gəlinir. Məsələn: *içəri, köçəri, ötəri və s. Ömər koxa üzə salmasa da, içəridən qovrulurdu.(İ.Şıxlı), Ömər koxa eyvanda hərlənən oğlunu içəri çağırdı.(İ.Şıxlı),Teymur isə mənimlə ötəri salamlaşıb qabaqda əyləşdi.(İ.Şıxlı). Bir mətləbə toxunmaram ötəri; Tilsimdimi ürəyimin təpəri?! (V.Dumanoğlu)*

-da. Sözdəyişdirici (qrammatik) şəkilçinin sözdüzəldici (leksik) şəkilçiyə çevrilməsi yolu ilə yaranmışdır. Dilimizdə qədim dövrlərdən formalaşmış bu şəkilçi hazırda söz yaradıcılığında fəal iştirak edir. Zərf düzəldən digər qeyri-məhsuldar şəkilçilərlə müqayisədə *-da,-də* nisbətən məhsuldarlığı ilə seçilir. Məsələn: *onda, payızda, yazda, kənddə, qışda və s. Qoşulduğu sözlərdə yer, məkan, zaman çaları yaradır. -da şəkilçisi vasitəsilə əmələ gələn onda sözü modal sözə keçid prosesini yaşayır.*

-dan,-dən. Bu şəkilçi də qrammatik-leksik şəkilçilər qrupuna aid olub, əlavə olunduğu leksik vahidlərdə hərəkət, tərz, səbəb, məqsəd, zaman çaları yaradır. Məsələn: *bərkdən, qəfldən, ucadan, qorxudan,yavaşdan, astadan, əvvəlcədən, qabaqcadan, birdən, ürəkdən. alçaqdan və s.*

-ən. Qeyri-məhsuldarlığı ilə seçilən bu omonim şəkilçi əsasən, tərz anlayışını ifadə edən yeni sözlər düzəldir. Məsələn: *ruhən, mənən, qəsdən, qəlbən və s.*

-lıq,-lik,-luq,-lük. Şəkilçi dilimizdə omonimlik xüsusiyyətinə malikdir. İsim və sifət düzəldən sözdüzəldici şəkilçi kimi, məhsuldarlığı ilə seçilir. Məsələn: *atalıq, şişlik,*

gözəllik, yaxşılıq, onluq, donluq, güllük, beşlik, mənlik, yaylıq, payızlıq, çəmənlik, bolluq, dostluq, pislik və s.

Göründüyü kimi, *-lıq,-lik,-luq,-lük* məhsuldar şəkilçi olaraq isim, sifət, say, əvəzlik, feil qrupuna aid leksik vahidlərə artırılmaqla əşya, şəxs, alət, vasitə, proses, əlamət və keyfyyət anlayışlarını ifadə edən yeni-yeni sözlər əmələ gətirərək, söz yaradıcılığı prosesində mühüm əhəmiyyət kəsb edir. Lakin bu şəkilçi zərf düzəldən şəkilçi kimi qeyri-məhsuldardır və cəmi bir neçə sözdə rast gəlinir. Məsələn: *həmişəlik(getmək), birdəfəlik(köçmək)* və *s.* Qeyd edək ki müasir Azərbaycan dilində bu şəkilçinin *–ca,-cə;-dan,-dən;-da,-də;-la,-lə* omonim şəkilçiləri ilə sintezi əsasında quruluşca mürəkkəb şəkilçilər yaranır**:** *təzəlikcə, təzəlikdə, təzəliklə, indiliklə, hamılıqla, birlikdə, bütünlüklə, sağlıqla* və s. Mürəkkəb struktura malik bu şəkilçiləri bəzi sözlərdə tərkibcə ayırmaq mümkün olduğu halda, bəzilərində olmur. Daha çox zaman mənalı mə f umlara artırılıb, tərz, zaman, səbəb məzmunu yaradır.

-in,-ın-n. Şəkilçi qeyri-məhsuldar olsa da, ana dilimizin yarandığı ilkin dövrlərdən bu günümüzə kimi öz işləkliyini qorumaqdadır. “Kitabi-Dədə Qorqud dastanları”nın dilində də *-in,-n* şəkilçisi vasitəsilə düzəlmiş leksik vahidlərə rast gəlmək mümkündür. “Dastan” dilində *-in,-ın* şəkilçisi vasitəsilə əmələ gəlmiş həm tərz, həm də zaman bildirən sözlər-zərfər işlənmişdir: *Qanturalınıŋ atını **için** tutdı,geydirdi. Kəndü dəxi **için** tutdı, geyindi... İçin qara donlı, gög dəmirlü altı yüz kafr seçdi...Bir **yazın**, bir **güzin** buğayla buğrayı savaşdırarlardı...*

Bu şəkilçi dialekt və şivələrimizdə də, zəif də olsa işlənməkdədir. Qərb qrupu dialekt və şivələrində şəkilçiyə ***“dalın-dalın”*** leksik vahidinin tərkibində rast gəlinir.

Müasir Azərbaycan dilində isə, əsasən *için, oğrun,* oğrun-oğrun, için-için və s. kimi sözlərin tərkibində işlənir. Məsələn: *Heç kəsə sezdirmədən, sakitcə, için-için ağladı, göz yaşlarını sinəsinə axıtdı. (İ.Şıxlı); Bundan sonra vaqondakılar-Alqazax və Çıraq uşağının adamları körpənin üstündə için-için ağlaşdılar.(İ.Şıxlı), Zeynəb yol uzunu oğrun-oğrun onu sözdü. (İ.Şıxlı).*

-cək. Bu şəkilçi müasir Azərbaycan dilində isim*(tüpürcək, əmcək,* bürüncək, yelləncək), sifət(*utancaq*), feli bağlama(*görcək, baxcaq, gülcək*) və zərf düzəldən şəkilçi kimi, omonimlik key f yyətinə malikdir. Hər üç halda qeyri-məhsuldar şəkilçi kimi çıxış edir. *–cək* şəkilçisi *sevin(mək)* sözünə əlavə olunmaqla tərz məzmunu ifadə edən *sevincək* zər f ni düzəldir. **–cək** şəkilçisi tarixən də zərf düzəldən şəkilçi kimi işlənmiş, yeni sözlər əmələ gətirmişdir:

Anın kibi olursa yorurun tez,
Bənə tezcək gəlin, xəbər verün tez.

("Dastani-Əhməd Hərami")

-ı. Sifətdən zaman mənalı zərf əmələ gətirən qeyri-məhsuldar və omonim şəkilçidir. Şəkilçi dilimizdə işlənən *"uzağı"* sözünün tərkibində işlənir. Məsələn: *Allahqulu gör nə deyir? Deyir uzağı sabah Veys anasını Sona üçün elçi göndərər.(Ə.Əbülhəsən) (11.,412)*

-ik,-ıq. Dördvariantlı *–ıq* və iki variantlı *–aq* şəkilçiləri ilə bir mənbədən olub, omonimlik təşkil edir. Zərf düzəldən şəkilçi kimi qeyri-məhsuldardır. Məsələn: *tələsik, artıq* və s.

Tələsik uzunboğaz xrom çəkmələrini geyindi, naqanı şalvarının cibinə qoyub gərnəşdi.(İ.Şıxlı), Eyvanda söhbət edən Zeynəb tələsik aşağı enib məntəqəyə tərəf qaçdı.(İ.Şıxlı)

Artıq zərf hazırda modal sözə və ədata keçid mərhələsindədir. Məsələn: *Artıq gecikmək olmazdı.(İ.Şıxlı)*

-alı. Bu şəkilçi zaman mənalı –alı,-əli feli bağlama şəkilçisi ilə omonimlik təşkil edir və felin sonuna əlavə olunmaqla tərzi-hərəkət zərf əmələ gətirir. Məsələn: *uzanalı (qalmaq). Uzan(maq)* feli də *"uz"* sözü əsasında yaranmış, tarixən müstəqil söz *(uz)* kimi işlənmişdir. *Uzan(maq)* felinin tarixi kökü olan *"uz"* "Kitabi-Dədə Qorqud dastanları"nın dilində öz ilkin mənasında işlənmişdir. Məsələn: *Hasar qapusına girmişkən qara polat* **uz** *qılıca əŋsəsinə eylə çaldı kim, başı tob kimi yerə düşdi... Qara polad* **uz** *qılıclar kəsən qılını kəsdirmədi. və s.*

-lı. Bu şəkilçi isim və sifət düzəldən dördvariantlı *–lı* şəkilçisi ilə omonimlik keyfyyətinə malikdir. Qoşulduğu sözdə tərz, hərəkətin əlaməti çaları yaradır. Dilimizdə *uzanıqlı, oturaqlı* kimi sözlərin tərkibində işlənmişdir. *–lı* şəkilçisi qəbul etmiş sözlər bəzən şəraitdə, *halda, tərzdə, vəziyyətdə* sözləri ilə işlənə bilir. Belə halda *–lı* şəkilçisi işlənə də bilər, işlənməyə də.

Müqayisə edin:

1. Xizəkdən yıxılan uşaq qarın üstündə uzanıqlı qalmışdı.
2. Xizəkdən yıxılan uşaq qarın üstündə uzanıq vəziyyətdə qalmışdı.

-ilə,-la,-lə. Daha çox hərəkətin tərzini bildirən sözlər düzəldir. Bu şəkilçi də omonimdir. Dilimizdə həm say, feil, zərf düzəldən şəkilçi kimi, həm də bağlayıcı və qoşma kimi işlənir. *–la,-lə* məhsuldar şəkilçidir, əsasən, mücərrəd mənalı isimlərdən düzəltmə tərz zərfəri əmələ gətirir. Məsələn: *təəccüblə, nifrətlə, həyəcanla, rəsmiyyətlə, incəliklə, dostluqla, xoşluqla, yaxşılıqla* və s. Lakin *–ilə* şəkil-

çisi zərf düzəldən şəkilçi kimi qeyri-məhsuldar olub, cəmi bir neçə sözdə rast gəlinir. Məsələn**:** *tamamilə, vasitəsilə, vaxtilə və s.*

-ba,-bə. Bu şəkilçi milli mənşəli olub, mürəkkəb zərf ərin yaranmasında iştirak edir. İç şəkilçi kimi qeyri-məhsuldardır. Qoşulduğu sözdə daha çox tərz, zaman çaları yaradır. Məsələn: *taybatay, qarabaqara, yarıbayarı, anbaan, yanbayan, dalbadal, günbəgün, üzbəüz, saatbasaat və s.* Nəsib dayı *dalbadal papiros çəkirdi.(İ.Şıxlı), Evdə hamı yatandan sonra kitab oxumaq bəhanəsi ilə stolun dalına keçir, onunla* üzbəüz *otururdum.(İ.Şıxlı)*

Bu tip sözlər M.Ə.Sabir yaradıcılığında da işlənmişdir:

Onda görürsən yıxılıb yanbayan
Bir neçə növrəstə cəvan laybalay!
Tuf belə dövranə ki, bədtər olur
Seyri-fələk, dövri-zəman ilbəil!

1.2. ƏRƏB- FARS MƏNŞƏLİ AD DÜZƏLDƏN QEYRİ-MƏHSULDAR ŞƏKİLÇİLƏR

Bu qrupa daxil olan şəkilçilərin dilimizdə işlənmə tarixi qədimdir. Ərəb-fars mənşəli ad düzəldən qeyri-məhsuldar şəkilçilər həm milli mənşəli, həm də alınma mənşəli sözlərə qoşularaq yeni mənalı sözlər əmələ gətitir. Bu şəkilçilərin iştirakı vasitəsilə yaranmış yeni sözlərin sırasında kəmiyyət etibarı ilə daha çox isim və sifətlər üstünlük təşkil edir.

Ərəb-fars mənşəli ad düzəldən qeyri-məhsuldar şəkilçilərin çoxu mənsub olduğu dildə müstəqil leksik mənaya malik olduğu halda, dilimizdə şəkilçi kimi çıxış edir . Bu qrup şəkilçilər əsasən aşağıdakılardan ibarətdir:

-stan. Bu şəkilçi fars mənşəli olub, müasir Azərbaycan dilində əsasən, yer, məkan, ölkə anlayışını ifadə edən yeni sözlər əmələ gətirir. Qədim və orta dövr Azərbaycan ədəbiyyatına aid ədəbi nümunələrdə də *-stan* şəkilçisinə rast gəlmək mümkündür. Məsələn: *Türküstan, Gürcüstan, Özbəkistan, qəbirstan, gülüstan, Monqolustan və s.* Dilimizin fonetik qaydalarına əsasən, sonu samitlə bitən sözlərdə bu şəkilçi qapalı saitlərlə birgə işlənir.

-xana. Dilimizə fars dilindən keçmiş bu şəkilçi azərbaycanca *"ev"* mənası verir. Mənbə dildə müstəqil söz kimi işləndiyi halda, müasir Azərbaycan dilində sözdüzəldici şəkilçi kimi çıxış edib, söz kökündəki əşyanın yerini, məkanını bildirən isimlər düzəldir. Nisbətən məhsuldarlığı ilə seçilir. Məsələn*: yeməkxana, toyxana, yasxana, kitabxana, pivəxana, qumarxana, çayxana, qiraətxana, xarabaxana və s.*

Qeyd edək ki, *-xana* söz-şəkilçisi ilə ilə yaranan bir sıra sözlərdə şəkilçini azərbaycanca qarşılığı olan *"ev"* sözü ilə

əvəz etmək mümkündür. Məsələn: *çayxana-çay evi, yeməkxana- yemək evi, kitabxana-kitab evi və s.* Lakin bu xüsusiyyəti *–xana* söz-şəkilçisi ilə yaranmış bütün sözlərə aid etmək olmaz, istisnalar da vardır. Məsələn**,** *qazanxana, motorxana* kimi sözləri müvafq olaraq *qazan evi, motor evi* formasında işlətsək, semantik fərq yaranar.

-şünas. Farsca *"şenaxtən"* məsdərindən yaranmışdır. Azərbaycan dilində adlardan isim düzəldən məhsuldar *–çı,-çi,-çu,-çü* şəkilçisinin qrammatik sinonimi olan –şünas leksik şəkilçisi həm ərəb, həm fars, həm də ki, Azərbaycan mənşəli sözlərin sonuna artırılıb, əsasən, elm, peşə, sənət, ixtisas, şəxs bildirən yeni sözlər əmələ gətirir. Məsələn: *musiqişünas, şərqşünas, təbiətşünas, ədəbiyyatşünas, coğrafyaşünas, dilşünas, elmşünas, kitabşünas, torpaqşünas və s.*

-zadə. Mənbə dildə **"oğul", "uşaq", "doğulmuş"** mənalarında işlənir. Müasir dilimizdə isə soyaddüzəldən əsas şəkilçi kimi, isimlərdən antroponimlərin yaranmasında mühüm rol oynayır. Məsələn: *Əsgərzadə, Əsədzadə, Axundzadə, Məmmədzadə, Əlizadə, Vahabzadə, Qarazadə, Abdullazadə, Talıbzadə, Vəlizadə.*

-zad. Ərəb-fars mənşəli şəkilçilər qrupuna aid olan qeyri- məhsuldar söz-şəkilçidir. Bu şəkilçinin dilimizdəki *"şey"* sözünün ərəbcə qarşılığı olan *"zad"* sözü ilə heç bir əlaqəsi yoxdur. *–zad* şəkilçisi *"zadə"* sözündəki *ə* saitinin düşməsi nəticəsində yaranmış və insan, şəxs, əşya bildirən sözlər düzəldir. Məsələn: *Pərizad, Şirzad və s.*

-deh. Olduqca qeyri-məhsuldar şəkilçidir. *Cavab* sözünə artırılaraq məsulliyyətlilik, əlamət, keyfyyətlilik bildirən *cavabdeh* sifətini əmələ gətirir.

-avər,-əvər. Fars mənşəli qeyri-məhsuldar şəkilçi olub, *"avərdən"* sözündən əmələ gəlmişdir. Dilimizdə *gətirmək* mənasını verir. Həm Ərəb-fars mənşəli, həm də milli mənşəli sözlərə qoşularaq əlamət, keyfyyət, əşya, şəxs anlayışı yaradır. Məsələn: *bəxtəvər, ziyanəvər, cəngavər, dilavər və s.*

-şən. Fars mənşəli qeyri-məhsuldar şəkilçi olub, *-stan,-zar,-xana,-gah,-lıq,-liq,-luq,-lük* şəkilçilərinin sinonim qarşılığını təşkil edir. *Gül* sözünə qoşulub, yer, məkan bildirən *gülşən* sözünü düzəldir.

-zar. Fars mənşəli qeyri-məhsuldar şəkilçi olub, yer, məkan anlayışlarını bildirən məfumlar düzəldən *–şən; -lıq,-liq,-luq,-lük;-stan* kimi sözdüzəldici şəkilçilərin sinonimi olan *–zar* şəkilçisinin işlənmə dairəsi məhduddur. Dilimizdə bir neçə sözdə təsadüf olunur. Məsələn: *çəmənzar, laləzar, gülzar.*

Prof. H.Mirzəzadə *-zar* şəkilçisi ilə yaranan sözlərin azlığını əsas gətirərək yazır: " Tərkibində -zar şəkilçisi olan sözləri sadə isimlər kimi qəbul etmək daha münasibdir. Çünki –zar şəkilçisinin tarixi inkişafı da göstərir ki, bunda heç bir şəkilçilik xüsusiyyəti qalmamışdır, hətta sözlərin məhdudluğu da bunu sübut edir".(39.,111) Təbii ki, bu fkirlə razılaşmaq olmaz. Çünki dilimizdə az və ya qeyri-məhsuldarlığı ilə seçilən onlarla belə şəkilçi mövcuddur. Məsələn: *qol+tuq, qol+çaq, çirk+in, tam+arzı, cavab+deh, göl+məc, ot+ux(maq), yel+pik, qan+çır.*

Gül və gülzar, lalə və laləzar, yel və yelpik, bağ və bağban və bu kimi sözlər mənaca bir-birinə yaxın olsalar da, eyniyyət təşkil etmirlər, bir-birinin ekvivalenti deyillər, eyni semantik çalar daşımırlar.

-keş. Fars mənşəli şəkilçilər qrupuna aiddir. Mənbə dildə əsas morfem kimi işləndiyi halda, müasir Azərbaycan dilində budaq morfem kimi çıxış edir. Qoşulduğu sözdə əsasən, hal-vəziyyət, əşya, alət, insan, şəxs, meyil anlayışları yaradır. Məsələn: ***zəhmətkeş, dəmkeş, qəmkeş, xətkeş, bəlakeş, cəfakeş, azarkeş, sərinkeş*** və s.

-ban. *–çıvan* və *-çı,-çi,çu,-çü* şəkilçilərinin sinonimi olub, dilimizdə peşə, sənət, əşya, şəxs anlayışları ifadə edən sözlər düzəldir. Məsələn: çıraqban, ***bağban, nigahban*** və s.

Fars mənşəli olan *–ban* şəkilçisi qeyri-məhsuldar olsa da, həm tarixi, həm də təsviri qrammatikada morfoloji yolla sözyaratma prosesində iştirak edir. Şəkilçiyə "Dastani-Əhməd Hərami"nin dilində də rast gəlinir:

*Buluşdu **bağban** ilə görüşdü*
Biri birisinin halın soruşdu.

Hazırda dilimizdə ***bağban*** sözünün tərkibində işlənsə də, XX əsrin birinci yarısında əsasən daha işlək olmuşdur. A.Səhhət yaradıcılığında əlavə olaraq ***flban və nigahban*** sözlərinin tərkibində işlənmişdir:

1 *Xalqa göstərməyə **fli flban**,*
Küçədə gəzdirir idi hər yan...

2. *Sanma ki, bir ləhzə keşikçim yatır.*
*Fikri qalıb məndə **nigahbanın**.*

-əsər. Ərəb-fars mənşəli şəkilçi olub, dilimizdə qeyri-məhsuldar şəkilçi funksiyasında çıxış edir. Məsələn: ***dəngəsər**; Eyləməyin **dəngəsər**, oxutmuram, əl çəkin.(M.Ə.Sabir)*

-bəsər. Bu şəkiçi də qeyri-məhsuldar şəkilçi olub, qoşulduğu sözdə əlamət, xüsusiyyət, əşya çaları yaradır. Şəkilçiyə dilimizdəki *"gicbeyin"* sözünün sinonimi olan *"gicbəsər"* sözündə rast gəlinir.

-mə. "Ərəb mənşəli bu şəkilçi ön şəkilçi olub, adlardan ad düzəldən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *mədaxil, məxaric və s.*" .(7..,23).

-ənin. Fars mənşəli olub, müasir Azərbaycan dilində qeyri-məhsuldar şəkilçi qismində çıxış edir. Qoşulduğu sözdə təxminən dilimizdə sifət düzəldən dördvariantlı *–li* şəkilçisinin semantikasını yaradır. Fars mənşəli *"naz"* sözündən *"nazənin"* sözünü əmələ gətirir.

-ə. Bu şəkilçi Ərəb-fars mənşəli şəkilçilər qrupuna aid olub, omonimlik keyfyyətinə malikdir. Müasir Azərbaycan dilində ön şəkilçi kimi çıxış edir və əksilik, ziddiyyət bildirir. Məsələn: *lehinə-əlehinə*

-kar. Mənbə dildə müstəqil söz kimi *"iş"* anlayışını bildirir. Azərbaycan dilində isə müvafq ad bildirən sözlərin sonuna artırılaraq peşə, sənət, insan, şəxs, əlamət, keyfyyət, xüsusiyyət bildirən yeni sözlər əmələ gətirir. Məsələn: *sənətkar, peşəkar, davakar, ftnəkar, təcavüzkar, xatakar, tamahkar, tələbkar, təmizkar, ziyankar və s*

-pərəst. Fars dilində müstəqil söz kimi işlənir. *"Pərstidən"* məsdəri əsasında əmələ gəlmiş, *"bərk sevmək"* mənasını verir. Daha çox şəxslə bağlı əlamət, keyfyyət, xüsusiyyət ifadə edən düzəltmə sifətlər əmələ gətirir. Məsələn: *şöhrətpərəst, qonaqpərəst, xaçpərəst, xəyalpərəst, millətpərəst, pulpərəst və s.*

-dar,-ədar. Mənbə dildə **"daştən"** sözündən yaranmış bu şəkilçi fars, ərəb və Azərbaycan sözlərinə qoşularaq

düzəltmə isim və sifətlər əmələ gətirir. Bəzi məqamlarda milli mənşəli *–çı,-çi,-çu,-çü* şəkilçisinin ekvivalenti kimi çıxış edir. Məsələn: ***dindar, əməkdar, vəfadar, xəbərdar, cindar, xəzinədar və s.*** Daha çox peşə, sənət, ixtisas anlayışları yaradır. Məsələn: *Elə həmin axşam Kosaoğlu qonağı prokuror Əsədovu yedirib içirəndən sonra* ***hesabdarla anbardar*** *Musanı yanına çağırdı...* ***Hesabdar*** *qorxa-qorxa qapıya yaxınlaşdı.(İ. Şıxlı)* ***-ədar*** şəkilçisinə isə dilimizdə ***mülkədar*** sözündə rast gəlirik.

-bər. Ərəb-fars mənşəli şəkilçi olub, adlara qoşulmaqla ad düzəldir. Mənbə dildə müstəqil leksik mənaya malik olsa da, dilimizdə qeyri-məhsuldar şəkilçi kimi çıxış edir. Məsələn: ***səfərbər, dilbər və s.***

-əng. Fars mənşəldir, məhdud sayda söz düzəldir. Dilimizdə ***turşəng, turpəng*** kimi sözlərdə rast gəlirik. Tədricən işləkliyini itirməkdədir.

-gir. Bu şəkilçi də fars mənşəli qeyri-məhsuldar şəkilçilər qrupuna daxildir. Bəzi dilçilik ədəbiyyatlarında *–gir* şəkilçisi müstəqil şəkilçi hesab olunmur.(bax:39)

Əsasən, Ərəb-fars mənşəli sözlərin sonuna artırılaraq insan, şəxs, əşya,meyil, həvəs, əlamət, key f yyət məzmunu bildirən isim və sifətlər düzəldir. Məsələn: ***fəndgir, pulgir, dünyagir, kəfgir, cahangir*** və s. ***Cibgir*** *özünsən.(İ.Şıxlı),O tələsmədi, qazanların yanında hərləndi, pıqqıldayıb qaynayan bəhməzə baxdı,* ***kəfgirlə*** *qarışdırdı.(İ.Şıxlı).* Dilimizdə *-gir* şəkilçisinin *–agir* forması da işlənmişdir. M.İbrahimovun "Gələcək gün" romanında *"pulagir"* şəkilində işlənmişdir: *Onunla söhbətindən* ***pulagir*** *olduğunu anlamışdı.*

-vat. Dilimizə fars dilindən daxil olmuşdur. ***Xırdavat, səbzəvat*** kimi sözlərin tərkibində işlənir. *–vat* şəkilçisi is-

tisna hallarda *–lıq* şəkilçisi ilə birgə işlənib sənət, peşə, şəxs bildirir. Məsələn: *taksivatlıq.*

-xar. Şəkilçi kimi statik səciyyə daşıyır. Dilimizdəki *qəmxar* sözü bu şəkilçi vasitəsilə yaranıb.

-ah. Mənbə dildən fərqli olaraq dilimizdə qeyri-məhsuldar şəkilçi olub, isimdən mücərrəd mənalı isim əmələ gətirir. Məsələn: *tamah.*

-dan. Fars mənşəli *–dan* şəkilçisi ismin çıxışlıq hal və zərf düzəldən *–dan* şəkilçisi ilə omonimlik keyfyyətinə malikdir. Müasir Azərbaycan dilində əşya, qab-qacaq, alət məzmunu ifadə edən yeni sözlər əmələ gətirir. Məsələn: *güldan, şamdan, nəməkdan, çaydan, qələmdan, qənddan və s.* Nisbətən məhsuldarlığı ilə seçilən şəkilçilərdən biridir.

-iyyə. Ərəb mənşəli şəkilçi olub, müasir dilimizdə şəxs, əşya, ad, titul, fərziyyə, nəzəriyyə, təriqət, cərəyan, yer, məkan mə f umlarını ifadə edən düzəltmə sözlər əmələ gətirir. Məsələn: *Ülviyyə, fərziyyə, Rəsmiyyə, Şəmsiyyə, Əhmədiyyə, Səfəviyyə, İskəndəriyyə və s.*

-iyyat, -iyyət. Bu şəkilçi də nisbətən məhsuldarlığı ilə seçilən ərəb mənşəli şəkilçilər qrupuna aiddir. Dilimizdə elm, təhsil, proses, hal, əhval, səmimiyyət, nəzəriyyə, istiqamət, ictimai məzmun daşıyan düzəltmə sözlər yaradır. Məsələn. *ədəbiyyat, ülviyyət, rəsmiyyət, riyaziyyat, hakimiyyət, qabiliyyət, qalibiyyət, məğlubiyyət, külliyat, mənəviyyat, mədəniyyət, əbədiyyət, şəxsiyyət, fəaliyyət, aidiyyat, səmimiyyət, şirniyyat və s.*

Nümunələrdən də göründüyü kimi, şəkilçi daha çox Ərəb-fars mənşəli söz köklərinə artırılır.

-xor. Farsca *yemək* mənasını bildirən *"xorden"* sözündən olub, mənsub olduğu dildə leksik vahid kimi işlənən bu şə-

kilçi Ərəb-fars və Azərbaycan dili sözlərinə qoşularaq yeni söz düzəldir. Məsələn: *rüşvətxor, müftəxor, çayxor.(7.,18), nəşəxor, ziyanxor və s.*

-fəşan. Bu söz dilimizə fars dilindən keçibdir. Mənbə dildə müstəqil söz kimi işləndiyi halda müasir Azərbaycan dilində qeyri-məhsuldar şəkilçi kimi çıxış edir. *–fəşan* azərbaycanca *"səpən", "səpələyən", "saçan"* mənalarını verir. Şəkilçiyə dilimizdəki *"atəşfəşan"* və *"canfəşan"* kimi sözlərdə rast gəlinir. Həm söz kökü, həm də şəkilçi fars mənşəlidir. *(bax: 46.,22; 46.,80 ; 46.,197; 8.,159).*

-ani. Ərəb mənşəli qeyri-məhsuldar şəkilçi olub, isimdən sifət əmələ gətirir. *–ani* şəkilçisinə müasir Azərbaycan ədəbi dilində işlənən *"cismani"* sözündə rast gəlinir.

-tani. Bu şəkilçi də Ərəb mənşəli olub, dilimizdə qeyri-məhsuldar şəkilçi qismində çıxış edir. Əsasən, *"hamı, hamısı, nəticə, yekun ümumi, cəmi"* məzmununu ifadə edir. Məsələn: **cümlətani;** *Cümlətani on beş kişi idi: hamısı əsgər geyimli, dəri papaqlı idi.(Y.V.Çəmənzəminli), Cümlətani eləyir iki manat on dörd şahı üç qəpik.(Ə.Haqverdiyev) və s.*

Həm sözün kökü, həm də şəkilçi XIX-XX əsrə aid bədii mətnlərdə daha çox işlənmişdir. Müasir dilimizdə isə əsasən, *"cəmi-cümlətani"* şəklində işlənməkdə və sabitləşməkdədir.

-xah. Ərəb-fars mənşəli şəkilçi olub, dilimizdə bir neçə sözdə təsadüf olunur. Bəzi dilçilik ədəbiyyatlarında–xah şəkilçisi ilə əmələ gələn sözlər düzəltmə hesab olunmur. (bax:39) Məsələn: *bədxah(insan), xeyirxah(müəllim), azadxah(quruluş), üzrxah və s. –xah* şəkilçisi daha çox adların sonuna qoşulmaqla yeni mənalı sözlər əmələ gətirir. Məsələn: *Gəlsənə xeyirxah bir iş görək?!(İ.Şıxlı).*

-bin. Fars mənşəli olub, dilimizdə *kəcbin, xudbin, bədbin* kimi sözlərdə rast gəlinir.

-iş. Fars mənşəli qeyri-məhsuldar söz-şəkilçi olub, ad və feil düzəldən milli mənşəli *–iş* şəkilçisi ilə omonimlik təşkil edir. *–iş* şəkilçisi əsasən tərkib daxilində işlənən və fars mənşəli *"bəxş"* sözünə əlavə olunmaqla, əşya,alət, vasitə, hədiyyə çalarını ifadə edən *"bəxşiş"* ismini əmələ gətirir.

-gah. Fars mənşəli olub, *–şən; -lıq,-liq,-luq,-lük;-stan;-zar* kimi şəkilçilərlə sinonimlik təşkil edir. Əsasən, söz köklərinə qoşulub, yer, məkan, əşya anlayışı ifadə edən sözlər düzəldir. Azərbaycan dilinin tarixi və təsviri qrammatikasının müqayisəli öyrənilməsi *–gah* şəkilçisinin qədim tarixi köklərə malik olduğunu deməyə əsas verir. Elmşünaslıqda dilçilər *–gah* şəkilçisi haqqında maraqlı mülahizələr söyləmişlər. Məsələn, H.Mirzəzadə şəkilçi haqda yazır: *"-gah şəkilçisi dilimizdə tarixən zəifəməyə doğru inkişaf etmişdir. XIX əsrə nisbətən, XX əsrin əvvəllərindən etibarən daha da passivləşmişdir. Müasir dilimizdə özünü qərargah sözündə saxlamaqdadır".(39.,114)* H.Mirzəzadənin bu fkri ilə razılaşmaq çətindir. Çünki müasir dilimizdə *-gah* şəkilçisi ilə düzələn *"qərargah"* sözü ilə bərabər, *seyrangah, atəşgah, qibləgah, səcdəgah, çəməngah, gorgah, nişangah, mənzilgah, pənahgah, ziyarətgah, ordugah* kimi onlarla yeni söz yaranmışdır.

-pəsənd. Dilimizdə *xudpəsənd, avampəsənd* kimi sözlərin tərkibində işlənərək mənflik, əlamət, keyfyyət bildirir.

-saz. Farsca *"saxtən"* felinin əsası olub, azərbacanca *"düzəldən", "təmir edən", "yaradan"* mənasını ifadə edir. Müasir Azərbaycan dilində qeyri-məhsuldar söz-şəkilçi kimi, əsasən, ad bildirən sözlərə artırılıb atributiv mənalı

yeni sözlər düzəldir. Məsələn: *saatsaz, rəngsaz, aynasaz* və s.

-gər. Ərəb-fars mənşəli qeyri-məhsuldar şəkilçi olub, müasir dilimizdə sənət, peşə, əlamət, keyfyyət, mənflik anlayışlarını yaradan yeni məfumlar əmələ gətirir. Məsələn: *cadugər, misgər, kimyagər, hiyləgər, zərgər* və s.

-gor. Sifətdən ad düzəldən fars mənşəli qeyri-məhsuldar şəkilçidir Məsələn: *avaragor*

-abad. Ərəb-fars mənşəli **əbəd, abad, abadan, abadə** sözlər ilə kökdaş olub, *"sonsuz zaman, həmişəlik olan, əbədilik, abad olan yer, əhali məskunlaşan yer, tikinti olan yer"* mənalarını ifadə edir. Müasir Azərbaycan dilində ***-abad*** həm müstəqil leksik mənaya malik söz kimi , həm də şəkilçi kimi çıxış edir. Şəkilçi kimi isimlərin sonuna qoşularaq yer, məkan, yaşayış, ərazi bildirən leksik vahidlər- toponimlər əmələ gətirir. Məsələn: *Əliabad, Cəlilabad, Sabirabad, Şəkərabad, Abdullabad, Müşfqabad* və s.

-abad şəkilçisi dilimizdə tarixən də işlənmiş, ərazi adı bildirən sözlər düzəltmişdir: *Pənahabad, Kirovabad və s. Özü isə müalicə üçün Kirovabada getməyə hazırlaşdı.(İ.Şıxlı)*

-an. Fars mənşəli şəkilçi olan *–an* mənsub olduğu dildə cəmlik bildirir, cəm şəkilçisi kimi çıxış edir. Dilimizdə isə yer, məkan anlayışını bildirən toponimlər yaradır. Məsələn: *Əsgəran, Türkan və s.*

-a,-ə. Ərəb-fars mənşəli sözlərin sonuna artırılaraq əşya, yer, xüsusiyyət bildirən söz düzəldir: *xaraba, zamana, qəribə, nərə və s.*

Qeyd edək ki, *-a,-ə* şəkilçisi dilimiz üçün xarekterik olmayan cins kateqoriyasının göstəricisi kimi də çıxış edərək şəxs adlarının yaranmasında da iştirak edir. Məsələn: *Fəridə, Vüsalə, İlhamə, Xəyalə, Samirə və s.*

-an. Ərəb-fars mənşəli qeyri-məhsuldar söz- şəkilçidir. Omonim kimi işlənir. Artırıldığı sözdə insan, şəxs, əşya çaları yaradır. Msələn: *sübhan, seyran, canan, dövran və s.*

-arzı. Müasir dilimizdə ***dad*** sözünün sinonimi olan *tam* sözünə qoşularaq *tamarzı* sözünü düzəldir. Söz əslində fars mənşəli olub, *"təam arzulamaq"* deməkdir.

-ab. Müasir Azərbaycan dilində qeyri-məhsuldar şəkilçidir. –ab fars mənşəli söz olub, azərbaycanca *"su"* deməkdir. Məsələn, *Sirab, Abşeron, selab* kimi sözlərdə ***ab*** öz məzmununa uyğun işlənmişdir. Lakin *çirkab* sözündəki *–ab* artıq öz məzmunundan uzaqlaşmış və şəkilçiləşmişdir.

-ran. Bu şəkilçi də fars mənşəlidir. Dilimizdəki *"hökmran", "Kamran"* kimi sözləri düzəldib.(7.,21). Məsələn: *Müharibə dövründə kəndə hökmranlıq edən bu adam heç kəsi tanımaq istəmir, nəyin hesabına olursa-olsun sədrliyi əlində saxlamağa çalışırdı.(İ.Şıxlı).*

-duz. Dilimizdə söz-şəkilçi qrupuna aid edilən, mənbə dildə müstəqil söz kimi işlənən *–duz* vasitəsilə *palanduz, çuvalduz* kimi əşya mə f umlarını ifadə edən leksik vahidlər düzəldir.

-əcər. Müasir dilimizdə işləkliyini itirmiş qeyri- məhsuldar şəkilçilərdən biridir. Söz sonuna artırılaraq əsasən, əlamət bildirən sözlər düzəldir. Məsələn: *eybəcər, dərdəcər, südəcər* və s.

-namə. Dilimizə fars dilindən keçmiş bu şəkilçi azərbaycanca *"yazı"* , *"məktub"* mənalarını ifadə edir. Söz-şəkilçi funksiyasına malikdir. Şəkilçiyə həm qədim, həm də orta dövr ədəbiyyatına aid materiallarda rast gəlmək mümkündür. Məsələn: *cavidannamə, andnamə, novruznamə,* İskəndərnamə, Bəxtiyarnamə və s. Tərkibində *namə* mor-

femi olan bütün leksik vahidlərin quruluş etibarilə hamısı düzəltmə deyil. Çünki bəzi sözlərdə *namə* öz həqiqi mənasında işlənmişdir. Məsələn: *Dəhnamə, Şikayətnamə*

Müasir Azərbaycan dilində *-namə* şəkilçisi əsasən, bəzi isimlərin sonuna qoşulmaqla əməli yazı növlərinə mənsub terminoloji mə f umlar əmələ gətirir: vəkalətnamə, xahişnamə, xasiyyətnamə, etibarnamə, *tələbnamə, nizamnamə və s.*

-baz. Bu şəkilçi də fars mənşəli olub, mənbə dildə müstəqil söz kimi çıxış edir. Lüğətdə *(47.,32)* fars dilində işlənən omonim söz kimi aşağıdakı 6 mənası verilmişdir:

1.-baz. Müəyyən bir işin həvəskarı, düşkünü;

2.-baz. Açıq;

3. –baz. Şahin, tərlan;

4.-baz.Yenə, təkrar, bir də,bir daha, yenə də;

5.-baz. Dala, geriyə;

6.-baz.Oyun.

Müasir Azərbaycan dilində isə *"oyun", "məşğuliyyət", "bu və ya digər bir şeyin aludəçisi, həddindən artıq həvəskarı olmaq"* kimi başa düşülür. Əsasən, isimlərin sonuna artırılıb, peşə, sənət bildirən atributiv səciyyəli sözlər və əlamət, key f yyət, mən f lik anlayışını ifadə edən sifətlər düzəldir. Məsələn: *kəndirbaz, hoqqabaz, sehirbaz, itbaz, quşbaz, oyunbaz, qumarbaz, yerlibaz, dostbaz, qohumbaz, işbaz, lağbaz və s.*

-at,-ət. Ərəb mənşəli şəkilçilər qrupuna aiddir. Əsasən, Ərəb-fars mənşəli sözlərə artırılıb, əşya, alət, sosial, ictimai məzmun daşıyan, ifadə edən sözlər düzəldir. Məsələn: *təbliğat, təşviqat, tədqiqat, muğamat, xitabət, kitabət, məlumat və s.*

-at. Bu şəkilçi də Ərəb mənşəli olub, omonimlik xüsusiyyəti daşıyır. Ərəb mənşəli *"xə t "* sözünə qoşularaq əşya, şəxs, ad, peşə bildirən *"xə t at"* sözünü əmələ gətirir.

-**güzar.** Dilimizdə söz-şəkilçi kimi işlənən qeyri-məhsuldar şəkilçidir. Söz kökünə qoşulmaqla əşya, sənət, peşə, əlamət bildirən söz düzəldir. Məsələn**:** *işgüzar, kargüzar və s.*

-vər. İsimdən sifət əmələ gətirən qeyri-məhsuldar şəkilçidir. *"Dənə"* sözünə artırılıb *"dənəvər"* sifətini əmələ gətirir.

-məzə. Sifətdən sifət düəzəldən qeyri-məhsuldar söz-şəkilçidir. Bu məqamda *məzə* morfemi fars mənşəli olub, mənbə dildə müstəqil söz kimi işlənir. Dilimizdə müstəqil leksik semantik məna ifadə edə bilmədiyi üçün qeyri-məhsuldar şəkilçi kimi çıxış edir. Qoşulduğu sözdə əlamət, key-f yyət, dad bildirir. Məsələn: *turşməzə*

-i,-vi. Yer, məkan, şəxs anlayışı bildirən sözlərə artırılıb, ad, ləqəb, təxəllüs, yerlilik, mənsubiyyət mə f umu ifadə edən isimlər-onamastik vahidlər düzəldir. Məsələn: *Rumi, Naxçıvani, Gəncəvi, Şirvani, Təbrizi, Qurbani, Sidqi, Bağdadi, Lənkərani və s.*

-nişin. Dilimizdə az işlənir. *Sərnişin, kirayənişin, guşənişin* kimi sözlərdə təsadüf olunur.

-i,-vi. Sifət düzəldən və nisbətən məhsuldar omonim şəkilçidir. Ərəb-fars qrupuna aid sözlərə əlavə olunaraq bu və ya digər sözün ümumi əlamət və key f yyətini ifadə edən sözlər əmələ gətirir. Məsələn: *elmi (məqalə), inqilabi (hadisə), daxili (gözəllik), xarici (işlər), tibbi (yoxlanış), ailəvi (restoran), dairəvi (yol), tarixi (məlumat), mülki (vətəndaş), kütləvi (qırğın), nümunəvi (tələbə) və s.*

-*vi* şəkilçisi bəzi sözlərin tərkibində daşlaşıb. Orta məktəb qrammatikasında və TQDK-nın keçirdiyi qəbul imta-

hanlarında bu tip sözlər sadə hesab olunur. Məsələn: *lüğəvi, dünyəvi, kimyəvi və s.(bax: 48* və *53)*

-zən. İsmə artırılıb peşə məzmunu yaradan qeyri-məhsuldar şəkilçilərdəndir. Məsələn**: tarzən**. *Mən tarzən olub çala bilsəydim; Arzumu, sözümü telə verərdim. (B.Vahabzadə)*

-anə. Omonimlik xüsusiyyətinə malik qeyri-məhsuldar şəkilçi olub, əsasən, şəxs adı, bəzən də oxşarlıq bildirən sözlər düzəldir. Məsələn: *Gülanə , şairanə, Dinanə*

-bi. Dilimiz üçün xarakterik olmayan ön şəkilçilər qrupuna daxildir. Azərbaycan dilindəki *–sız,-siz,-suz,-süz* şəkilçisi ilə sinonimlik təşkil edir. İsimdən sifət düzəldir. Məsələn: *biqeyrət, bielm, biqabiliyyət, bikef, bisavad, binamus və s.*

-na. Bu şəkilçi də ön şəkilçilərdən olub, həm Ərəb-fars, həm də milli mənşəli sözlərə artırılmaqla düzəltmə sifətlər əmələ gətirir. Məsələn: *nadinc, nakişi, natəmiz, nadürüst, naməlum, narazı, nainsaf və s.*

-la. Ərəb-fars mənşəli sözlərin əvvəlinə artırılaraq inkar məzmunlu sifətlər düzəldir: *laməkan, laqeyd, laməzhəb və s. Özünü laqeyd aparan İmran da hərdənbir gözaltı qıza baxır, onun dəyişdiyini, daha da gözəlləşdiyini görürdü.(İ.Şıxlı).*

-ba. Ərəb-fars mənşəli şəkilçi olub məhsuldar *–lı,-li,-lu,-lü* şəkilçi ilə sinonimlik təşkil edir. Məsələn: *basəfa, baməzə*

-ər. Müasir dilimizdə işləkliyini itirməkdə olan qeyri-məhsuldar şəkilçilərdəndir. Məsələn: *ləngər.*

-yı. "Hava" sözünə qoşulub, "*havayı*" sözünü əmələ gətirir. İsimdən sifət düzəldən qeyri-məhsuldar şəkilçidir.

-amiz. Bu şəkilçi dilimizə fars dilindən keçmişdir. Fars dilində bu söz-*amiz* müstəqil leksik mənaya malik olub, "*qarışıq*" mənasını ifadə edir. Lakin dilimizdə müstəqil

şəkildə işlənə bilmir, şəkilçi qismində iştirak edir. Əsasən, ərəb mənşəli sözlərə əlavə olunaraq, əlamət, keyfyyət, xüsusiyyət mənalarını ifadə edir. Qismən də olsa, *–lı,-li,-lu,-lü* şəkilçisinin malik olduğu semantikanı ifadə edə bilir. Məsələn: *ibrətamiz, heyrətamiz, təhqiramiz, nəsihətamiz və s.*

-ur. Şəkilçiyə dilimizdəki *"muzdur"* sözündə rast gəlinir. Bu şəkilçi qoşulduğu sözdə şəxs, əşya, vəzifə, insan, vəzifə çaları yaradır və müasir Azərbaycan dilindəki dördvariantlı –çı şəkilçisi ilə qrammatik sinonimlik təşkil edir.

-iya. İsimdən isim düzəldən qeyri-məhsuldar omonim şəkilçidir.Məsələn: **mumiya.** *Bir sınmışa mumiya dilərdim. (M.Füzuli)*

-gün. Dilimizdə fars mənşəli qeyri-məhsuldar söz-şəkilçidir. Qoşulduğu sözdə əlamət, keyfyyət çaları yaradır. Məsələn: *gülgün, laləgün və s.*

-gin. İsimdən sifət əmələ gətirən qeyri-məhsuldar Ərəb-fars mənşəli şəkilçi olub, əlamət, keyfyyət, zahiri görkəm bildirir. Məsələn: *qəmgin.*

Feildən sifət düzəldən *–gin* şəkilçisi ilə omonimlik keyfyyətinə malikdir.

-ayə. İsimdən isim düzəldən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *kin-kinayə*; *Qızın gözlərində aşkar seçilən şıltaqlıq, dodaqlarındakı kinayəli təbəssüm onun nəyəsə hazırlaşdığını göstərirdi.(İ.Şıxlı)*

-xay. Dilimizdə *"dəlixay"* sözündə təsadüf olunur.

-nüma. Bu morfem fars mənşəli olub, dilimizdə qeyri-məhsuldar şəkilçi kimi çıxış edir. Mənbə dildən fərqli olaraq müasir Azərbaycan dilində müstəqil leksik mənaya malik deyil. *–nüma* farsca *"bildirən", "göstərən"* mənalarını ifadə edir. Şəkilçiyə dilimizdəki *"bədənnüma"* sözündə

rast gəlinir. Məsələn: *Bədənnüma güzgünün qabağına keçəndə özünü tanımadı.(İ.Şıxlı)*

-iam. İsimdən isim düzəldən Ərəb-fars mənşəli qeyri-məhsuldar şəkilçidir. Məsələn: *qətliam*.

-idat. Müasir dilimizdə *varidat* sözündə rast gəlinir. Bəzi ədəbiyyatlarda *varidat* sözü "*varid*" sözü ilə əlaqələndirilir. Bizə görə, *varidat "var"* sözündən əmələ gəlmiş və bütün var-dövlətin, gələn gəlirin məcmusu mənasını ifadə edir.

-bənd. Dilimizdə söz-şəkilçi funksiyasına malik qeyri-məhsuldar fars mənşəli şəkilçidir. Mənbə dildən fərqli olaraq müasir dilimizdə söz-şəkilçi kimi çıxış edir. Lüğətdə (*bax: 46)* fars dilində aşağıdakı 10 mənası verilmişdir:

1. *Bağ, ip;*
2. *Suyun qarşısını kəsmək üçün divar, sədd;*
3. *Paraqraf(sənəddə);*
4. *Bir neçə misradan ibarət şeir bölgüsü;*
5. *Bağlı, əlaqədar;*
6. *Zəncir, qandal;*
7. *Həbs;*
8. *Aşiq, vurğun;*
9. *Oynaq, buğum, düyüm;*
10. *Biclik, hiylə.*

Dilimizdə *aynabənd, şüşəbənd, sinəbənd, sazbənd* kimi sözlərdə təsadüf olunur.Müasir dilimizdə işlənməsi fars mənşəli ***-saz*** söz-şəkilçisində olduğu kimidir.

1.3. RUS-AVROPA MƏNŞƏLİ AD DÜZƏLDƏN QEYRİ-MƏHSULDAR ŞƏKİLÇİLƏR

Ərəb-fars mənşəli ad düzəldən qeyri-məhsuldar şəkilçilər kimi Rus-avropa mənşəli ad düzəldən qeyri-məhsuldar şəkilçilər də daha çox isim və sifət əmələ gətirir. Həm milli, həm də alınma mənşəli sözlərlə işlənə bilir. Bu qrupu təşkil edən köməkçi morfemlər dilimizin nisbətən sonrakı inkişaf mərhələsində elmi-texniki tərəqqinin, sənayenin, mədəniyyətin inkişafı, ictimai-siyasi quruluş, qonşuluq münasibətləri əsasında meydana gəlmiş və əsasən dilimizə rus və rus dili vasitəsilə keçmişdir. Müstəqillik əldə olunandan sonra bu qrupa aid şəkilçilər həm kəmiyyət, həm keyfyyət baxımından daha da inkişaf etmişdir. Çünki ayrı-ayrı ölkələrlə aparılan iqtisadi, siyasi, mədəni, ictimai əlaqələr nəticəsində dilimizə yeni sözlər, sözlər daxilində şəkilçilər keçmiş, dilimiz daha da zənginləşmişdir. Bu şəkilçilərin bəziləri dilimizdə tam sabitləşməyib, şəkilçiləşməyə doğru inkişaf edir.

-l. Rus-avropa mənşəli bir cür yazılan qeyri-məhsuldar şəkilçidir. Əsasən, isimdən ümumi əlamət, keyfyyət bildirən sifət düzəldir. Məsələn: *normal (həyat), formal (göstərici), natural (təsərrüfat)* və s.

-er. Dilimizdə sənət, peşə, ixtisas, şəxs, əşya, insan anlayışlarını ifadə edən Rus-avropa mənşəli qeyri-məhsuldar şəkilçilərdən biridir. Əsasən, bəzi say və isimlərdən yeni söz əmələ gətirir. Məsələn: *milyoner, milyarder, dizayner, reper və s.*

Qeyd: *-er* şəkilçisi müasir ingilis dilində də feildən isim düzəldən su f ks kimi işlənir. İngilis dilində " Bu su f ksi hər hansı hərəkət ifadə edən felin sonuna əlavə edib, həmin hərəkətlə məşğul olan ismi (sözü) yaratmaq olar...

To read (oxumaq)- a reader(oxucu)

To teach(öyrətmək, dərs demək)- a teacher(müəllim)" (bax: 59., 58)

Müasir Azərbaycan dilində də ingilis dili ilə inteqrasiya nəticəsində bəzi *–er* şəkilçili sözlər dilimizə keçmişdir. Belə sözlərin bir qismini kök və şəkilçiyə ayırmaq mümkün olduğu halda, bir qismini ayırmaq mümkün deyil və mənbə dildən fərqli olaraq dilimizdə sadə söz kimi qəbul olunur. Azərbaycan dilinin orfoqrafya lüğətinin VI nəşrində bu qəbildən olan bir sıra sözlər-neologizmlər daxil edilmişdir. Məsələn, lüğətdə yer alan *print, printer, qolkiper, killer* kimi sözlər bu qrupa aiddir. *"print"* ingilis dilində omonim kimi isim və feil olmaqla 5 mənada işlənir: *həkk, çap, şrift, çit, çap etmək.(bax: 56., 109)* Orfoqrafya lüğətində müstəqil leksik mənalı söz kimi həm *print*, həm də *printer* sözü verilmişdir.

Killer, qolkiper sözləri isə ingilis dilindən fərqli olaraq dilimizdə sadə söz kimi çıxış edir və şəkilçi ilə birgə keçmişdir. Əslində *killer* ingilis dilində *"to kill"* (öldürmək) məsdərinə *-er* su f ksini artırmaqla əmələ gəlmiş, dilimizdə *qatil, muzdlu qatil* mənalarını verir. *Qolkiper* sözü isə ingiliscə *goal(qol)* və *keep (saxlamaq)* sözlərinin birləşməsindən əmələ gəlmiş, *qapıçı (idman terminologiyasında)* deməkdir.

Bu sözlərin orfoqrafya lüğətində yer almasına baxmayaraq, bunların dilimizdə işlədilməsini və gətirilməsini məqbul hesab etmirik. Çünki bu sözlərin dilimizdə işlənən

və çoxdan sabitləşmiş, hamı tərəfndən dərk olunan qarşılıqları vardır. *Killer, qolkiper* kimi sözlər isə, hamı tərəfndən başa düşülmür, əhatə dairəsi olduqca məhdud olub, müəyyən bir sahəni əhatə edir və özünü jarqon səviyyəsində göstərir.

-or. Bu qeyri-məhsuldar şəkilçi əsasən sənət, peşə, vəzifə, şəxs, əşya bildirən neologizmlər yaradır və adların sonuna əlavə olunmaqla ad əmələ gətirir.*–or* şəkilçisi dilimizdəki olduqca məhsuldar olan *–çı,-çi,-çu,*-çü şəkilçisi ilə sinonimlik keyfyyətinə malikdir. Avropa mənşəli sözlərlə işlənir. Məsələn: *stajor, kreditor, senator, plagiator* və s.

-ant. Avropa mənşəli qeyri-məhsuldar şəkilçi olub, müasir Azərbaycan dilində vəzifə, peşə, sənət, dərəcə bildirən düzəltmə isimlər əmələ gətirir. Məsələn: *diplomant, magistrant, doktorant, praktikant* və s.

-a. Ön şəkilçi olub, qoşulduğu sözdə əksilik, mənflik çaları yaradır. Məsələn: *anormal, asinxron, asemantik və s.*

-nik. Rus mənşəli qeyri-məhsuldar şəkilçidir. Dilimizdəki *çaynik, zaçotnik* kimi sözlər bu şəkilçi vasitəsilə düzəlmişdir. Məsələn: *Qönçə xanım çaynik gətirdi, içinə quru çay tökdü, üstünə qaynar su aldı və dəmkeşin üstünə qoydu ki, dəmlənsin.(İ.Şıxlı)*

-iada. Rus-avropa mənşəli şəkilçidir. Şəkilçiyə *"olimpiada", "spartakiada"* kimi sözlərdə rast gəlirik. Əsasən yarış, oyun, hadisə, əşya məzmunu ifadə edir.

-nir. İsimdən isim düzəldən Rus-avropa mənşəli qeyri-məhsuldar şəkilçidir. Məsələn: *turnir*

-post. Rus-avropa mənşəli qeyri-məhsuldar söz-şəkilçidir. Bu şəkilçinin fransız mənşəli və müstəqil leksik mənaya malik olan *"post"* (bax: 10.,616) sözü ilə heç bir əlaqəsi

yoxdur. Müasir Azərbaycan dilində ön şəkilçi qismində çıxış edir və *"keçmiş", "keçmişdə olan", "keçmişdə qalan"* mənalarını verir. Eyni zamanda qoşulduğu sözdə əksilik, əlamət, cərəyan, mövqe, proses, quruluş çalarını ifadə edir. Məsələn*: postsovet, postmodern, postmodernizm, postpozisiya və s.*

-yon. Avropa mənşəli olub, dilimizdə söz-şəkilçi funksiyasına malikdir. Fransız mənşəli **"medalyon"** sözündə işlənir.Məsələn*: Ağ sinəsindəki qızıl medalyonun parıltısı İmranın gözünə düşdü.(İ.Şıxlı).*

-izm. Bu şəkilçi də Rus-avropa mənşəli şəkilçilərdən biri olub, Azərbaycan dilində ictimai quruluş, təriqət, elm, cərəyan bildirən sözlər düzəldir. Məsələn: *realizm, hürufzm, sufzm, kapitalizm, idealizm, Marksizm, Leninizm, sosializm və s.*

-tizm. Fransız dilindən fərqli olaraq müasir dilimizdə qeyri-məhsuldar şəkilçi kimi işlənir. Qoşulduğu sözdə cərəyan, istiqamət, proses məzmunu ifadə edir. Məsələn: *romantizm*

-ist. Rus-avropa mənşəli şəkilçilər qrupuna aiddir. Müasir dilimizdə əsasən, cərəyan, istiqamət, elm, insan, şəxs, nəzəriyyə mə f umları ifadə edir. Məsələn**:** *idealist, materialist, sosialist, realist, kapitalist, stilist və s.*

-tik. Bu şəkilçi də *-tizm* şəkilçisi kimi fransız mənşəlidir. Şəkilçiyə dilimizdəki *"romantik"* sözündə təsadüf olunur.

-atik. Rus-avropa mənşəli qeyri-məhsuldar şəkilçidir. *Dilimizdəki dramatik, problematik, sistematik* kimi sözlər *–atik* şəkilçisi vasitəsilə düzəlmişdir.

-ika. Bu şəkilçi daha çox Avropa mənşəli leksik vahidlərin sonuna qoşularaq işlənir. Qeyri-məhsuldar şəkilçi kimi,

işləndiyi sözlərdə sənət, peşə, ixtisas məzmununu ifadə edir. Məsələn: *jurnalistika, kriminalistika və s.*

-za. Rus mənşəli olub, dilimizdə ön şəkilçi kimi çıxış edir. Yer, məkan məzmunu ifadə edir. Məsələn: *Zaqafqaziya.*

Bu söz XIX-XX əsrlərdə daha işlək olmuşdur. İndi işlənmə arealı olduqca məhduddur. Hə t a Azərbaycan dilinin orfoqra f ya lüğətində də yer almamışdır.

-pro. Bu şəkilçi qeyri-məhsuldar şəkilçi kimi şəxs, vəzifə, insan anlayışı bildirən söz əmələ gətirir. Ön şəkilçi olub, dilimizdəki *"prorektor"* sözündə rast gəlinir.

-dis. Bu şəkilçi Avropa mənşəli olub, dilimizdə ön şəkilçi funksiyasında çıxış edir. Qoşulduğu sözdə əlamət, key- f yyət, xüsusiyyət, əksilik çalarını ifadə edir. Məsələn: *diskomfort*

-iza. Avropa mənşəli olub, dilimizdə qeyri-məhsuldar şəkilçi kimi çıxış edir. Əşya, şəxs, hadisə, proses məzmununu bildirir. Latın mənşəli *"ekspert"* sözünə qoşulub, *"ekspertiza"* ismini əmələ gətirir.

-iat. Rus-avropa mənşəli qeyri-məhsuldar şəkilçi olub, *"bakalavriat"* sözünün tərkibində işlənir.

-anti. Ön şəkilçi olub, qoşulduğu sözdə mən f lik, əksilik bildirən sifətlər əmələ gətirir. Məsələn**:** *antiqəhrəman, antifaşist, antiterror, antihumanist, antidemokrat və s.*

-yor. Bu şəkilçi dilimizdə əsasən, isimdən isim düzəldən Rus-avropa mənşəli bir cür yazılan və ahəng qanuna tabe olmayan qeyri-məhsuldar söz-şəkilçi kimi çıxış edir. *–yor* şəkilçisi dilimizdəki ən məhsuldar sözdüzəldici şəkilçilərdən olan dördvariantlı –çı şəkilçisi ilə sinonimlik təşkil edir və qoşulduğu sözdə sənət, peşə, insan, şəxs, anlayışları ifa-

də edir. Məsələn*: muşketyor, boksyor və s.* Bu şəkilçi hazırda dilimizdə sabitləşməyə doğru inkişaf edir və alınma sözlərdən neologizmlər əmələ gətirir: *parlamentyor, prizyor və s.*

-aj. Mənbə dildən fərqli olaraq dilimizdə qeyri-məhsuldar sözdüzəldici şəkilçi kimi çıxış edir. Məsələn: *metraj, tipaj və s.*

-lom. Bu şəkilçi də qeyri-məhsuldar olub dilimizdəki *metallom* sözündə təsadüf olunur.

-der. Rus-avropa mənşəli qeyri-məhsuldar şəkilçilərdən hesab olunur. İsimdən isim düzəldir.Məsələn: *gender.*

-et. Əşya, alət, vasitə məzmunu bildirən qeyri-məhsuldar söz-şəkilçidir. Məsələn: *disket*

-taş. Mənbə dildən fərqli olaraq müasir dilimizdə qeyri-məhsuldar şəkilçi qismində iştirak edir. Qoşulduğu sözdə əşya, alət, vasitə, qab anlayışı yaradır. Şəkilçiyə dilimizdəki *"patrontaş"* sözündə rast gəlinir. Qeyd edək ki, *patrontaş* sözü müxtəlif zamanlarda nəşr olunan orfoqrafya lüğətlərində həm *patrondaş*, həm də *patrontaş* formasında öz əksini tapmışdır. Məsələn, orfoqrafya lüğətinin 1975-ci il və 2004-cü il nəşrlərində (19.,406 və 6.,513), Ə.Əfəndizadənin kompleks lüğətində (34.,76) və izahlı lüğətdə(10.,582) bu söz *patrondaş* kimi verildiyi halda, lüğətin VI nəşrində(17.,539) *patrontaş* şəklinə verilmişdir. Fikrimizcə, sonuncu daha düzgündür və sözün mənsub olduğu dildəki fonetik tərkibi ilə əlaqədardır. Bu söz alman dilindəki *"patrontasche"* sözünün dilimizin fonetik tərkibinə uyğunlaşdırılmış formasıdır.(bax: 10.,582)

-t. Şəkilçiyə dilimizdəki *format, krant* kimi sözlərdə rast gəlirik.

-naj. Qeyri-məhsuldar şəkilçi kimi ad əmələ gətirir. Mənbə dildən fərqli olaraq dilimizdə şəkilçi kimi çıxış edir, ancaq hələ tam sabitləşməyib. Məsələn: *tonnaj*

-iv,-tiv. Rus-avropa mənşəli son şəkilçidir. Əsasən adların sonuna əlavə olunaraq əlamət bildirən sözlər düzəldir. Məsələn: *normativ, subyektiv, formativ, fakültativ, obyektiv və s.*

-ar. Adlardan sifət düzəldən qeyri-məhsuldar söz-şəkilçi olub, milli mənşəli feil düzəldən *–ar* şəkilçisi ilə omonimlik keyfyyətinə malikdir. Qoşulduğu sözdə xüsusiyyət, əlamət, keyfyyət çaları ifadə edir. Məsələn: *elementar, planetar, elitar və s.*

-ari. İsimdən isim düzəldən qeyri-məhsuldar söz-şəkilçi olub, neologizm əmələ gətirir. Şəkilçiyə müasir dilimizdəki *"parlamentari"* sözündə rast gəlinir. –ari şəkilçisi milli mənşəli *–çı,-çi,-çu,-çü* şəkilçisi ilə qrammatik sinonimlik təşkil edir.

-ev,-ov,-yev. Bu şəkilçilər dilimizə rus dilindən keçmişdir. Müasir Azərbaycan dilində söz sonuna artırılaraq soyad bildirən sözlər-antroponimlər düzəldir. Əslində *-ov,-yev* şəkilçiləri məhsuldar olub, xeyli sayda söz düzəldir. Məsələn: *Əliyev, Əsgərov,Əsədov, Məmmədov, Xəlilov, Qarayev, Əmirov, Qurbanov, Sarıyev, Balıyev, Verdiyev, Quliyev, Nuriyev və s.*

Lakin soyad düzəldən *–ev* şəkilçisinin işlənmə dairəsi məhduddur. Demək olar ki, bir neçə sözdə işlənir. Şəkilçinin işlənməsi müvafq prinsipə əsaslanır. Sonu "y" hərf ilə qurtaran ikihecalı sözlərə *-ov, -yev* şəkilçisini artırmaq olmur. Bu tip sözlərdən yeni söz əmələ gətirmək üçün *–ev* şəkilçisindən istifadə olunur. Məsələn: *Qaçayev, Sadayev, Sudayev, Xasayev, Gərayev və s.*

Qeyd edək ki, bu qaydanı sonu *"y"* ilə bitən sözlərə aid etmək olmaz. Məsələn, sonu *"bəy"* sözü ilə qurtaran sözlərə *-ev* şəkilçisini artırmaq mümkün deyil. Belə sözlər müvafq olaraq *–ov,-li* şəkilçilərindən birini qəbul edir. Məsələn: Xəlilbəyov, Əlibəyov, Hacıbəyov, Xəlilbəyli, Hacıbəyli və s. Bu şəkilçi haqqında vaxtilə prof. Ə.Əfəndizadə "Suallar və cavablar"da geniş şərh vermişdir.(bax: 31)

-is. İsimdən isim düzəldən qeyri-məhsuldar şəkilçi olub, əşya, proses məzmunu bildirir. Şəkilçiyə dilimizdəki *"krizis"* sözündə rast gəlinir.

-al,-ial,-ual. Rus-avropa mənşəli şəkilçilər qrupuna daxildir. Söz sonuna artırılmaqla adlardan keyfyyət, əlamət bildirən sözlər düzəldir. Məsələn: *prinsipial, paradoksal, vektorial, prosesual, bronxial, fenomenal, regional, eksperimental və s.*

-ik. Əsasən, adlara artırılıb sifət düzəldən Rus-avropa mənşəli şəkilçidir. Müasir Azərbaycan dilində *ritmik, tipik, sinxronik, mifk, statik, avtomatik, fanatik* kimi sözlər bu şəkilçi vasitəsilə yaranmışdır.

-amt. Mənbə dildən *(italyan və alman dillərindən)* fərqli olaraq dilimizdə şəkilçi qismində iştirak edir. Qoşulduğu sözdə əsasən, yer, məkan, obyekt, əşya məzmunu bildirir. Müasir Azərbaycan dilində bu şəkilçiyə *"poçtamt"* sözündə təsadüf olunur.

-at. Rus-avropa mənşəli şəkilçilərdən biri olub, Ərəb-fars mənşəli *–at* şəkilçisi ilə omonimlik keyfyyətinə malikdir. Yer, məkan, əşya anlayışı ifadə edən sözlər əmələ gətirir. Məsələn: *dekonat, rektorat, direktorat, çempionat* və s.

-on. Bir cür yazılan və ahəng qanununa tabe olmayan Rus-avropa mənşəli qeyri-məhsuldar söz-şəkilçidir. Məsələn: *leksikon.*

-atr. Bu şəkilçi mənbə dildən fərqli olaraq dilimizdə şəkilçi kimi çıxış edir. Lakin *–atr* budaq morfemini bütün sözlərdə şəkilçi kimi götürmək mümkün deyil. Bəzi sözlərdə leksik mənaya malik olmadığı üçün qeyri- məhsuldar şəkilçi funksiyasını yerinə yetirir və sənət, peşə, şəxs, əşya, vəzifə məzmununu ifadə edir. Məsələn: *psixiatr*

-yer. *Söz-şəkilçi olub, sənət, peşə, şəxs bildirən neologizmlər* düzəldir. Məsələn*: modelyer, medalyer və s.*

-yar. Rus-avropa mənşəli qeyri-məhsuldar söz-şəkilçi olub, əsasən, dilimizdə terminlər ifadə edir. Məsələn: *molekulyar, molyar, formulyar* və s.

-a. Dilimizdəki *texnika, elita, etika, estetika* və s. kimi sözlərdə təsadüf olunur. Qeyd edək ki, sonu *"a"* ilə bitən bəzi alınma sözlər Azərbaycan dilində anlaşıldığı üçün, *"a"sız,* bəziləri isə anlaşılmadığı üçün *"a"* ilə yazılır. (bax:41.,176). Mənbə dildən fərqli olaraq dilimizdə bu şəkilçi sözlərdə semantik fərq yarada bilir.

-oloq. Əsasən, ixtisas, peşə, sənət bildirən sözlər düzəldir. Məsələn: *mifoloq, psixoloq,* türkoloq, *tipoloq* və s. Bəzi tədqiqatlarda (48) *-loq,-oloq* şəkilçisi ilə düzələn sözlərə nümunə olaraq **geoloq, bioloq** kimi sözlər verilir. Bizə görə, bu tip sözləri quruluş nöqteyi-nəzərdən sadə götürmək daha məqbuldur. Çünki dilimizdə **geoloq, bioloq** kimi sözləri həm tərkibinə görə ayırmaq mümkün deyil, həm də lüğətimizdə (bax: 6 və 17) **"geo", "bio"** adlı müstəqil mənalı sözə rast gəlinmir. Məsələnin bu şəkildə qoyuluşu dildə dolaşıqlıq yaradır. Çox güman ki, bu tip sözləri düzəltmə hesab edən tədqiqatçılar bu və ya digər bir sözün mənbə dildəki daxili semantikasına əsalanırlar. Şübhəsiz ki, bu fikirlə razılaşmaq düzgün deyil.

-iya,-asiya. Rus-avropa mənşəli omonim şəkilçi olub, əsasən, əşya məzmunu bildirən sözlər əmələ gətirir. Məsələn: *motivasiya, dekorasiya, oliqarxiya, qarantiya, refeksiya, vaksinasiya, omonimiya, sinonimiya, olimpiya və s.*

-içə,-içə. Rus-avropa mənşəli şəkilçi olub, əsasən, alınma mənşəli sözlərin tərkibində işlənir. Mənbə dildən fərqli olaraq dilimizdə isimdən isim düzəldən şəkilçi funksiyasında çıxış edir. Qoşulduğu sözdə əşya, vəzifə, rütbə, şəxs, cins çaları ifadə edir. Məsələn*: kraliça, çariça, imperatriçə* və s.

-essa. Bu şəkilçi fransız mənşəli olub, müasir Azərbaycan dilində qeyri-məhsuldar şəkilçi qismində çıxış edir. İsimdən isim düzəldərək şəxs, əşya, cins məzmununu bildirir. Məsələn: *baronessa*

-essa şəkilçisi təxminən *–ıça,-içə* və milli mənşəli *–ım* şəkilçiləri ilə qrammatik sinonimlik keyfyyətinə malikdir. Müqayisə edin: *kral-kraliça, çar-çariça, imperatr-imperatriçə, xan-xanım və s.*

-re. Bu şəkilçi ön şəkilçidir. Həm sifətlərə, həm də isimlərə qoşula bilir.Məsələn: *aktiv-reaktiv, forma-reforma, konstruksiya-rekonstruksiya və s.(7.,25)*

-ir. Rus-avropa mənşəli qeyri-məhsuldar ön şəkilçilərdən biri olub, alınma mənşəli adlardan yeni sözlər əmələ gətirir. Bu şəkilçi həm milli, həm də alınma mənşəli –ir şəkilçisi ilə omonimlik keyfyyətinə malikdir. Qoşulduğu sözdə daha çox əlamət, keyfyyət, xüsusiyyət, əkslik çaları ifadə edir. Məsələn: *irreal, irrasional, irradiasiya və s.*

-**poli.** Rus-avropa mənşəli qeyri-məhsuldar ön şəkilçidir. Məsələn: *polisemantik, politexnikum, poliklinika və s.*

-**ura**. Daha çox ixtisas, dərəcə, təhsil, elm anlayışı ilə bağlı sözlər düzəldir. Məsələn: *doktorantura, dissertantura, rezidentura və s.*

-inq. Bu şəkilçi əsasən, dilimizə ingilis dilindən keçmiş sözlərə əlavə olunmaqla, əşya mə f umu ifadə edən bir sıra neologizmlər yaradır. Məsələn: *parkinq, pressinq, marketinq, monitorinq və s.* Dilimizdə tədricən sabitləşməyə doğru inkişaf edir.

-**alyon**. Olduqca qeyri-məhsuldar şəkilçi olub, peşə, sənət, şəxs bildirən söz düzəldir. Məsələn: *poçtalyon*

-oloji. Rus-avropa mənşəli qeyri-məhsuldar son şəkilçidir. Müasir Azərbaycan dilində əlamət, key f yyət bildirən sözlər düzəldir. Məsələn: *mifoloji, türkoloji, tipoloji, psixoloji və s.*

-ir. İsimlərin sonuna artırılmaqla sənət, peşə, insan anlayışı ifadə edən sözlər düzəldir. Məsələn: *bankir, kassir, biriqadir və s. Kassir və biriqadir* sözlərində eliziya hadisəsi nəticəsində **"a"** hər f düşmüşdür. Məsələn: *Hamıdan xahiş etdi ki,heç olmasa qoyun, kolxozda bir kişi briqadiri olsun.(İ.Şıxlı), Ancaq briqadir onu saxladı.(İ.Şıxlı)*

-**ka.** İsimdən isim düzəldən Rus-avropa mənşəli qeyri-məhsuldar şəkilçidir. Qoşulduğu sözdə əşya, alət, vasitə, geyim məzmunu yaradır. Məsələn: *vizitka, maşınka, slavyanka, probka, futbolka və s.*

-**men.** Avropa mənşəli şəkilçi olub, azərbaycanca *"kişi"*, *"adam"* mənasında işlənir. Mənbə dildə müstəqil söz kimi işlənən *–men* şəkilçisi dilimizdə neologizmlərin yaranmasında mühüm əhəmiyyət kəsb edir. Məsələn: *biznesmen, sazmen, şoumen, cazmen, polismen və s.*

-pan. Rus-avropa mənşəli qeyri-məhsuldar ön şəkilçidir. Məsələn: *pantürkizm, pantürkist*

-it. İsimdən isim düzəldən qeyri-məhsuldar söz-şəkilçidir. Əsasən əşya, proses bildirir. Məsələn: *bronxit.*

-izə. Rus-avropa mənşəli qeyri-məhsuldar şəkilçidir. Adlardan yeni sözlər əmələ gətirir. Məsələn: *idealizə, realizə və s.*

-geo. Bu morfem yunan mənşəli olub, dilimizdə qeyri-məhsuldar ön şəkilçi funksiyasında çıxış edir. Məsələn: *geokimiya, geokimyəvi, geofzika, geokosmik və s.* Müasir Azərbaycan dilində ***geo*** adlı müstəqil, leksik məna ifadə edən söz yoxdur. Azərbaycan dilinin izahlı lüğətində də bu morfem söz əvvəlində işlənən önlük kimi izah olunmuşdur: *" geo...(yun. ge-yer) Bir sıra xarici sözlərin (isim və sifətlərin) qabağında, onlara yer, Yer kürəsi, yer qabığı mənası verən önlük; məs: geobotanika, geologiya, geofzika". (9.,220)*

Qeyd edək ki, ***-geo*** şəkilçili sözlərin hamısı quruluşca düzəltmə deyil. Bu sözlər əsasən alınma olub, mənbə dildə olduğu kimi dilimizə keçmişdir. Məsələn, *geoloq, geoloji, geologiya və s.* kimi sözləri tərkib hissələrə ayırmaq mümkün deyil.

-neo. Bu şəkilçi də yunan mənşəli olub, qeyri-məhsuldar ön şəkilçidir. *–neo* yunanca *"neos"* sözündən olub, azərbaycanca *"yeni"* deməkdir. (bax: 9.,468) Dilimizdə *–neo* şəkilçili sözlərin hamısı quruluşca eyni olmayıb, bir-birindən fərqlənirlər. Məsələn, *neolit, neologizm, neantrop və s.* sözlər quruluşca sadə, *neorealizm, neopifaqorçu, neolinqvistika, neoplastik* kimi sözlər isə düzəltmədir. Halbuki, mənbə dildə bu sözlərin əksəriyyəti quruluş etibarilə düzəltmə və

müəkkəbdir. Məsələn, *neologizm* yunanca *neos-yeni*, və *logos-anlayış* sözlərinin birləşməsindən əmələ gəlmişdir. Azərbaycan dilində bu hissələr ayrılıqda məna vermədiyi üçün, asemantik olduğu üçün işlənmir. Ona görə də *-neo* şəkilçili sözlər dilimizdə öz semantikasından asılı olaraq həm sadə, həm də düzəltmə söz keyfyyətinə malik olur.

-nka. *–həngi* şəkilçisi ilə sinonimlik keyfyyətinə malik olub, qoşulduğu sözdə oyun, rəqs, milli mənsubluq bildirir.Məsələn: *ləzginka-ləzgihəngi. Həpsi birdən halqa vurdu; Coşqun məclis quruldu; Çalğı coşdu, incə, şaqraq ləzginkalar vuruldu. (A.İldırım), Bayaqdan başını tərpədə bilmirdin, indi ləzgihəngi vurursan. (N.Vəzirov)(bax: 9.,261).*

-tele. Yunan mənşəli söz olub, azərbaycanca "*uzaq*" mənasını ifadə edir. Müasir Azərbaycan dilində müstəqil leksik mənaya malik olmadığı üçün asemantikləşmiş şəkilçi qismində çıxış edir. İzahlı lüğətdə bu morfemin mürəkkəb sözlərin tərkib hissəsinin birinci tərəf kimi işləndiyi göstərilir: Mürəkkəb sözlərin birinci tərkib hissəsi olub, "uzaq məsafələrə işləyən, verilən, göndərilən, uzaq məsafələrdən görünən, eşidilən, yazılan" mənasını ifadə edir; məs: teleqram, teleskop, telefilm və s.(11.,277).

Bu mülahizə Azərbaycan dilində *-tele* morfemi ilə başlayan sözlərdə özünü doğrultmur. Ənənəvi dilçilikdə morfologiyaya dair tədqiqatlarda da mürəkkəb sözlərin əmələgəlmə yolları arasında bu tip sözlərin işlənməsi haqqında münasibət bildirilməmişdir. Mürəkkəb sözün əmələ gəlməsi üçün onu təşkil edən tərkib hissələr bir-birilə qrammatik əlaqədə olmalı, tərəfər müstəqil leksik məna ifadə etməlidir. Hətta müstəqil leksik mənaya malik olan istənilən və ayrı-ayrı sözləri də müvafq qaydalara (Mürəkkəb sözlərin

yazılışı qaydalarını nəzərdə tuturuq.) əsasən birləşdirib mürəkkəb söz əmələ gətirmək mümkün deyil. Məsələn, müasir Azərbaycan dilində *"insan"* və *"dağ"* kök morfemləri həm leksik, həm qrammatik cəhətdən müstəqildirlər. Lakin bunları *insandağ, dağinsan, dağ-insan, insandağı və s.* kimi işlədə bilmirik və işlətmək mümkün də deyil. Fikrimizi izah etmək üçün verdiyimiz misallardan göründüyü kimi, müqayisənin özü belə uğursuzdur. Ona görə də mürəkkəb sözlərin yaranmasında leksik məna qədər semantik bağlılıq da zəruri və şərtdir. *–tele* budaq morfeminin dilimizdə şəkilçi funksiyasına malik olduğunu təsdiq edən dəlillərdən biri də kök və şəkilçi mə f umlarının daşıdığı morfoloji yükdür. Sözün ayrılıqda işlənə bilməyən və müstəqil leksik məna ifadə etməyən hissəsinə şəkilçi deyilir. *–tele* budaq morfemi də bu tələbi tam ödəyir. Düzdür, yuxarıda verilən *teleqram, teleflm, teleskop* kimi çoxsaylı sözlər əsasən, mənbə dildə mürəkkəb söz kimi çıxış edir. Lakin bu və ya digər bir leksik vahidin hər hansısa bir dildə düzəltmə, yaxud da mürəkkəb söz-leksik vahid kimi çıxış etməsi həmin mə f umların dilimizdə də quruluş etibarilə mənbə dildə olduğu kimi işlənməsi demək deyil və o anlama gəlməz. Azərbaycan dili müstəqil, iltisaqi dil kimi özünün zəngin fonetik, leksik, qrammatik sistemi var. Dilimizə keçən alınma mənşəli sözlər də bu sistemlərlə tənzimlənir, dilimizin fonetik tərkibinə uyğunlaşdırılır. Bu məqamda Azərbaycan dilində işlənən *–saz,-pərəst,-namə,-fəşan,-bənd, -xor və s.* kimi Ərəb-fars mənşəli şəkilçiləri yada salmaq kifayətdir. Bu şəkilçilər də mənbə dildə müstəqil sözlər kimi işlənir. Amma dilimizin fonetik-qrammatik quruluşuna əsasən dilimizdə şəkilçi funksiyasını daşıyır. Bu nöqte-

yi-nəzərdən *–tele* və *-tele* kimi alınma budaq morfemlərin heç bir fərqi yoxdur. *–tele* ön şəkilçisi həm alınma, həm də milli mənşəli sözlərə qoşularaq əsasən düzəltmə sözlər, neologizmlər əmələ gətirir. Bu şəkilçi əsasən məhsuldardır və dilimizdə elmi-texniki tərəqqinin, ictimai-siyasi inkişafa əlaqədar olaraq çoxlu sayda yeni mənalı sözlər düzəldir. Məsələn: *teledebat, telejurnalist, telesiqnal, telequrğu, televeriliş, teleölçü, teleölçmə, teleötürücü, telemərkəz, telemüəllim, telekörpü, teleqəbuledici teleoperator və s.*

-yat. Bu şəkilçi demək olar ki, Müasir Azərbaycan dilində işləkliyini itirmişdir. Rus mənşəli olan şəkilçi qoşulduğu sözdə əşya, proses, ictimai quruluş, hadisə çaları yaradır. Məsələn: *oktyabryat, parselyat və s.*

-ioner. Şəkilçi əlavə olunduğu sözdə şəxs, əşya, vəzifə, sənət-peşə mənasın ifadə edir. Mənbə dildən fərqli olaraq dilimizdə sözdüzəldicilik funksiyasına malikdir. *–çı,-çi,-çu,-çü* şəkilçisi ilə qrammatik sinonimlik təşkil edir. Müasir Azərbaycan dilində həm şəkilçi, həm də bu şəkilçi vasitəsilə əmələ gələn sözlər arxaikləşməyə doğru inkişaf prosesini keçirir. Şəkilçiyə *"milisioner"* sözündə rast gəlinir. Məsələn: *Növbətçi milisioner əlində səhər yeməyi içəri daxil oldu.(İ.Şıxlı), Növbətçi milisioner qapıda göründü.(İ.Şıxlı), Milisionerlər çobanı itələyib içəri saldılar və barmaqları tətikdə arxada dayandılar.(İ.Şıxlı) və s.*

-for. Şəkilçi yunan mənşəli olub, *"foros"* sözü əsasında əmələ gəlmişdir. Yunan mənşəli **"foros"** azərbaycanca **"daşıyıcı"** mənasını bildirir. **–for** şəkilçisi isə dilimizdə **"foros"** sözünün mənasının daralması, şəkilçiləşməsi nəticəsində yaranmışdır. Müasir Azərbaycan dilində bu qəlib əsasında milli və alınma mənşəli olmasından asılı olmayaraq onlarla

yeni söz düzəlmişdir. Məsələn: *bazarkom, ortabab, Pərizad, qolbaq, sağdış və s.*

-for şəkilçisi *"işıqfor"* sözünün tərkibində işlənir, mənası *"işıq daşıyıcısı"* deməkdir. Vaxtilə bu söz *"svetofor"* şəklində işlənmişdir.

II FƏSİL

FEİL DÜZƏLDƏN QEYRİ-MƏHSULDAR ŞƏKİLÇİLƏR VƏ MÜASİR AZƏRBAYCAN DİLİNDƏ SÖZ-ŞƏKİLÇİLƏRİN İŞLƏNMƏ MƏQAMLARI

2.1. ADLARDAN VƏ FEİLLƏRDƏN FEİL DÜZƏLDƏN QEYRİ-MƏHSULDAR ŞƏKİLÇİLƏR

Feil düzəldən qeyri-məhsuldar şəkilçilər də həm milli, həm də alınma mənşəli sözlərə qoşularaq yeni sözlər düzəldir. Bu şəkilçilər daha çox isim, sifət və feildən feil əmələ gətirir. Dilimizdə işlənən qeyri-məhsuldar fel düzəldən şəkilçilər əsasən aşağıdakılardan ibarətdir:

-ıx,-ix,-ux,-üx. Feildən feil düzəldən qeyri-məhsuldar şəkilçi olub, təsirli və təsirsiz feillərdən təsirsiz feil düzəldir. Qoşulduğu sözdə hal, vəziyyət çaları yaradır. Məsələn: *donuxmaq, soluxmaq, buruxmaq, cumuxmaq və s.*

-ı,-i. Həm milli, həm də fars mənşəli sözlərə, xüsusən də, birhecalı sifətlərə əlavə olunub təsirsiz feil əmələ gətirir. Məsələn: *qartımaq, təngimək, avazımaq, ləngimək, bərkimək, acımaq, qazımaq,* köpəşimək, *boyatımaq, yerimək, genimək, turşumaq və s.*

-rən. Qeyri-məhsuldar olan bu şəkilçiyə dilimizdəki *iyrən(mək)* sözündə təsadüf olunur.

-şır. Şəkilçi *–ış+ır* modeli əsasında yaranmışdır. Təsirli feil əmələ gətirən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *Tapşırmaq (müqayisə edin: tapşırmaq-tap+ış+ır(maq))*

-alı,-əli. Feillərin sonuna qoşulmaqla zaman mənalı feli bağlama əmələ gətirir. *–anda,-əndə* şəkilçisinin sinonimi kimi çıxış edir. Məsələn: *yazalı, gələli, güləli, qaçalı, düşəli, verəli, səpəli və s.*

-imsə, -ümsə. Bu şəkilçi dilimizdə əvəzlik və felə qoşulub yeni mənalı feil düzəldir. Məsələn: *mənimsəmək, gülümsəmək; O, qabaqdakı yoldan çox güzgüdə gülümsəyən Şahnaza, onun qaynar gözlərinə baxırdı.(İ.Şıxlı)*

-cala. Feildən feil düzəldən qeyri-məhsuldar və quruluşca mürəkkəb olan söz- şəkilçidir. Bu şəkilçiyə müasir Azərbaycan dilindəki *"ovcalamaq"* sözündə təsadüf olunur. Qoşulduğu sözdə *-xala və -uşdur* şəkilçisinin ifadə etdiyi semantikanı yaradır: *Ovxalamaq-ovuşdurmaq-ovcalamaq.*

-ala, -ələ. Müasir Azərbaycan dilində əsasən, sonu samitlə bitən birhecalı feillərə artırılaraq təsirli feillər əmələ gətirir. Məsələn: *qovalamaq, səpələmək, eşələmək, ovalamaq və s. Silkələnən budaqlardan tozlu yola dolu kimi qoz səpələndi.(İ.Şıxlı)*

Şəkilçiyə Qədim türk yazısı abidələrinin dilində də təsadüf olunur. Qoşulduğu sözdə sürəklilik, intensivlik çaları yaradır. Məsələn: "boşan <<boşanmaq, azad olmaq>>-boşanala(MÇ 19) <<azad olmaq>>".(Bax: 36., 346-347)

-ala, -ələ. Bu şəkilçi yuxarıdakı *–ala,-ələ* şəkilçisinə zahiri cəhətdən bənzəsə də, semantik cəhətdən ondan əsaslı şəkildə fərqlənir və omonimlik keyfyyətinə malikdir. *–ala,*-ələ şəkilçisi **qovalamaq, səpələmək** və s. kimi sözlərin tərkibindəki *–ala,*-ələ şəkilçilərdən fərqli olaraq isimlərin sonuna artırılır və yeni mənalı feil əmələ gətirir. Məsələn: *üst+ələ(mək), çis+ələ(mək), qom+ala(maq). Çəkilir qasırğa, dağılır duman; Yağış çisələyir, səngiyir tufan. (R.Məcid)*

-əclə. Quruluş etibarı ilə mürəkkəb olan və təsirli feil əmələ gətirən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *Döyəcləmək. Hər yüzün altında min biri yatır; Dolu döyəcləyir, leysan selləyir.(R.Məcid), Barmaqlarım döyəclədi telefonun düymələrin.(R.Məcid)*

-an,-ən. Qeyri-məhsuldar omonim şəkilçilərdəndir. Dilimizdə *-an,-ən* söz-şəkilçisi vasitəsilə həm isim, həm feil, həm də feli sifət düzəlir. Feil düzəldən şəkilçi kimi təqlidi sözlərə və bəzi feillərə artırılıb təsirsiz feillər əmələ gətirir. Məsələn: *hıqqanmaq, hikkənmək, küsənmək, dadanmaq, hoppanmaq və s. Kənardan baxanlar küsəndi bizə; Bəlkə də bəxtəvər dedilər o gün. (B.Vahabzadə)*

-sun. İşlənmə dairəsi məhduddur. Dilimizdə *doluxsunmaq, umsunmaq* sözlərində rast gəlirik.

-n. Təsirli feillərdən təsirsiz feil düzəldən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *sallanmaq, tullanmaq, bağlanmaq* və s.

-ümsün,- msın. Dilimizdəki dördvariantlı *–sın* şəkilçisi ilə bir mənbədən olub, təsirsiz feil əmələ gətirir. Məsələn: ***gülümsünmək, ağlamsınmaq və s.*** *Ömər koxa gülümsündü və nəzərə çarpmadan eyvana qalxıb otağına keçdi. (İ.Şıxlı), İmran acı-acı gülümsündü: "Zalım oğlu gör nə fkirləşib, qapı-bacasını necə də güdür".(İ.Şıxlı)*

-aş,-ş. Feildən feil düzəldən qeyri-məhsuldar omonim şəkilçidir. Məsələn: *mələşmək, qaynaşmaq, tutaşmaq.* Artırıldığı sözdə daha çox birgəlik, müştərəklik, qoşalıq məzmunu ifadə edir.

Durmuşam buludlar qaynaşan yerdə,
Döyür alaçalpo üzümə mənim.
Qışda baldırıma qar çıxan yerdə
Yazda gül çıxacaq dizimə mənim... (A.Laçınlı)

-naş,-nəş. Təsirsiz feil əmələ gətirir. Güman ki, şəkilçinin tərkibindəki *–n* felin qayıdış növünə məxsus morfoloji əlamət olub, şəkilçi daxilində daşlaşmışdır. Dilimizin hazırkı mərhələsində *-naş,-nəş* kimi sabitləşmişdir. Məsələn: *gərnə*şmək, tıxnaşmaq. *Tələsik uzunboğaz xrom çəkmələrini geyindi, naqanını şalvarının cibinə qoyub gərnəşdi.(İ.Şıxlı), O, ayaq tappıltısını eşidib gözlərini açdı və bərkdən gərnəşdi.(İ.Şıxlı)*

-əzi. Bu şəkilçi bir hecalı öl(mək) sözünə artırılmaqla, dilimizdəki *zəifəmək, sönmək sözlərinin* sinonimi olan *ölə-zimək* sözünü yaratmışdır. Məsələn: *Ocağını sönməyə, çırağını öləziməyə qoymaram.(İ.Şıxlı)*

-nux. Demək olar ki, işləkliyini itirməkdədir. Şəkilçiyə dilimizdəki *vurnuxmaq* sözündə rast gəlirik. Məsələn: *Səməd vurnuxmaqda idi.(İ.Mahmud), Cavanşir vurnuxdu.(*İ. Şıxlı).

-**lat,-lət**. Şəkilçi iki komponetdən ibarətdir: adlardan feil düzəldən *–la,-lə* şəkilçisi ; növ və təsirsiz feildən təsirli feil yaradan şəkilçi. Təhlil zamanı bu şəkilçiləri bir-birindən ayırmaq olmaz. Çünki həm söz məna vermir, həm də sözə məsdər şəkilçisi artırmaq olmur. Bu tip sözlər dilimizdə azlıq təşkil edir. Məsələn: *aydınlatmaq, çirklətmək, bahalatmaq, yüngüllətmək və s.*

Lakin istisna hallar da var ki, bu da özünü daha çox isimdən düzəllən feillərdə özünü göstərir.

Məsələn: *baş-başla(maq)-başlat(maq), qol-qollamaq-qollatmaq, göz-gözlətmək-düz-düzləmək-düzlətmək, ayaq-ayaqlamaq-ayaqlatmaq, sap-saplamaq-saplatmaq və s.* Qeyd edək ki, hər iki halda yaranan feillər təsirlilik kateqoriyasına aid olur.

-xan. Təsirli feildən təsirsiz feil əmələ gətirən qeyri-məhsuldar söz-şəkilçidir. *–xa* və *-n*(qayıdış növ şəkilçisi) şəkilçilərinin sintezi əsasında yaranmış və dilimizdə *-xan* kimi sabitləşmişdir. Məsələn: *yayxanmaq.*

-xın. *–xan* şəkilçisi ilə bir mənbədən olub, eyni semantik çalara malik leksik vahid əmələ gətirir. Bu şəkilçi də təsirli felə qoşulmaqla təsirsiz feil yaradır. Məsələn: *yayxınmaq*

-ırğa. İsmə qoşulub təsirli feil düzəldən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *yadırğamaq* .

-ürgə, (-rgə). Dilimizdə *"üşürgələnmək"* sözündə rast gəlinir. Məsələn: *Birdən bədəni üşürgələndi*.(İ.Şıxlı), *Çapıq Əmrah bunları yadına saldıqda üşürgələndi.(.İ.Şıxlı)*

-**qır,-kür,-ür,-xur**. Qeyri-məhsuldar şəkilçi kimi tədricən işləkliyini itirməkdədir. "Hönkürmək" sözündə artıq daşlaşmışdır. Məsələn: *Həmin bu çəmənliklərdə ocaq qalayıb çörək qızdırar, qırov düşəndə əlini hovxura-hovxura dana-buzov dalınca qaçardı.(İ.Şıxlı), Qoca çinarın dibindəki daşın üstündə otuaraq əlləri ilə üzünü örtüb astadan hönkürdü.(İ.Şıxlı).*

Şəkilçi haqqında tədqiqatçı A.Ağalarov yazır: "Bu şəkilçi dilimizdə tarixən işlənmiş şəkilçilərdən olub. Hazırda bəzi təqlidi sözlərə qoşularaq təsirsiz fel düzəldir. Məsələn: fışqır(maq), püskür(mək), üfür(mək), hovxur(maq)".(7.,28). Nümunələrdən də göründüyü kimi, tədqiqatçının "...təqlidi sözlərə qoşularaq təsirsiz fel düzəldir" fkri ilə razılaşmaq olmaz. Çünki **püskür(mək), üfür(mək),** kimi sözlər obyekt, xüsusən də, qeyri-müəyyənlik bildirən təsirlik halda olan obyekt tələb etdiyindən təsirli feil hesab olunmalıdır. Məsələn: *Nanəciblər fürsət tapıb kül üfürdü gözümüzə, doğma yurdum!(V.Dumanoğlu)*

-z. Bu şəkilçi təsirsiz feldən təsirli feil düzəldən şəkilçi olub, *-t* şəkilçisi ilə sinonimlik təşkil edir. Məsələn: *bərk+i+mək-bərk+i+z+mək, bərk+i+mək-bərk+i+t+mək.*

-sın,-sin,-n.Adlardan feil düzəldən qeyri-məhsuldar şəkilçidir. Dilimizdəki *tamsın(maq), diksin(mək)* sözləri bu şəkilçi vasitəsilə düzəlib. Məsələn: *Arvad diksindi.(İ.Şıxlı), Zeynəb diksinib geri çəkildi.(*İ.Şı*xlı) , Ömər koxa diksindi, at da at da ayağı ilə yeri eşib kişnədi.(İ.Şıxlı) və s.*

-sun,-sut. Şəkilçi dilimizdəki dördvariantlı *–sın* şəkilçisi ilə bir mənbədən olub, eyni quruluşa malikdir. *–n və -t* şəkilçisi növ kateqoriyasının morfoloji göstəricisi çıxış edir. Şəkilçinin tərkibində daşlaşdığı üçün tərkibcə bir yerdə götürülür. Məsələn: *umsunmaq, umsutmaq və s.*

Sağ ol, Qulamrza Səbri Təbrizi!
Qışın ortasında umsutdun bizi! (V.Aslan)

-ız,-iz,-uz,-üz. Bu şəkilçi təsirli və təsirsiz feillərə qoşularaq yenidən təsirli feil əmələ gətirir. Məsələn: *qalxızmaq, uduzmaq, qorxuzmaq və s.* Dilin tarixi inkişaf mərhələsinin ilkin dövrlərində də bu şəkilçiyə rast gəlmək mümkündür. Hət a Orxon-Yenisey abidələrinin dilində də işlənmişdir. Bu münasibətlə prof. Ə.Rəcəbli yazır: “Qədim türk yazısı abidələrinin dilində feildən feil düzəldən bu şəkilçi qeyri-məhsuldar işlənir; bu şəkilçi ilə əmələ gələn iki feil məlumdur: tut(tutmaq) – tutız(KT ş 38) <<tutdurmaq>>, ud <<təqib etmək, ardınca aparmaq>> –udız(T 5) <<təqib etdirmək, ardınca apartdırmaq>>. İki əvvəlki şəkilçi kimi (-tır,-lqe ɹ ?

-ızdır,-izdir,-uzdur,-üzdür. Mürəkkəb struktura malik olub, dilimizdəki dördvariantlı *–ız* və *-dır* şəkilçilərinin sintezi əsasında formalaşmışdır. Dilimizdəki çimizdirmək, baxızdırmaq, *qaçızdırmaq, batızdırmaq, dadızdırmaq, içizdirmək, əmizdirmək, tutuzdurmaq, yatızdırmaq və s.* sözlərdə rast gəlinir. Onun haqqında dilçilikdə müxtəlif fkirlər söylənilmişdir. A.Ağalarov yazır ki, "çox halda bu şəkilçi (*-ız,-iz,-uz,-üz şəkilçisi nəzərdə tutulur-* İ.Ə) qoşulmuş feillərə *-dır,-dir* şəkilçi də artırılır; məsələn: *damızdır(-maq), əmizdir(mək)*".(7.,31) Lakin dilimizin lüğət tərkibində müstəqil leksik mənaya malik *damız(maq) və əmiz(mək)* sözləri yoxdur. Məhz buna görə də, "*-ız,-iz,-uz,-üz* şəkilçisi ilə düzələn təsirli feillər müstəqil yox, *-dır,-dir,-dur,-dür* şəkilçisinin əlavəsi ilə işlənir və bu, felin ümumi məzmununa xələl gətirmir: *çimizdir, əmizdir, baxızdır və s.*(51.,131-132). Bəzi sözlərin tərkibində daşlaşdığı üçün kök və şəkilçiyə ayrılmır. Məsələn: *gətizdirmək, otuzdurmaq.*

Nadir halda şəkilçinin *–duzdur,-dizdir* variantlarına rast gəlinir. Məsələn: *yuduzdur(maq), dedizdir(mək), yedizdir(mək) və s.*

-ğuz. Bu şəkilçi də dördvariantlı *–ız və -ızdır* şəkilçisi ilə kökdaşdır. Təsirsiz feildən təsirli feil əmələ gətirir. Məsələn: *durğuzmaq.* Nümunələrdən də göründüyü kimi, həm *–ız,-iz,-uz,-üz***,** həm də *-ızdır,-izdir,-uzdur,-üzdür, –duzdur,-dizdir,* həm də ki *–ğuz* sözdüzəldici şəkilçiləri əsasən bir hecalı feillərə, kök feillərə əlavə olunaraq yeni mənalı leksik vahidlər-feillər düzəldir. Şəkilçilər arasındakı bu oxşarlığa baxmayaraq onlar arasında fərq də vardır. Məsələn, *-ızdır,-izdir,-uzdur,-üzdür,* şəkilçisi əsasən, örtülü-qapalı və örtüsüz-qapalı hecadan ibarət sözlərə, *–duzdur,-dizdir* şəkilçisi isə örtülü-açıq hecalı sözlərə qoşulur.

-qun. Müasir Azərbaycan dilində təsirli feildən təsirsiz feil əmələ gətirən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *udqun(maq), Cavanşir udqundu.(İ.Şıxlı)*

-xul. Bu şəkilçi əslində iki budaq morfemin birləşməsindən yaranmışdır. Tərkibcə təsirsiz feil düzəldən *–ux* və növ düzəldən *–ul* şəkilçilərindən ibarətdir. Müasir dilimizdə *burxulmaq* sözündə rast gəlinir. Eliziya hadisəsi nəticəsində **-ux** şəkilçisindəki "u"saiti düşmüşdür. Məsələn: *bur (maq)-burux(maq)-burxul(maq).*

-dar, -dər. Təsirsiz feillərin sonuna artırılmaqla təsirli feil əmələ gətirən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *qondar(maq), döndər(mək) və s.*

-ıt,-it,-ut,-üt. Təsirsiz feillərin sonuna qoşulmaqla təsirli feillər əmələ gətirir. Məsələn: *axıtmaq, yavaşıtmaq, hürkütmək, qorxutmaq, qurutmaq və s.* Dilimizdəki *dağıtmaq, arıtmaq* sözlərində artıq –ıt şəkilçisi daşlaşmışdır.

-xa. Təsirsiz feil düzəldən, bir cür yazılan qeyri-məhsuldar şəkilçidir. Məsələn: *çalxa(maq).*

Çalxalandıqca zaman nehrə kimi,
Yağı yağ üstdə çıxır, ayranı ayranlıq olur.
(M.Ə.Sabir)

-xala. Stukturca mürəkkəb olan qeyri-məhsuldar söz-şəkilçidir. *–xa və -la* şəkilçiləri əsasında yaranmışdır .Qoşulduğu sözdə hal-vəziyyət məzmunu yaradır. Məsələn: *ovxalamaq, çal+xa+la(maq). Barmaqlarını, topuğunu ovxaladı.(İ.Şıxlı), Şüşələr az qaldı ovxalanıb* tökülsün.(İ.Şıxlı)

-ta. Sifətdən və feildən feil düzəldən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *toxtamaq, yontamaq*

-**dala.** Şəkilçiyə dilimizdəki *“basdala(maq)”* sözündə rast gəlirik. Təsirli feillərin sonuna qoşulmaqla təsirli feil əmələ gətirir. **–tala, –dala** şəkilçisi ilə eyni semantik çalara malik olub, sinonimlik key f yyətinə malikdir. Şəkilçi *–da/-ta və -la* şəkilçisinin sintezi əsasında əmələ gəlmişdir. Şifahi danışıq dilində *-ta/-da* kimi işlənsə də, ədəbi dilimizdə *-tala* kimi sabitləşmişdir. Məsələn: ***bastala(maq)***

-rla. *–ar+la* şəkilçisi əsasında yaranmış qeyri-məhsuldar şəkilçidir. Eyni zamanda təsirlilik bildirir və adlardan feil düzəldən *–la-lə* şəkilçisinin əmələ gətirdiyi semantik çaları ifadə edir. Məsələn: ***Basmarla(maq), budarla(maq), toparla(maq).*** *Qəribə idi, başqa vaxtlar zəncirdən açılmış kənd itləri doqqazda bir qaraltı görən kimi atılıb hücuma keçir, az qalırdı, qabaqdakını süpürləyib* ***basmarlasınlar.***(İ.Şıxlı), *Niftalı koxa elə yəhərin üstündən onu* ***budarladı.*** (İ.Şıxlı). *Uşağı qamçı ilə* ***budarladı.(İ.Şıxlı).*** Hər iki söz saitlə bitdiyi üçün şəkilçinin ***(-arla)*** tərkibindəki birinci sait *(a)* eliziya hadisəsi nəticəsində düşmüşdür. Buna görə də şəkilçi dilimizdə *-rla* kimi sabitləşməkdədir.

-la. Bu şəkilçi dilimizdə məhsuldar olub, adların sonuna əlavə olunmaqla çoxlu sayda feil düzəldir. Məsələn: *qollamaq, başlamaq, bizləmək, qulaqlamaq, dişləmək, gözləmək, ayaqlamaq, xərcləmək və s.* Lakin istisna hal kimi *–la* şəkilçisi feildən feil də əmələ gətirə bilir. Məsələn: ***yontalamaq, budalamaq.***

Qeyd: *Güman ki, adlardan feil düzəldən –la-lə şəkilçisi hansk* [illegible] *f*

kökü olan "buda"(maq) dilin tarixi inkişafının müəyyən mərhələsində əşya məzmunlu "budaq" sözündəki "q" samitinin düşməsi nəticəsində yaranmışdır. Sözlər arasındakı yaxınlıq da onların semantikasında olan bağlılıqdan irəli gə*lir: -budaq-budaqla(maq)-budala(maq)-buda(maq)-budan(maq)-budat(maq)-budatdır(maq). Sözlərin leksik mənaları da bilavasitə "budaq" sözü ilə əlaqədardır.*

-arğala. Bu şəkilçi ismin sonuna qoşulmaqla feil əmələ gətirərək *–arla və -ala* şəkilçilərinin yaratdığı semantikanı ifadə edir. Şəkilçi dilimizdə işləkliyini itirmək üzrə olub *–arla* kimi sabitləşməyə doğru keçid prosesindədir. Məsələn: *qomarğalamaq. Amma onu qomarğalayıb* dərənin qaşına gətirdilər.(İ.Şıxlı), Naxırı *qomarğalayıb qabağına qatırdı.(İ. Şıxlı), Bir həftədən sonra şəhərdən tökülüşüb gəldilər. Şəmistan ağanın evini qomarğaladılar. Kişini tapa bilmədilər.(İ.Şıxlı).*

-sa,-sə. Əsasən, adlara əlavə olunaraq feil düzəldir. Qeyri-məhsuldar şəkilçi olsa da, qədim və orta dövr ədəbi nümunələrinə aid materiallarda bu şəkilçi ilə düzəlmiş leksik vahidlərə rast gəlmək mümkündür. Müasir Azərbaycan dilində *qəribsə(mək), susa(maq), kifsə(mək)* kimi sözlərdə təsadüf olunur. Məsələn: *Mürsəl bir həftə qəribsədi;yaman qəribsədi.(İ.Şıxlı)*

-sı,-si. Adlardan feil düzəldən qeyri-məhsuldar omonim şəkilçidir. Məsələn: *tamahsımaq, quraqsımaq, kifsimək, qəribsimək, qaxsımaq və s. –sı,-si* şəkilçisi müasir Azərbaycan dilində bəzi sözlərdə təqribən *–lan,-lən* şəkilçisinin qrammatik sinonimi kimi çıxış edir və artırıldığı sözdə hal-vəziyyət, şərait, istək və s. çalarlar ifadə edir. Məsələn: *Xanpərinin sahəsi selləmə sulandığı üçün isti günlərdə dərhal quraqsıyırdı. (*Ə.Vəliyev*).*

-sən,-sət. *–sa,-sə* şəkilçisinin əsasında yaranmışdır, *-n və -t* növ kateqoriyasının morfoloji göstəricisidir. *"Görmək"* felindən *"görsənmək" və "görs*ətmək" feillərini əmələ gətirir. Məsələn: *Uşağı Güllü xanıma görsətdi.* (İ.Şıxlı)

-na,-nə. Bir qrup təqlidi sözlərə və feillərə artırılaraq təsirsiz feil düzəldir. Məsələn: *kişnə(mək), qısna(maq),* cırna(maq), *çaxna(maq) və s. Həmin yelərdə mal-qar otlayar, at kişnəyər, buğa heykirərdi.(İ.Şıxlı), Sahibini belində hiss edən kəhər kişnədi və cığırla birbaş sahilə endi.(İ.Şıxlı)*

-var. Dilimizdə söz-şəkilçi kimi işlənir. İsimdən təsirli feil düzəldən qeyri-məhsuldar şəkilçidir. Məsələn: **s***uvarmaq*

Qeyd edək ki, morfologiyaya dair bəzi tədqiqatlarda "suvar" sözü "sufar" şəklində verilir. Prof. H.Mirzəzadə şəkilçini *–var* kimi deyil, *-ar,-ər* kimi izah edir. (bax: 39.,212-213) Professor, Mahmud Kaşğarinin "Divani-lüğatit Türk" lüğətinə istinadən yazır ki, tarixən *"su"* sözü *"suf"* şəklində işlənmişdir. Nümunə olaraq da Saib Təbrizinin bu misrasını vermişdir: *Suvardılar* qılıncından məgər gülüstani. Sözün tərkibi əslində *"göyərmək"* sözünün modeli əsasındadır. Lakin müasir Azərbaycan dilində söz kökü-***suf*** işlənmədiyindən və ***su*** kimi sabitləşdiyindən ***f*** samiti ***v*** şəklində şəkilçi daxilində daşlaşmış və sabitləşmişdir. Buna görə də bu sözdə ***v*** samitinin heç bir bitişdirici samit funksiyası yoxdur.

-al,-əl,-l. Nisbətən məhsuldarlığı ilə seçilən bu şəkilçi adların sonuna artırılmaqla təsirsiz feil əmələ gətirir. Məsələn: *ucalmaq, qaralmaq, dincəlmək, incəlmək, köhnəlmək, durulmaq, qısalmaq, çoxalmaq, azalmaq, sağalmaq və s. –al,-əl,-l* şəkilçisi *"ol"* köməkçi felindən törəmişdir. Məsələn:

Ucalmaq-uca olmaq
Qısalmaq-qısa olmaq
Azalmaq-az olmaq
Sağalmaq-sağ olmaq
Çoxalmaq-çox olmaq
İncəlmək-incə olmaq
Qaralmaq-qara olmaq
Durulmaq-duru olmaq
Köhnəlmək-köhnə olmaq və s.

-ar,-ər. İsim və sifətlərdən feil əmələ gətirən nisbətən məhsuldar şəkilçidir. Omonimlik keyfyyətinə malik və quruluşca sadə olan bu şəkilçi əsasən sifətlərdən feil düzəldir. *-al,-əl,-l* şəkilçisində olduğu kimi *–ar,-ər* şəkilçisi də *"ol"* maq köməkçi felinin fonematik yükünü daşıya bilir. Məsələn:

Bozarmaq-boz olmaq
Ağarmaq-ağ olmaq
Göyərmək-göy olmaq
Qoparmaq-qop olmaq
Qızarmaq-qırmızı olmaq
Sararmaq-sarı olmaq
Qararmaq-qara olmaq və s.

-ux. Feildən feil düzəldən *–ux* şəkilçisi ilə omonimlik təşkil edən və isimdən feil düzəldən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *otux(maq).* Təzəcə *otuxmağa başlamış quzular çayın kənarındakı qocaman söyüd ağacının kölgəsində yatışmışdılar.*

-ıx,-ik,-ük,-k,-x. Adlardan feil düzəldən qeyri-məhsuldar omonim şəkilçidir. Məsələn: *darıxmaq, gecikmək, şir-*

nikmək, keyikmək, pisikmək, acıxmaq və s. Məsələn*: Gəlin ,elə bil, keyikmişdi.*(İ.Şıxlı)

Heç bilmədik, ey dost, necə dünyadı, bu dünya,
Şirnikdiyimiz arzudu, sevdadı bu dünya.

(B.Vahabzadə).

...sən baharım olsan belə
Neyləyim ki, gecikmisən.
Gecikmisən, yazıq bülbül,
Bağ-bağçalar xəzan olub...

(B.Vahabzadə).

İstəyirsən ömrüm boyu
Mən darıxım sənin üçün.
Rənginə bax qalıbından çıxan sözün!
Darıxıram,aya, günə sığışmıram.
Darıxıram,
Dünyamızın
Qaydasına, ölçüsünə
Sığışmıram.
Darıxıram
İstəyimə çatmaq üçün.

(B.Vahabzadə)

"Yaman gecikmişəm"-deyə o, fkrindən keçirdi. (İ.Şıxlı).

-şa,-şə,şü. Şəkilçi əsasən mimemlərdən feil düzəldir. Hazırda şəkilçi kimi işləkliyini itirmək üzrə olan qeyri-məhsuldar şəkilçilərdəndir. Dilimizdə bir neçə sözdə təsadüf olunur. Məsələn: *töyşümək,* tövşümək, *dinşəmək və s.*

Alan qabaqda gedir, ayaqlarını asta basır, arabir dayanıb qulaqlarını şəkləyir, ətrafı dinşəyirdi.(İ.Şıxlı), Gecələr də oturub ət-

rafı dinşəmişdi.(İ.Şıxlı), Güllü xanım eyvanın yuxarı başında dayanıb kəndi dinşədi.(İ.Şıxlı)

Tövşüyə-tövşüyə qatar dayandı,
Tapışdıq, görüşdük...
Görüşməyəydik...

(B.Vahabzadə).

"Tövşümək", "töyşümək" kimi sözlərin tərkibində artıq daşlaşmışdır.

-a,-ə. Bu şəkilçi əsasən, adların sonuna artırılmaqla həm təsirli, həm təsirsiz feillər düzəldir. *–a,-ə* şəkilçisi yönlük hal, felin arzu şəkli, feli bağlama şəkilçisi, isimdən isim düzəldən *–a,-ə* şəkilçisi ilə omonimlik key f yyətinə malikdir. Feil düzəldən qeyri-məhsuldar şəkilçi kimi, hal-vəziyyət anlayışını bildirən sözlər düzəldir. Məsələn: *qanamaq, boşamaq, ələmək, yaşamaq, diləmək, oynamaq, bənzəmək və s.*

Şəkilçi qeyri-məhsuldar olmasına baxmayaraq, dilimizdə qədim türk yazısı abidələrininin dilindən üzü bəri işlənməkdədir. "Kitabi-Dədə Qorqud dastanları"nın dilində də bir neçə dəfə işlənmişdir. Məsələn: *Canvərlər sərhəngi dəvədir. Aŋınla dəxi oyınun oynasun, -dedi.(45.,110)*

Bu şəkilçi *"oynamaq", "bənzəmək"* sözlərinə artırıldıqda söz kökündə səs düşümü hadisəsi baş verir. Məsələn: *oyun-oy(u)namaq, bəniz-bən(i)zəmək* .

-ışdır,-işdir,-uşdur,-üşdür, -aşdır,-əşdir,-şdır. Bu şəkilçi "ş" ünsürlü *–ış,-iş,-uş,-üş, -aş,-əş* və *-dır,-dir,-dur,-dür* şəkilçilərinin sintezi əsasında əmələ gəlmiş və mürəkkəb struktura malikdir. Müasir Azərbaycan dilində qeyd olunan şəkilçini bir qrup sözlərdə tərkib hissələrə ayırmaq mümkün olduğu halda, bir qrup sözlərdə bu, mümkün deyil.

Məsələn, *bölüşdürmək, bitişdirmək, didişdirmək, vuruş-durmaq, əmişdirmək, qatışdırmaq, tutaşdırmaq və s.* kimi sözlərdə dördvariantlı *–ışdır* şəkilçisi iki ayrı söz düzəldici şəkilçi funksiyasında çıxış edir. Bu məqamda *–ış,-iş,-uş,-üş,-aş* felin növ kateqoriyasının *-dır,-dir,-dur,-dür* isə, təsirlilik kateqoriyasının morfoloji göstəricisi olub, yeni məzmunlu leksik vahidlər əmələ gətirir.

Bir qrup sözlərdə şəkilçi tərkib hissələrə ayrılmır, birlikdə mürəkkəb şəkilçi kimi götürülür. Bu yolla dilimizdə yaranan sözlər azlıq təşkil etdiyindən *-ışdır,-işdir,-uşdur,-üşdür, -aşdır,-əşdir,-şdır* şəkilçiləri qeyri-məhsuldar şəkilçi hesab olunur, işlənmə dairəsi olduqca məhduddur. Məsələn: **araşdırmaq** Qeyd edək ki, son zamanlar yanlış olaraq "*araşdırmaq*" sözünün tərkibindəki "*ş*" samiti bitişdirici samit kimi götürülür. Dilimizdə mövcud olan *y, n, s* bitişdirici samitləri yanaşı gələn iki sait arasında işlənir. Düzdür, istisna hallarda sait və samit arasında bitişdirici samitlər də işlənə bilir. Bu hal ***o, bu*** əvəzlikərinə samitlə başlanan şəkilçi artırıldıqda özünü daha qabarıq göstərir. Məsələn*: onda, ondan, onlar, onsuz, bundan, bunda, bunlar, bunsuz, bunlu və s.* Lakin *araşdırmaq* sözündə sait və samit arasında işlənən ş samitinin *(əslində -aş şəkilçisinin*) deyildiyi kimi bitişdirici samitlərlə bağlılığı yoxdur. Əslində bu fkrin tərəfdarlarının heç bir elmi əsası və izahı da yoxdur. Fundamental dilçilik ədəbiyyatlarında da "ş" samitinin bitişdirici samit olması haqqında heç bir qeydə rast gəlinmir. Əksinə, "ş" və "ş" ünsürlü sözdüzəldici şəkilçilərin həm tarixi, həm də müasir qrammatikada sözyaratma prosesində kifayət qədər söz əmələ gətirməsinə dair qiymətli faktlar var. Demək olar ki, "ş" samiti dilimizin inki-

şafının bütün mərhələlərində bu və ya digər dərəcədə işlək olmuşdur. Prof. A.Axundov "ş" samiti haqqında yazır: << *"ş" fonemi dilimizdə müxtəlif fonetik mövqələrdə: sözün əvvəlində, ortasında və sonunda sərbəst işlənir. Azərbaycan dilində o, ("ş" samiti nəzərdə tutulur- İ.Ə) hər iki morfoloji mövqedə, yəni kökdə və şəkilçidə (məsələn "ış...", "-mış...") işlənir. Bu fonemin müxtəlif sait və samitlərlə işlənməsind*ə də başqa samitlərlə müqayisədə *elə bir qeyri-adilik yoxdur. O, bütün saitlərdən əvvəl və sonra sərbəst sürətdə işlənir.* "Ş" fonemi *müxtəlif samitlərdən əvvəl işlənməsinə görə də, dilimizin samit fonemləri içərisində mühüm yerlərdən birini tutur.>>(20., 154)*

"Araşdırmaq" sözünün tərkibindəki *"ş"* samitinin bitişdirici samit olmadığını erkən orta əsrlərə aid bədii mətnlər üzərində aparılan müşahidələr, ayrı-ayrı dil faktları da təsdiq edir. Əslində *"araşdırmaq"* sözündəki *–şdır* şəkilçisi *–aş* və *-dır* şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. Söz kökü saitlə bitdiyindən, şəkilçi də saitlə başladığından eliziya hadisəsi baş vermiş və *-aş* şəkilçisindəki *"a"* saiti düşmüşdür: *ara(maq)-ara+aş(maq)-araş+dır(maq).*

Yuxarıda sadaladığımız sözlərdən fərqli olaraq *"araşdırmaq"* sözündəki *–ş* şəkilçisi ayrıca məna vermədiyi üçün və asemantik olduğu üçün *–dır* şəkilçisi ilə birlikdə mürəkkəb qeyri-məhsuldar şəkilçi kimi götürülməlidir. Bu şəkilçi müasir dilimizdə qeyri-məhsuldar olsa da, tarixən daha işlək olmuşdur. Hətta *"araşdırmaq"* sözündəki *–ş* şəkilçisinə olduğu kimi "Kitabi-Dədə Qorqud dastanları"nda da rast gəlmək mümkündür:

Qaranqu axşam olanda güni doğan,
Qar ilə yağmur yağanda ər kibi duran,

Qaraquc atları gördügində ***kişnəşdirən,***
Qızıl dəvə gördügində ***bozlaşdıran,***
Ağca qoyun gördügində quyruq çırpub qamçılayan,
Arqasını urub bərk ağılıŋ ardın sökən,
Qarma-bükəc səmüzin alub tutan,
Qanlu quyruq üzüb çap - çap yudan,
Avazı qaba köpəklərə ğavğa salan,
Çaqmaqluca çobanları dünlə yügürdən,
Ordumuŋ xəbərin bilürmisin, degil maŋa!
Qara başım qurban olsun, qurdum, sañа! - dedi.(45.,41)

Nümunələrdən də göründüyü kimi, *-ş* şəkilçisi dilin tarixinin ilkin mərhələlərində növ şəkilçisi kimi işlənmiş, qayıdış, qismən də məchul növ məzmunu ifadə etmişdir. Dastan dilindən yuxarıda verilən nümunədə müraciət obyekti *"qurd"dur* və feli sifət tərkibləri ilə sadalanan əlamətlər də *"qurd"un* xarakterik xüsusiyyətləridir. *"Atları kişnəşdirmək"* də, *"dəvələri bozlaşdırmaq"* da *"qurd"a* məxsusdur.

-Ş şəkilçisinin tarixən qayıdış növ məzmununu ifadə etməsini prof.Q.Ş.Kazımov da öz tədqiqatlarında təsdiq edir. O, bu münasibətlə yazır: *" –ış şəkilçisinin qarşılıq növ mənasının hələ tam sabitləşmədiyi qədim dövrlərdə bu şəkilçi qayıdış növ mənasına xidmət etmişdir. Odur ki, bu şəkilçi ilə düzələn feillərin bir qismində qayıdış növ mənası, bir qismində işin qarşılıqlı icrası mənası olur."(48.,170)* Müasir dilimizdə bu fakt özünü əsasən, *-laş,-ləş* və qismən də dördvariantlı *–ış* və ikivariantlı *–aş* şəkilçili sözlərdə göstərir. Məsələn:

Qayıdış növ mənalı feillər: *soyuqlaşmaq, işıqlaşmaq, sərinləşmək, qatılaşmaq, isinişmək, çıxışdırmaq, yetişdirmək,*

*ayaqlaşmaq, pisləşmək, istiləşmək, saxtalaşmaq, safaşmaq, kömürləşmək, passivləşmək, aktivləşmək, şoranlaşmaq, köpəşmək, q*əşəngləşmək, soruşmaq,*sıxışmaq* və s.

Qarşılıq-birgəlik növ bildirənlər: *sağ ollaşmaq, vidalaşmaq, dilləşmək, itələşmək, gəzişmək, qaynaşmaq, əmişmək, cütləşmək, vuruşmaq, didişmək, sözləşmək, birləşmək, qucaqlaşmaq, təpikləşmək və s.*

Az bir qisim sözlərdə isə məchulluq bildirir: *bahalaşmaq, ucuzlaşmaq, yodlaşmaq və s.* İşlənmə məqamından asılı olaraq bəzi sözlər həm qayıdış, həm də qarşılıq-birgəlik məzmunu ifadə edə bilir. Məsələn: *bitişmək, gəzişmək* və s. *–ış,-iş,-uş,-üş* şəkilçili sözlər həm təsirli, həm təsirsiz olduğu halda, *-laş,-ləş* şəkilçili sözlər təsirsiz feillərdən ibarət olur.

Çox funksiyalı *–ış,-iş,-uş,-üş* şəkilçisi tarixən məsdər şəşilçisinin əvəzində də işlənmişdir. Bu hala *"Kitabi-Dədə Qorqud dastanları"nın* dilində rast gəlinir: ***Babaŋ dedi, ke-***

də şəkilçi tərkibində daşlaşmış formada işlənir. Çaxnaşmaq, gərnəşmək, *tıxnaşmaq* (Bunlar da əsasən qayıdış növ məzmunu ifadə edir.) sözlərinin tərkibində şəkilçi daxilindəki *–ş* ünsürü də *ovuşdurmaq, tıxışdırmaq, quraşdırmaq, çırpışdırmaq və araşdırmaq* sözlərindəki **–ş** ilə eyni mənbədəndir. Orta əsrlərə aid mətnlərdə bu şəkilçinin işlənməsi də fkrin dolğunluğunu təsdiq edən əsas mənbələrdən biridir. Məsələn, *-aş* şəkilçisinə *"araşmaq"* sözünün tərkibində XVI-XVII əsrlərdə yaşayıb-yaratmış Əlican Qövsi Təbrizinin "Divan"ında da təsadüf olunur. Bu şəkilçi Q.Təbrizinin 8 beytdən ibarət olan və *"Bu yetməzmi ki, seylabi-bəla başimdən aşıbdır; Ki, mövci-əşk həm zənciri-ahəngtək dolaşıbdır"* mətləli qəzəlinin məqtə beytində aşağıdakı formada işlənmişdir. (bax: Qövsi Təbrizi.Seçilmiş əsərləri. Bakı-2005. Səhifə 74-75)

Kimin kim, eşq bağlar əl-ayağın d*axi açılmaz,*
Bu müşkül mənini çox kimsədən Qövsi araşıbdır.

Nümunədən də göründüyü kimi, *"araş(maq)"* sözü tarixən də *soruşmaq, axtarmaq, soraqlamaq, soraqlaşmaq, xəbər almaq, məlumat almaq və s.* kimi mənalarda işlədilmişdir. Eyni zamanda *–aş* şəkilçisinin mətndə yaratdığı semantikada hələ də qayıdışlıq məzmunu qalmaqdadır. Müasir dilimizə doğru inkişaf etdikcə isə, tədricən işləkliyini itirmişdir, məhdud dairədə işlənir. *–aş,-ş* sözdüzəldici şəkilçisi vasitəsilə əmələ gələn sözlərin bir qismi birgəlik (*tutaşmaq, mələşmək*), bir qismi isə konkret mətndaxili situasiyadan asılı olaraq həm birgəlik, həm də qayıdışlıq məzmununa malik olur (*qaynaşmaq*). **Müqayisə edin**: *1. Adamlar stansiyada qaynaşırdılar.(A.Səhhət) 2. Uşaq elə bil civədir, səhərdən*

axşama kimi qaynaşır. Görünür, dilin tarixinin ilkin mərhələlərində *-aş,-ş* şəkilçisi omonimlik keyfiyyətinə malik olmuş, həm qayıdış, həm də birgəlik növün morfoloji şəkilçisi kimi çıxış etmişdir. Bu xüsusiyyət hətta müasir dil nöqteyi-nəzərindən kök daxilində daşlaşmış bəzi sözlərdə özünü daha qabarıq şəkildə göstərir. Məsələn, *"tərpəşmək, öyrəşmək"* kimi sözlərdə hər nə qədər qayıdışlıq varsa, *"daraşmaq"* sözündə bir o qədər birgəlik məzmunu vardır. Bu məqamda *"Tərpəşmək, öyrəşmək"* sözlərinin tərkibindəki *–ş* budaq morfemi qayıdışlıq məzmunu əmələ gətirən *–n* budaq morfeminin tam sinonimi kimi çıxış edə bilir. Məsələn: *tərpəşmək-tərpənmək, öyrəşmək-öyrənmək.*

Quraşmaq və araşmaq sözləri hazırda işlənməsə də, orfoqrafya lüğətində öz varlığını qoruyub saxlamaqdadır. Qeyd olunan bu leksik vahidlərin həm şifahi, həm də yazılı nitqdə obyekt tələb etməsi *–aş,-əş,-ış,-iş,-uş,üş* şəkilçisi ilə deyil, dilin tarixi inkişafının sonrakı mərhələsində sözlərin əsasına artırılan, təsirlilik kateqoriyasının morfoloji göstəricisi olan və icbar növ feillərin əmələ gəlməsində iştirak edən şəkilçilərlə omonimlik xüsusiyyəti daşıyan *–dır,-dir,-dur,-dür* sözdüzəldici şəkilçiləri ilə əlaqədardır. *–dır,-dir,-dur,-dür* şəkilçilərinin də dilimizdə nə vaxtdan işlənməsi, yuxarıda göstərilən sözlərə qoşulması haqqında konkret fikir və nümunə söyləmək mümkün deyil. Şəkilçinin dilimizdə işlənmə tarixi olduqca qədimdir. *"Kitabi-Dədə Qorqud dastanları"nın, "Dastani-Əhməd Hərami"nin* dilində kifayət qədər işlənən bu şəkilçiyə hətta qədim türk yazısı abidələrinin dilində də *-tır,-tir,-tur,-tür* formasında təsadüf olunur. Qədim türk yazısı abidələrinin dilini tədqiq edən, Orxon-Yenisey abidələrinin dili üzərində araşdırma-

lar aparan tədqiqatçı alim prof.Ə.Rəcəbli bu münasibətlə özünün "Qədim türk yazısı abidələrinin dili" adlı kitabında yazır: "Bu şəkilçi də *(-tır,-tir,-tur,-tür şəkilçisi nəzərdə tutulur-İ.Ə)* təsirli feillərdə təsirliliyi qüvvətləndirir, təsirsiz feillərdən təsirli feillər düzəldir; məsələn:

yan<< qayıtmaq >>-yantur (T45) qaytarmaq;
kon <<qonmaq>>-kontur (KT ş 21) qondurmaq;
kəl <<gəlmək>>-kəltür (T 54) gətirmək;
ağ <<qalxmaq>>- ağtur (T 25) qaldırmaq və s.".(36.,511)

Araşdırmaq sözü hə t a müasir Türkiyə türkcəsində "*araştırmaq*" şəklində işlənməkdədir.

2.2. DİALEKT VƏ ŞİVƏLƏRİMİZDƏ SÖZ YARADICILIĞI

Ədəbi dilimizdə olduğu kimi, dialekt və şivələrimizdə də morfoloji yolla söz yaradıcılığı olduqca zəngin və rəngarəngdir. Ədəbi dilimizdə işlənən sözdəyişdirici və sözdüzəldici şəkilçilər dialektlərimizdə bu və ya digər dərəcədə işlənməkdədir. Hə t a bəzi məqamlarda şəkilçilərin müxtəlif variantlarına, ədəbi dildə olmayan qarşılıqlarına da təsadüf olunur. Belə şəkilçilərin içərisində qeyri-məhsuldar şəkilçilər mühüm əhəmiyyət kəsb edir.

Dialekt və şivələrimizdə də qeyri-məhsuldar şəkilçilər mənşə və işlənmə etibarı ilə bir-birindən əsaslı şəkildə fərqlənir. Ədəbi dildə hamı tərə f ndən işlədilən və başa düşülən şəkilçilərlə müqayisədə dialekt və şivələrimizdə işlənən şəkilçilərin əhatə dairəsi olduqca məhdud olub, məhəlli xarakter daşıyır. Müəyyən bir coğra f arealda istifadə olunan morfem başqa bir coğra f arealda işlədilməyə bilər. Belə şəkilçilərin ədəbi dildə əsasən qarşılığı olur.

Canlı danşıq dili və ayrı-ayrı dil faktları üzərində aparılan müşahidələr onu göstərir ki, bu qrupa aid morfemlərin böyük bir hissəsini əsasən, milli və rus mənşəli şəkilçilər təşkil edir və bu şəkilçilərin içərisində də isim və sifət düzəldənlər daha çox nəzərə çarpır.

Bizim dialekt və şivələrə aid verdiyimiz qeyri-məhsuldar şəkilçilər bu qrupa daxil olan şəkilçilərin müəyyən bir hissəsini əhatə edir və əsasən aşağıdakılardan ibarətdir:

-noy. Bu şəkilçi rus dilindən keçmişdir. Şifahi danşıq dili üçün xarakterikdir. Yazılı dilimizdə rast gəlinmir. Dilimizdəki dördvariantlı *–li* şəkilçisinin, qismən də *-xana* şəkilçisinin sinonimidir. Qoşulduğu sözdə əlamət, keyfyyət, yer, məkan çaları əmələ gətirir. Məsələn: *spirtnoy, pivənoy və s.*

-ata. Dilimizdə*"lağlağı"*sözünün sinonimi olan*"lağata"* sözündə rast gəlinən söz-şəkilçidir. Danışıq dili, dialekt və şivələrimiz üçün səciyyəvidir.

-av. Tərəf, istiqamət ifadə edən söz düzəldir. Ədəbi dilimizdə tam sabitləşməyib, danışıq dili üçün xarakterikdir. Qərb qrupu dialekt və şivələrində işlənir. Məsələn: *yanav*

-dəş. Bu şəkilçi addan ad düzəldən qeyri-məhsuldar şəkilçidir. Dialekt və şivələrdə işlənən *"səydəş"* sözündə rast gəlinir.

-dərəm. Bu şəkilçi *–dəş* şəkilçisi ilə sinonimlik keyfyyətinə malik olub, atributiv səciyyəli *"səydərəm"* sözünü əmələ gətirir.

-ənək. Qərb qrupu dialekt və şivələri üçün xarakterik olan, ad düzəldən qeyri-məhsuldar şəkilçilər qrupuna aiddir. Dialektlərdəki *"səyənək və gicənək"* sözlərində təsadüf olunur.

Qeyd edək ki, *-dəş,-dərəm,-ənək* qeyri-məhsuldar şəkilçilərinin işlənmə arealı daha məhduddur və bunlar dildə arqotizm səviyyəsində olan vulqar sözlər hesab olunur.

-ski. Bu şəkilçi keçən əsrin ikinci yarısında dilimiz üçün daha xarakterik olmuşdur. Vaxtilə şəkilçinin *–skiy,-skaya,-ski* formaları işlənmiş, bəzi antroponimlərin və toponimlərin əmələ gəlməsində iştirak etmişdir. Lakin hazırda rus mənşəli olan bu şəkilçi, demək olar ki, işləkliyini tamamilə itirmək üzrədir. Şəkilçinin *–ski* formasına ərazi adını ifadə edən *"komsomolski"* sözündə işlənir.

-ok. Dialekt və şivələrimizdə sifətdən isim düzəldən qeyri-məhsuldar şəkilçi kimi çıxış edir. Məsələn: *bicok*

-ska. Dialekt və şivələrdə şəkilçi kimi bəzən söz kökü də mənşə etibarilə alınma olur. *–ska* şəkilçisi ədəbi dilimizdəki *"içkili", "sərxoş"* sözlərinin şifahi danışıq dilində sinonimi olan *"pyan"* sözünə artırılıb, əşya, şəxs, hal-vəziyyət ifadə edən *"pyanska"* sözünü düzəldir.

-es. Sifətdən atributiv səciyyəli söz əmələ gətirən qeyri-məhsuldar şəkilçi olub, ədəbi dildəki *–uş (koruş)* şəkilçisinin qrammatik sinonimi kimi çıxış edir. Qərb və Cənub qrupu dialekt və şivələrinin söz yaradıcılığı prosesində iştirak edir. Məsələn: *Kores, gonbules.*

-uç,-üç. Ədəbi dildəki feildən feil düzəldən *–uş,-üş* şəkilçisi ilə qrammatik sinonimlik təşkil edir. Qərb qrupu dialekt və şivələri üçün xarakterikdir. Məsələn: *soruçmaq, sürüçmək və s.*

-ne. Danışıq dilində işlənən rus mənşəli qeyri-məhsuldar ön şəkilçidir. Qoşulduğu sözdə əsasən, əlamət, keyfiyyət, xüsusiyyət, zahiri görkəm, əksilik məzmunu yaradır. Məsələn: *nestandart.*

-nı. Bu şəkilçi də danışıq dilində, məişət üslubunda işlənən Rus-avropa mənşəli qeyri-məhsuldar şəkilçi və sözlərin sonuna qoşularaq əlamət, keyfiyyət bildirən sözlər əmələ gətirir. Məsələn: *formalnı, normalnı, naturalnı və s.*

-unnuq. Ədəbi dilimizdəki feildən sifət düzəldən *–nuq* şəkilçisinin dialektlərdəki fonetik variantıdır. Əsasən, Qərb qrupu dialektlərində işlənir. Məsələn: *yorunnuq.*

-m. Dialekt və şivələrdə zərfdən zərf düzəldən qeyri-məhsuldar şəkilçi kimi çıxış edir. Məsələn: *hələm*

-cığ. Bu şəkilçi qeyri-məhsuldar olub, ədəbi dildəki feildən isim düzəldən *–ğıc* şəkilçisinin dialekt və şivələrimizdə işlənən, fonetik dəyişikliyə uğramış formasıdır. Məsələn: *başlancığ*

-gi. Feildən isim və atributiv səciyyəli söz düzəldən qeyri- məhsuldar *–gə* şəkilçisinin dialektlərdə işlənən variantıdır. Qərb qrupu dialekt və şivələri üçün xarakterikdir. Məsələn*: şitəngi*

-ş. Addan ad düzəldən qeyri-məhsuldar şəkilçi kimi çıxış edir. Demək olar ki, əksər dialekt və şivələrimizdə işlənir. Şəkilçi ədəbi dilimizdə mürəkkəb sözlərin tərkib hissəsi kimi çıxış edən *avto* sözünə qoşulub *avtoş* sözünü əmələ gətirir.

Omonimlik keyfyyətinə də malikdir. Dialektlərdə sifət də düzəldə bilir: *dənəş.* Ədəbi dildəki *–c* şəkilçisinin (*anac, toxac)* dialekt və şivələrimizdəki qarşılığı kimi də işlənir. Məsələn: *anac-anaş(toyuq)*

-nçi. Bu şəkilçi dialekt və şivələrimizdə əsasən *–ca,-cə* şəkilçisinin qarşılığı kimi işlənir. Bakı dialektində daha çox işlənir. Məsələn: *elənçi, belənçi.*

-tər. Qərb qrupu dialekt və şivələri üçün xarakterik olan və əvəzlik əmələ gətirən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *nətər*

Bu şəkilçi ədəbi dildə işlənən *təhər* sözünün (*nə təhər?)* ixtisarı nəticəsində əmələ gəlib, dialekt və şivələrimizdə *-tər* kimi sabitləşmişdir.

-alı. Dialekt və şivələrimizdə isimdən isim düzəldən şəkilçi kimi çıxış edir. Əslində *-alı* şəkilçisi ədəbi dildə *-ə+li* formasında işlənir: *xəmr-xəmrə-xəmrəli.* Dialektlərdə (Qərb qrupu) isə -alı formasında işlənir. Məsələn: *xamralı* (çörə-

yin bir növü mənasında). Bu sözə İ.Şıxlı yaradıcılığında da təsdüf olunur: *Ala xurcunun bir gözünü xamralı* çörəyi, o biri gözünü isə pendir, yağ, balla doldurdu; Evdə xurcunu açanda gördüm ki, bir gözündə təndir və *xamralı* çörəyi, o biri gözündə isə yağ, pendir, hə t a qənd, çay da var.

-ner. Ədəbi dildə işlənən *–ioner* şəkilçisinin danışıq dilindəki fonetik variantı olub, şəxs, əşya, vəzifə bildirir. *–ner* şəkilçisinin ədəbi dildəki qarşılığı kimi *–çı,-çi,*-çu,-çü sözdüzəldici şəkilçisi işlənir. Məsələn: *pensiyaner-pensiyaçı*.

-ov. Bu şəkilçi əslində şəkilçiləşmiş söz olub, ədəbi dildə işlənən *ab(su)* sözünün dialekt və şivələrimizdəki fonetik dəyişikliyə uğramış formasıdır. Qoşulduğu sözdə əşya, hadisə, yer, məkan məzmunu yaradır. Məsələn: *selov*

2.3. SÖZ-ŞƏKİLÇİLƏRİN İŞLƏNMƏSİ HAQQINDA

Qədim tarixi kökə malik olan dilimizin orijinal qrammatik quruluşu, fonetik və leksik tərkibi, zəngin çalarlar ifadə edən söz yaratma qabiliyyəti vardır. Bunların hamısı bir-birilə üzvi şəkildə vəhdət təşkil edir, birinin varlığı digərinin varlığını, inkişafını zəruri edir.

Söz yaradıcılığı (derivatologiya) da dilçiliyin əsas, aparıcı, praktik şöbələrindən biri kimi olduqca mühüm əhəmiyyət kəsb edir. Təsadüf deyil ki, digər diliçilik şöbələrinin, xüsusən də, leksikologiya və morfologiyanın obyekti olan sözlər də sözyaratma prosesində iştirak edir və müstəqil semantikaya malik leksik vahidlərə çevrilir. Ona görə də, "dildəki sözlərin demək olar ki, əksəriyyəti sözyaratma yolu ilə əmələ gəlmişdir. Deməli, sözyaratma dilin inkişafı və formalaşmasında başlıca vasitədir. Söz müxtəlif mənbələr əsasında bir sıra üsullarla əmələ gətirirlir".(2., 384). Belə üsul və yollardan biri də morfolji yolla söz yaradıcılığıdır. Morfoloji yolla yaran sözlər digər yollarla əmələ gələn sözlərdən həm kəmiyyət, həm də keyfiyyət baxımından fərqləndirilir, dilin lüğət ehtiyatını zənginləşdirən ən mühüm vasitələrdən biri kimi çıxış edir.

Dildəki sözyaratma prosesi əsasən, leksik, yəni sözdüzəldici şəkilçilərin hesabına daha da inkişaf edir, zənginləşir. Bu qrupa daxil olan şəkilçilərin özləri də dilçilik ədəbiyyatlarında xarakterik xüsusiyyətlərinə görə təsnif olunmuş, tədqiqata cəlb edilmiş, linqvistik təhlil müstəvisinə

gətirilmişdir. “Dilimizdəki şəkilçilərin sinonim, omonim və antonimliyi, onların leksik, leksik-qrammatik, qrammatik-leksik, qrammatik şəkilçilər kimi qruplaşdırılması, ayrı-ayrı nitq hissələrinə aidliyi, quruluşca növləri, məhsuldar və qeyri-məhsuldar olması və s. xüsusiyyətləri də geniş tədqiq edilmişdir”.(29.,101)

Lakin sözdüzəldici şəkilçilərələ əlaqədar elə məqamlar, spesifk cəhətlər vardır ki, onlar bu gün də tam öyrənilməmiş, hər tərəfi araşdırılmamışdır. Ona görə də, şəkilçilərin simasında bəzi dil faktları yeni yanaşma, tədqiqat tələb edir. Belə mövzulardan biri də söz-şəkilçilərdir. Söz-şəkilçilər şəkilçilərin digər növləri ilə müqayisədə tam öyrənilməmiş, az tədqiq olunmuşdur. Bu qrupa aid mofemlər əsasən ayrı-ayrı monoqrafk tədqiqatların tərkibində məqalə səviyyəsində işıqlandırılmış, sistemli olaraq təhlil edilməmişdir. Söz- şəkilçi anlayışı əslində şərti xarakterə malik olub, şəkilçilərin işlənmə məqamına əsasən müəyyənləşir. Bu qrupa aid olan morfemlər kəmiyyət nöqteyi-nəzərindən sözdəyişdirici şəkilçilərlə müqayisədə sözdüzəldici şəkilçilər arasında, xüsusilə, qeyri-məhsuldar şəkilçilərin arasında daha çoxdur, əsasən birhecalı və ikihecalı söz-şəkilçilərdən ibarətdir. Söz-şəkilçinin hansı halda şəkilçi, hansı halda müstəqil söz kimi(əslində söz kökü kimi) işlənməsi onun konkret mətn daxilində işlənmə məqamından, funksiyasından, xarakterik xüsusiyyətlərindən asılıdır. Başlıqda verilən söz anlayışı da nisbi səciyyə daşıyır. Çünki bu məqamda verilən sözlər(söz-şəkilçilər) həm əsas nitq hissəsinə, həm də köməkçi nitq hissəsinə mənsub ola bilir. Əsas nitq hissələrindən fərqli olaraq köməkçi nitq hissələrinin leksik mənası olmur və onlar yalnız ümumiləşmiş qrammatik məna ifadə edirlər.

Müasir Azərbaycan ədəbi dilində qeyri-məhsuldar şəkilçilər sırasında yüzlərlə söz-şəkilçi funksiyasında çıxış edən morfemlər vardır və onlar əsasən aşağıdakılardan ibarətdir: *-düz, -ah, -ey, -mal, -əli, -dur, -əm, -il, -qan, -say, -gil ,-qul, -aş, -məzə, -ar, -ər, -əl, -lama, -an, -bac, -man, -an, -ən ,-iş ,-qar, -alaq, -kəm, -maz, -ac, -ata, -at, -daş, -pik, -vay, -dəlik, -dəm, -çim, -əmlik, -cam, -ha, -dan, -xana, -şən, -zar, -kar, -dar, -gir, -əng, -xar, -saz, -duz, -namə, -güzar, -gün -ayə, -xay, -bənd, -yan, -yor, -lom, -ev, -ov, -on, -yer, -xala, -var, -al, -əl, -bat, -əlik, -bab, -pər, -qədər, -xan, -zad, -abad, -at, -əsər, -it, -yat, -ar, -ari, -post, -az, -dış, -daş, -təhər, -mən, -ağa, -xana, -şar, -kin, -uc, -tay, -keş, -ay, -gor, -ani, -iş, -az ,-ün və s.*

Qeyd edək ki, söz-şəkilçilər qrupuna mənsub olan morfemlər bir-birilə omonim münasibətində olur, mətndaxili situasiyadan asılı olaraq müxtəlif məzmunlu sözlər düzəldir, yaxud da müxtəlif məzmunlu sözlər kimi çıxış edə bilirlər. Aşağıda verilən həm şəkilçi, həm də söz morfemlərin özləri də, əsasən omonimlik xüsusiyyətinə malikdir. Söz-şəkilçilər əvvəlcə şəkilçi, sonra isə müstəqil mənalı söz kimi verilmişdir:

Sıra nömrəsi	**Söz-şəkilçi**	**Şəkilçi vəzifəsində**	**Müstəqil mənalı söz vəzifəsində**
1.	**-xan**	**yayxanmaq**	*Xan gəlir sarayından. (folklordan)*
2.	**-az**	**topaz**	*Az danış, az din, qoy az sözlərinlə dünya bəzənsin. (Nizami)*
3.	**-mən**	**Türkmən, öytətmən**	*Məni mənim kimi tanımadın sən. (V.Dumanoğlu)*
4.	**-daş**	**soydaş, yoldaş, vətəndaş, sirdaş**	*Adətimiz daş idi, dəva günü Tullardıq əldə sapan qıjhaqıj! (Sabir)*
5.	**-iş**	**bəxşiş**	*İş insanın cövhəridir. (atalar sözü)*
6.	**-ay**	**olay**	*Gün dolanır, aylar ötür, il keçir. Sevən könül sevdiyindən əl çəkir?...(V.Dumanoğlu)*
7.	**-var**	**suvarmaq**	*Mən baharam çəmən-çəmən, çiçəyim var, gülüm var. (R.Rza)*
8.	**-qar**	**yonqar, ucqar**	*Gün qalxdıqca gecə şaxtadan donan yolların qarı əriyirdi. (İ.Şıxlı)*
9.	**-alaq**	**basalaq**	*Evdə yaşayış olmadığı üçün, həyəti alaq basmışdı.*

10.	**-əsər**	**dəngəsər**	*Bir az bundan əvvəl utanıb qızaran qızdan əsər qalmadı.(İ.Şıxlı)*
11.	**-yat**	**oktyabryat**	*Laylay, balam, laylay Yat, qal dala, laylay. (Sabir)*
12.	**-gün**	**gülgün, laləgün**	*Günlər həmin gün olaydı, Bir çıxaydıq dağ başına... (V.Dumanoğlu)*
13.	**-il**	**Sevil**	*Düşdük nəs aylara, nəs illərə Nəsillərdən nəsillərə... (S.Vurğun)*
14.	**-an**	**qalxan, şoran**	*Mərd olmaq yaxşıdır dünyada hər an, Mərdlik ilə çatar arzuya insan.(N.Gəncəvi)*
15.	**-gor**	**avaragor**	*Dözə bilməz Soltan babam, Goru bəlkə çatlayıbdı... (V.Dumanoğlu)*
16.	**-uc**	**sonuc**	*İmran burnunun ucuna qədər qızardı.(İ.Şıxlı)*
17.	**-ağa**	**yolağa**	*Qəribə yaradıb bizi xəlq edən, Nökər mən olmuşam, ağa gözlərin!(V.Dumanoğlu)*
18.	**-ari**	**parlamentari**	*B.e.ə. II minillikdə köçəri ari tayfaları Hindistana hərəkət etdilər.*
19.	**-post**	**postsovet, postmodern və s.**	*Postdakı əsgərlərin sayıqlığı nəticəsində düşmən zərərsizləşdirilmişdir.*

20.	**-abad**	**Pənahabad, Əliabad, Sabirabad və s.**	***Abad*** *könlü yıxar, pərişan eylər. (A.Ələsgər)*
21.	**-at**	**tədqiqat, təbliğat, məlumat və s.**	*Bu dünyada üç şey başa bəladı: Yaman oğul, yaman arvad, yaman* ***at****. (A.Ələsgər)*
22.	**-it**	**bronxit**	*Görürəm ta əti qəssab dükanında asılıb, Az qalır* ***it*** *kimi nəfsim hürə, dırmaşa ətə! (Sabir)*
23.	**-dəm**	**gündəm, yöndəm**	*...Bu saat, bu* ***dəm*** *Heç yana, heç yerə mən tələsmirəm.(S.Vurğun)*
24.	**-çim**	**əlçim**	*Ağalıq şenliyinin qızları Kürü üzüb o taya keçər, meşədən cır alma-armud yığar, Qara bulağın suyundan içib Kürdə* ***çimişərdilər****.(İ.Şıxlı)*
25.	**-bənd**	**aynabənd, şüşəbənd,nalbənd**	*Aldadır könlümü bu çöl, bu çəmən, ****Bəndim*** *də, bərəm də, tələdi, tələ.(V.Dumanoğlu)*
26.	**-saz**	**saatsaz, rəngsaz**	*Kövrəltməyin könül* ***sazın****, Məndən gözün bəm çəkibdi...(V.Dumanoğlu)*
27.	**-gir**	**fəndgir, pulgir, cahangir**	*Zeynəb içəri* ***girdi****, şalını başına örtüb bayıra çıxdı.(İ.Şıxlı)*
28.	**-kar**	**sənətkar, xilaskar, xidmətkar**	*Qışqırmayın, mən* ***kar*** *deyiləm.(İ.Əfəndiyev)*

29.	**-dar**	**əməkdar, səhmdar**	*Onlar iki eşelonla, güclü top atəşinin köməkliyi ilə, dar küçə və dalanlara girməkdən çəkinərək, geniş küçələrdə döyüş texnikasından istifadə etməklə irəliləməyə çalışırdılar.(İ.Şıxlı)*
30.	**-şən**	**gülşən**	*O vaxtı Şuşanın şən çağlarıydı, Qayğısız yaşayan elləri vardı! (V.Dumanoğlu)*
31.	**-dan**	**güldan, qənddan, qələmdan**	*Dan yeri qızarıb günəşin ilk şəfəqləri pəncərələrdə oynarkən körpünün üstündə hücum edənlərlə Üsyançılar qarşılaşdılar. (İ.Şıxlı)*
32.	**-qan**	**alışqan, çalışqan, yapışqan**	*Qan tökülüb qalsa yerdə, Ürək dözməz belə dərdə... (V.Dumanoğlu)*
33.	**-soy**	**Əlisoy, Əsgərsoy, Uğursoy**	*Üşüyürdüm. Teymur bunu hiss edib pencəyini soyundu, yavaşca çiynimə saldı.(İ.Şıxlı)*
34.	**-ani**	**cismani**	*Halay bəy ani olaraq xəyalən gənclik illərinə, ilk müəllimlik çağlarına getdi və o günlər üçün burnunun ucu göynədi. (İ.Şıxlı)*
35.	**-kin**	**çiskin**	*Kin ilə, sülh ilə sınanmış cahan, Sülhündən xeyir olmuş, kinindən ziyan. (N.Gəncəvi)*

36.	**-bat**	**ucbat**	*Biz kəndin ayağına çatanda günəş artıq batmışdı.*
37.	**-on**	**leksikon**	*Məni on gün gözləyin. (İ.Şıxlı)*
38.	**-yer**	**modelyer, medalyer**	*Ayrıldıqdan sonra doğma yerlər ona daha gözəl göründü. (İ.Şıxlı)*
39.	**-yon**	**medalyon**	*Bu daşı çox yonub hamar etmisən, Dağılmış bir evin tağı görünmür... (V.Dumanoğlu)*
40.	**-əm**	**üçəm, dördəm**	*Bahar çağı güllər günəş əməndə, Görüş təyin eləmişəm çəməndə.(M.Rahim)*
41.	**-bab**	**ortabab**	*Məktəb nə demək? Ümmətə bir babi-səadət. (M.Hadi)*
42.	**-ər**	**Gülər, Sevər**	*Yağıların gözlərinə bir ox ol, Vətən desin, sənə oğul, sənə ər! (V.Dumanoğlu)*
43.	**-ar**	**Anar, Yaşar**	*Məndə ar olsaydı ölmək ixtiyar etməzmidim? (Sabir)*
44.	**-təhər**	**birtəhər, ağtəhər, sarıtəhər.**	*Bunun təhəri yoxdur ki. (İ.Şıxlı)*
45.	**-qədər**	**məktəbəqədər**	*İlk baxışda qaradinməz, bir qədər də rəsmi görünür.(İ.Şıxlı)*

46.	**-qul**	**tuşqul**	*Bundan sonra Kazım Kosaoğlunun qarşısında əlibağlı qula döndü. (İ.Şıxlı)*
47.	**-ah**	**tamah**	*Ah-amanın əlindəcə talandım, Ocaq olub yurd yerində qalandım.(V.Dumanoğlu)*
48.	**-pər**	**yekəpər**	*Tor qayığın pərinə ilişdiyindən qayıq çayın ortasında hərəkətsiz qalmışdı.*

Qeyd: Söz-şəkilçilər qrupuna mənsub olan morfemlərin böyük əksəriyyəti omonimlik key fyyətinə malikdir. Yuxarıda verilən cədvəldə isə müxtəlif mövqede omonim kimi işlənən budaq və əsas morfemlərin yalnız bir mənası, işlənmə məqamı göstərilmişdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan dilinin qrammatikası. Bakı, 1951.
2. A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Maarif. Bakı-1985
3. A.Ə.Aslanov. Azərbaycan dilində morfoloji üsul ilə yeni söz və terminlərin yaradılmasına dair.Dilçilik məcmuəsi. Nizami adına ədəbiyyat və dil institutunun əsərləri. XIV cild. Bakı,1960.
4. Azərbaycan dilinin qrammatikası. I hissə. Bakı,1960.
5. Azərbaycan dilindən didaktik materiallar (V sinif). Maarif, Bakı-1977.
6. Azərbaycan dilinin orfoqrafya lüğəti. Lider nəşriyyatı, Bakı-2004.
7. A.Ağalarov. Azərbaycan dilində qeyri-məhsuldar şəkilçilər.Məktəb nəşriyyatı.2010
8. Azərbaycan dilinin izahlı lüğəti.4 cilddə.I cild.Bakı-2006.
9. Azərbaycan dilinin izahlı lüğəti.4 cilddə.II cild.Bakı-2006.
10. Azərbaycan dilinin izahlı lüğəti.4 cilddə.IIIcild.Bakı-2006.
11. Azərbaycan dilinin izahlı lüğəti.4 cilddə.IV cild.Bakı-2006.
12. Azərbaycan dilinin qısa etimoloji lüğəti. Bakı-1999.
13. Azərbaycan dilinin izahlı lüğəti.II cild. Elm nəşriyyatı. Bakı-1980.
14. Azərbaycan dilinin izahlı lüğəti.III cild. Elm nəşriyyatı. Bakı-1983.
15. A.Quliyeva, M.Soltanov. Məktəblinin orfoqrafya-orfoepiya-qrammatika lüğəti. Bakı-2009.
16. A.Axundov, G.Əmirova.Məktəblinin orfoqrafya lüğəti. Təhsil nəşriyyatı.Bakı-2004.
17. Azərbaycan dilinin orfoqrafya lüğəti. VI nəşr. Bakı-2013.
18. Azərbaycan dilinin orfoepiya sözlüyü. Bakı-1983.

19. Azərbaycan dilinin orfoqrafya lüğəti. III nəşr. Bakı-1975.
20. A.Axundov. Azərbaycan dilinin fonetikası. Maarif nəşriyyatı. Bakı-1984.
21. A.Vəliyeva. Bəzi qeyri-məhsuldar şəkilçilərin sözyaratma imkanı haqqında. Magistrantların Regional Elmi Konfransının materialları. N 4. Naxçıvan-2013.
22. A.İmanlı. Araz vadisinin oykonimləri. "Məktəb" nəşriyyatı. Naxçıvan -2013.
23. A.İmanlı. Tarixin izləri: Yer adları. "Məktəb" nəşriyyatı. Naxçıvan -2013
24. A.Abbasov, R.Abbasov, A.Qarayev. English for Beginers. Bakı-2006.
25. B.Xəlilov.Müasir Azərbaycan dilinin morfologiyası.I hissə.Bakı- 2007.
26. B.Xəlilov.Müasir Azərbaycan dilinin morfologiyası.II hissə.Bakı- 2007.
27. B.Xəlilov. Feillərin ilkin kökləri.Bakı-1998.
28. "Dastani-Əhməd Hərami". Bakı-2004.
29. E.Maqsudov. Azərbaycan dilinin tədqiqi və tədrisi məsələləri.Elm və təhsil nəşriyyatı.Bakı-2012.
30. E.Maqsudov. Poetik-praktik Azərbaycan dili. Nurlan. Bakı-2011.
31. Ə.Əfəndizadə. Suallar və cavablar. Bakı-1999.
32. Ə.Dəmirçizadə. "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Bakı-1999.
33. Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili.Fonetika, orfoepiya,orfoqrafya.I hissə. Şərq-Qərb nəşriyyatı.Bakı-2007.
34. Ə.Əfəndizadə. Orfoqrafya-orfoepiya lüğəti. Azərnəşr. Bakı-1989.
35. Ə.Tanrıverdi.Azərbaycan dilinin tarixi qrammatikası. Elm və təhsil nəşriyyatı. Bakı-2010.
36. Ə.Rəcəbli. Qədim türk yazısı abidələrinin dili.I hissə.Nurlan nəşriyyatı.Bakı-2006.
37. Ə.Muxtaroğlu. Azərbaycan dilinin Şahbuz şivələrinin leksikası. Elm və təhsil nəşriyyatı.Bakı-2013.

38. H.Həsənov. Azərbaycan dilinin antonimlər lüğəti. Azərnəşr. Bakı-1985.
39. H.Mirzəzadə.Azərbaycan dilinin tarixi morfologiyası. Bakı-1962.
40. H.Mirzəzadə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı-1990.
41. H.Balıyev. Orta məktəbdə Azərbaycan dilinintədrisi metodikası.Bakı-1996.
42. İ.Rəhimov. İngilis dilinin praktik qrammatikası. Bakı-2004.
43. İ.Əsgər. Morfoloji yolla söz yaradıcılığında qeyri-məhsuldar şəkilçilərin rolu. Elm və təhsil nəşriyyatı.Bakı-2014.
44. İ.Məmmədov, H.Həsənov. Azərbaycan dilinin sinonimlər lüğəti. Yazıçı. Bakı-1990.
45. "Kitabi-Dədə Qorqud" dastanları. Bakı-2004.
46. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb-fars sözləri lüğəti.İki cilddə.I cild.Şərq-Qərb.Bakı-2005.
47. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb-fars sözləri lüğəti. İki cilddə.II cild.Şərq-Qərb. Bakı-2005.
48. Q.Kazımov.MüasirAzərbaycan dili.Morfologiya. Elm və təhsil nəşriyyatı.Bakı-2010.
49. Q.Kazımov.Seçilmiş əsərləri.10 cilddə.IX cild.Birinci kitab.Nurlan nəşriyyatı.Bakı-2010.
50. Q.Kazımov.Seçilmiş əsərləri.10 cilddə.VI cild.Nurlan nəşriyyatı.Bakı-2009
51. M.Hüseynzadə. Müasir Azərbaycan dili.Morfologiya.III hissə. Şərq-Qərb nəşriyyatı.Bakı-2007.
52. M.Şirəliyev.Azərbaycan dilinin dialektologiyası.Şərq-Qərb nəşriyyatı.Bakı-2008.
53. M.Nağısoylu.Azərbaycan dili.Abituriyentlər üçün dərs vəsaiti.Bakı-2006.
54. Müasir Azərbaycan dilinin semasiologiyası.(oçerklər). Elm.Bakı-1985.
55. Müasir Azərbaycan dili. 3 cilddə, II cild. Bakı-1980.
56. Müasir ingiliscə-azərbaycanca, azərbaycanca-ingiliscə lüğət. Çaşıoğlu nəşriyyatı.Bakı-2013.

57. N.Abdullazadə, F.Xalıqov.Azərbaycan dili.Didaktik materiallar.I cild.Müəllim nəşriyyatı.Bakı-2008.
58. N.Abdullazadə.Milli kurikulum.Azərbaycan dili linqvistik təhlildə. Müəllim nəşriyyatı.Bakı-2014.
59. N.A.Bonk, Q.A.Kotiy, N.A.Lukyanova. İngilis dili dərsliyi. I hissə.Bakı-2007.
60. R.İsmayılov, F.Şahbazlı, X.Qasımova, Q.Əmircanova .Azərbaycan dili.Ümumtəhsil məktəblərinin 5-ci sinf üçün dərslik.Altun kitab.Bakı-2006.
61. R.İsmayılov, X.Qasımova, F.Ellazov. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 7-ci sinf üçün dərslik.Altun kitab.Bakı-2011.
62. R.İsmayılov,X.Qasımova. Azərbaycan dili 5-7. Müəllim üçün vəsait. Bakı-2006.
63. R.Rüstəmov.Qazax və Tovuz şivələrinin morfoloji xüsusiyyətləri haqqında(adlar). Dilçilik məcmuəsi. Nizami adına ədəbiyyat və dil institutunun əsərləri.XIV cild. Bakı,1960.
64. R.Məhərrəmova.Sabirin satirik şeirlərində söz və ifadə yaradıcılığı. Dilçilik məcmuəsi. Nizami adına ədəbiyyat və dil institutunun əsərləri.XIV cild.Bakı,1960.
65. S.Cəfərov.Müasir Azərbaycan dili.Leksika.II hissə. Şərq-Qərb nəşriyyatı.Bakı-2007.
66. S.Zeynal.Azərbaycan dili morfologiyasının tədqiqi tarixi(XX əsr).Elm və Təhsil nəşriyyatı.Bakı-2011.
67. Y.Seyidov, F.Şahbazlı,Q.Əmircanova. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 6-7-ci sinf üçün dərslik.Çaşıoğlu nəşriyyatı.Bakı-2005.
68. Y.Seyidov. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı-2000.
69. Z.Verdiyeva, F.Ağayeva, M.Adilov. Azərbaycan dilinin semasiologiyası.Maarif nəşriyyatı.Bakı-1979.

MÜNDƏRİCAT

Müəllifdən, yaxud da “Sözümün canı var” 3

I fəsil. Ad düzəldən qeyri-məhsuldar şəkilçilər və onların mənşəyi.....12

1.1. Ad düzəldən milli mənşəli qeyri- məhsuldar şəkilçilər.....12

1.2. Ərəb-fars mənşəli ad düzəldən qeyri-məhsuldar şəkilçilər.76

1.3. Rus-avropa mənşəli ad düzəldən qeyri-məhsuldar şəkilçilər.....92

II fəsil. Feil düzəldən qeyri-məhsuldar şəkilçilər və müasir Azərbaycan dilində söz-şəkilçilərin işlənmə məqamları.....108

2.1. Adlardan və feillərdən feil düzəldən qeyri-məhsuldar şəkilçilər 108

2.2. Dialekt və şivələrimizdə söz yaradıcılığı.....129

2.3. Söz-şəkilçilərin işlənməsi haqqında 134

Ədəbiyyat siyahısı.....143

«Elm və təhsil» nəşriyyatının direktoru:
professor Nadir Məmmədli

Üz qabığının dizaynı:
Günel İsmayılova

Texniki redaktor:
Günay Əmirova

Çapa imzalanmış 16.02.2015
Şərti çap vərəqi 9.25. Sifariş № 33
Kağız formatı 60x84 1/16. Tiraj 200

Kitab «Elm və təhsil» nəşriyyat-poliqrafya
müəssisəsində çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

Af-282747

Ana dilim, səndəbir xalqın sə[illegible]
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.
Səndə mənim xalqımın qəhrəmanlıqla dolu
Tarixi varaqlanır,

Səndə neçə min illik mənim mədəniyyətim,
Şan-Şöhrətim saxlanır.

Mənim adım, sanımsan,
Nəvazəsim, vüqarımsan!

B. Vahabzadə